# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

# TRANSACTIONS
## OF PEDAGOGICAL UNIVERSITY

ISSN 2520-2014

*Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası*

*Series of humanitarian, social, pedagogical and psychological sciences*

# 2022, C. 70, № 1

**Jurnal 24 may 1991-ci il tarixdə Azərbaycan Respublikası**
**Mətbuat Komitəsində qeydiyyatdan keçmişdir (şəhadətnamə № 307)**
***(1953-cü ildən nəşr edilir)***

# PEDAQOJİ UNİVERSİTETİN XƏBƏRLƏRİ

***Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası,* 2022, C.70, №1**

**BAŞ REDAKTOR** T.ü.e.d., prof. C.M.Cəfərov
**EDITOR-IN-CHIEF** Prof. Dr. J.M.Jafarov

**REDAKSİYA HEYƏTİ**

F.-r.e.d., prof. A.D.Zamanov ***(baş redaktorun müavini)***, psix.e.d., prof. R.İ.Əliyev, f.ü.e.d., prof. M.N.Hüseynova, p.ü.e.d., prof. M.İ.İlyasov, f.e.d., prof. H.Ə.Qasımov, p.e.d., prof. F.A.Rüstəmov, f.ü.e.d., prof. F.Ç.Rzayev, t.e.d., prof. O.B.Sultanov

**REDAKSİYA ŞURASI**

F.e.d., prof. Y.M.Babayev, f.e.d., prof. T.S.Cavadov, p.e.d., prof. M.R.Dadaşova, p.ü.e.d., prof. M.M.Əmirov, p.e.d., prof. R.L.Hüseynzadə, f.e.d., prof. Z.A.Xəlilov, s.ü.e.d., prof. J.H.Qədimova, t.e.d., prof. X.M.Məmmədov, f.ü.e.d., dos. N.M.Sadıqova, p.ü.f.d., prof. İ.N.İsayev, p.ü.e.d., dos. Ş.Q.Əliyeva, p.ü.f.d., dos. N.Ə.Abdullazadə, p.ü.f.d., dos. N.T.Hüseynova
F.ü.f.d. N.Q.Aslanova ***(məsul katib)***

**EDITORIAL BOARD**

Prof. Dr. A.D.Zamanov ***(ass. editor)***, Prof. Dr. R.I.Aliyev, Prof. Dr. M.N.Huseynova, Prof. Dr. M.I.Ilyasov, Prof. Dr. H.A.Gasimov, Prof. Dr. F.A.Rustamov, Prof. Dr. F.Ch.Rzayev, Prof. Dr. O.B.Sultanov

**ADVISORY BOARD**

Prof. Dr. Y.M.Babayev, Prof. Dr. T.S.Javadov, Prof. Dr. M.R.Dadashova, Prof. Dr. M.M.Amirov, Prof. Dr. R.L.Huseynzadeh, Prof. Dr. Z.A.Khalilov, Prof. Dr. J.H.Gadimova, Prof. Dr. Kh.M.Mammadov, Ass. prof. Dr. N.M.Sadigova, Prof. PhD I.N.Isayev, Ass. prof. Dr. Sh.Q.Aliyeva, Ass. prof. PhD N.A.Abdullazadeh, Ass. prof. PhD N.T.Huseynova
PhD N.G.Aslanova ***(executive secretary)***

***©ADPU, 2022***
***©ASPU, 2022***

# MÜNDƏRİCAT

## *Humanitar elmlər*

***Cəbrayılov Ş.H.***
MİRZƏ ƏLƏKBƏR SABİRİN SATİRALARININ ƏSAS TƏNQİD HƏDƏFLƏRİ … 6
***Məmmədov X.B., Çələbiyeva X.T.***
AZƏRBAYCAN, TÜRK VƏ RUS ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRİNİN "QOŞAYARPAQ” VƏ YA"ÇARPAZ QAFİYƏ" FORMULLARI ………................... 13
***Vəliyeva F.M.***
AZƏRBAYCAN AFORİZMLƏRİNİN FORMA VƏ MƏZMUN XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİNƏ DAİR ……….................................................. 20

## *İctimai elmlər*

***Ağayeva N.Ş.***
NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ 1995-2000-Cİ İLLƏRDƏ ............................ 26
***Talıbov S.V.*** ÜMUMMİLLİ LİDERLİK: POLİTOLOJİ ANLAMI VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ ........................................................................................ 35
***Bağırova N.D.***
MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN KOLLEKSİYASINDA İLK AZƏRBAYCANLI HƏKİM-PSİXİATR, İCTİMAİ XADİM İBRAHİM RƏHİMOVUN MATERİALLARINA DAİR ................................................................ 49
***Qəhrəmanova N.F.***
SOSİAL İDARƏETMƏ NƏZƏRİYYƏSİ VƏ PRAKTİKASINDA SOSİAL İNFORMASİYANIN SPESİFİK FUNKSİYALARI MƏSƏLƏSİNƏ DAİR ................ 57
***Məmmədov N.R.***
HEYDƏR ƏLİYEV VƏ ŞUŞANIN TARİXİ …………………................................. 66
***Musayeva S.X.***
SAXURLARDA “QIZBƏYƏNMƏ” ADƏTİ ……............................................………. 78

## *Pedaqoji-psixoloji elmlər*

***Əliyeva Ş.Q.***
TƏBİƏTLƏ TANIŞLIQ PROSESİNDƏ ÜMUMİ NİTQ İNKİŞAFINDA LƏNGİMƏ OLAN UŞAQLARIN SAVAD TƏLİMİ ÜÇÜN OPTİMAL ŞƏRAİTİN YARADILMASI ......................................................................................................... 85
***İlyasov M.İ.***
ŞƏXSİYYƏTİN TƏRBİYƏLİLİK SƏVİYYƏSİNİN TƏBİİ İMKANLARLA ŞƏRTLƏNMƏSİNƏ DAİR .................................................................................. 93
***Mollayeva E.Ə.***
AZƏRBAYCAN AİLƏSİNDƏ GENDER MÜNAQİŞƏLƏRİNİN TƏRBİYƏ PROSESİNƏ TƏSİRİ .......................................................................................... 106
***Musayeva S.H.***
MUSİQİ MÜƏLLİMİNİN PEŞƏKAR HAZIRLIĞINDA İNTEQRATİV YANAŞMANIN ROLU ......................................................................................... 115
***Rzayeva F.İ.***
MUSİQİ MÜƏLLİMİNİN PROFESSİONAL ƏHƏMİYYƏTLİ VƏ YARADICI KEYFİYYƏTLƏRİNİN İNKİŞAFI .................................................................... 121

# СОДЕРЖАНИЕ

## *Гуманитарные науки*

***Джабраилов Ш.Г.***
ОБЪЕКТЫ КРИТИКИ В САТИРАХ МИРЗЫ АЛЕКБЕРА САБИРА ..................... 6
***Мамедов Х.В., Челябиева Х.Т.***
ФОРМУЛЫ АЗЕРБАЙДЖАНСКИХ, ТУРЕЦКИХ И РУССКИХ ПОСЛОВИЦ И ПРИТЧ В ФОРМЕ «ПЕРЕКРЁСТНОЙ РИФМЫ» ИЛИ «ГОШАЯРПАГ»/«ЧАРПАЗ ГАФИЕ» ........................................................................ 13
***Велиева Ф.М.***
ОБ ИССЛЕДОВАНИИ ОСОБЕННОСТЕЙ ФОРМЫ И СОДЕРЖАНИЯ АЗЕРБАЙДЖАНСКИХ АФОРИЗМОВ ..................................................................... 20

## *Общественные науки*

***Агаева Н.Ш.***
НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ В 1995-2000 гг. ..... 26
***Талыбов С.В.***
ОБЩЕНАЦИОНАЛЬНОЕ ЛИДЕРСТВО: ПОЛИТИЧЕСКОЕ ПОНИМАНИЕ И ОПЫТ АЗЕРБАЙДЖАНА........................................................................................ 35
***Багирова Н.Д.***
МАТЕРИАЛЫ ПЕРВОГО АЗЕРБАЙДЖАНЦА ВРАЧА ПСИХИАТОРА И ОБЩЕСТВЕННОГО ДЕЯТЕЛЯ ИБРАГИМА РАХИМОВА В КОЛЛЕКЦИИ НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА ................................. 49
***Гахраманова Н.Ф.***
К ВОПРОСУ О СПЕЦИФИЧЕСКИХ ФУНКЦИЯХ СОЦИАЛЬНОЙ ИНФОРМАЦИИ В ТЕОРИИ И ПРАКТИКЕ СОЦИАЛЬНОГО УПРАВЛЕНИЯ 57
***Мамедов Н.Р.***
ГЕЙДАРА АЛИЕВ И ИСТОРИЯ ШУШИ .................................................................. 66
***Мусаева С.Х.***
ОБЫЧАЙ ВЫБОР ДЕВУШКИ – “ГЫЗБЕЙЕНМЕ” У ЦАХУРОВ ............................ 78

## *Педагогико-психологические науки*

***Алиева Ш.Г.***
СОЗДАНИЕ ОПТИМАЛЬНЫХ УСЛОВИЙ ДЛЯ ОБУЧЕНИЯ ДЕТЕЙ С ОБЩЕЙ РЕЧЕВОЙ ЗАДЕРЖКОЙ В ПРОЦЕССЕ ЗНАКОМСТВА С ПРИРОДОЙ ....................................................................................................... 85
***Ильясов М.И.***
ОБ ОБУСЛАВЛИВАНИИ ПРИРОДНЫМИ ВОЗМОЖНОСТЯМИ ОПРЕДЕЛЕНИЯ УРОВНЯ ВОСПИТАННОСТИ ЛИЧНОСТИ ............................... 93
***Моллаева Э.А.***
ВЛИЯНИЕ ГЕНДЕРНЫХ КОНФЛИКТОВ НА ВОСПИТАТЕЛЬНЫЙ ПРОЦЕСС В АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ ....................................................................... 106
***Мусаева С.Х.***
РОЛЬ ИНТЕГРАТИВНОГО ПОДХОДА В ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКЕ УЧИТЕЛЯ МУЗЫКИ ....................................................................... 115
***Рзаева Ф.И.***
РАЗВИТИЕ ПРОФЕССИОНАЛЬНО ВАЖНЫХ И ТВОРЧЕСКИХ КАЧЕСТВ УЧИТЕЛЯ МУЗЫКИ ........................................................................................ 121

# TABLE OF CONTENTS

## *Humanitarian sciences*

***Jabrailov Sh.H.***
MAIN CRITICAL TARGETS OF MIRZA ALAKBAR SABIR'S SATIRES .............. 6
***Mammadov Kh.B., Chalabiyeva Kh.T.***
"KOŞAYARPAQ" OR "ÇARPAZ KAFIYE" FORMULAS OF AZERBAIJANI, TURKISH AND RUSSIAN PROVERBS AND PROBLEMS ..................................... 13
***Veliyeva F.M.***
ABOUT THE INVESTIGATION OF THE FORM AND MEANING FEATURES OF AZERBAIJAN APHORISMS ........................................................................ 20

## *Social sciences*

***Aghayeva N.Ş.***
NAKHCHIVAN STATE UNIVERSITY IN 1995-2000 YEARS .................................. 26
***Talibov S.V.***
NATIONAL LEADERSHIP: POLITICAL UNDERSTANDING AND EXPERIENCE OF AZERBAIJAN.......................................................................................... 35
***Baghirova N.D.***
MATERIALS OF THE FIRST AZERBAIJANIAN DOCTOR PSYCHIATOR AND PUBLIC FIGURE IBRAGIM RAKHIMOV IN THE COLLECTION NATIONAL MUSEUM OF HISTORY OF AZERBAIJAN ……………………............................................ 49
***Gahramanova N.F.***
ABOUT THE SPECIFIC FUNCTIONS OF SOCIAL INFORMATION IN THE THEORY AND PRACTICE OF SOCIAL MANAGEMENT …………………... …… 57
***Mammadov N.R.***
HEYDAR ALIYEV AND HISTORY OF SHUSHA ..................................................... 66
***Musaeva S.Kh.***
CUSTOM OF CHOOSING A GIRL - "GIZBEYENME" OF THE TSAKHURS …….. 78

## *Pedagogical-psychological sciences*

***Aliyeva Sh.G.***
CREATING OPTIMAL CONDITIONS FOR TEACHING CHILDREN WITH GENERAL SPEECH DELAY TO LITERACY IN THE PROCESS OF DISCOVERING NATURE ............................................................................................ 85
***Ilyasov M.I.***
ON CONDITIONING THE LEVEL OF EDUCATION OF THE PERSONALITY BY NATURAL POSSIBILITIES ........................................................................ 93
***Mollayeva E.A.***
THE IMPAKT OF GENDER CONFLICTS ON THE EDUCATIONAL PROCESS IN THE AZERBAIJANI FAMILY ............................................................................ 106
***Musayeva S.H.***
THE ROLE OF AN INTEGRATIVE APPROACH IN THE PROFESSIONAL TRAININQ OF A MUSIC TEACHER ....................................................................... 115
***Rzayeva F.I.***
DEVELOPMENT OF PROFESSIONALLY IMPORTANT AND CREATIVE QUALITIES OF MUSIC TEACHER ............................................................................ 121

# Humanitar elmlər

*UOT 82.07*

***Ş.H.Cəbrayılov***
*ADPU-nun Cəlilabad filialı*
*jabrayilov62@mail.ru*

## MİRZƏ ƏLƏKBƏR SABİRİN SATİRALARININ ƏSAS TƏNQİD HƏDƏFLƏRİ

***Açar sözlər**: şair-vətəndaş, obraz, realizm, satira, satirik poeziya*

M.A.Sabir Azərbaycan ədəbiyyatına Seyid Əzimin tələbəsi, lirik şair kimi daxil olmuşdur; ənənəvi qəzəl və qəsidə, aşiq-məşuq münasibətinin şairin yaradıcılığında poetik əksi keçici deyil, davamlı və uzun bir proses kimi özünü göstərir. Lakin Sabir Azərbaycan ədəbiyyatı tarixində qüdrətli satirik kimi yüksəldi və şöhrət qazandı. Əsası Qasım bəy Zakir tərəfindən qoyulmuş Azərbaycan satirası M.Ə.Sabirin yaradıcılığında kamillik zirvəsinə çatmışdır.

Məqalədə M.Ə.Sabirin lirik və satirik şeirlərinin əsas pafosu araşdırılır, o, yenilikçi, şair-vətəndaş kimi qiymətləndirilir.

***Ш.Г.Джабраилов***

## ОБЪЕКТЫ КРИТИКИ В САТИРАХ МИРЗЫ АЛЕКБЕРА САБИРА

***Ключевые слова**: поэт-гражданин, образ, реализм, сатира, сатирическая поэзия*

М.А.Сабир вошел в Азербайджанскую литературу как ученик Сеида Азима, как лирический поэт; традиционные газель и касыда, поэтическое отражение отношений влюбленного и возлюбленной в творчестве поэта проявляются не мимолетно, а как продолжительный и длительный процесс. Однако Сабир возвысился и прославился в истории Азербайджанской литературы как могущественный сатирик. Азербайджанская сатира, начатая Касым беком Закиром, в творчестве М.А.Сабира достигла своего совершенства.

В статье исследуется основной пафос лирических и сатирических стихов М.А.Сабира, он оценивается как новатор, поэт-гражданин.

***Sh.H.Jabrailov***

## MAIN CRITICAL TARGETS OF MIRZA ALAKBAR SABIR'S SATIRES

***Keywords**: poet-citiezm, image, realism, satire, satirical poetry*

M.A.Sabir entered the Azerbaijan literature as a student of Seid Azim,a lyrical poet, traditional ghazal and qasida, a poetic reflection of the love relationship and lover

of the poet`s work are shown not fleeting, but as a long and protracted process. However, Sabir risen and glorified in the history of Azerbaijani literature as a powerful satirist. Azerbaijan satire, begun Kasim Beg Zakir, in the work M.A.Sabir reached its perfection.

In this paper the main lyrical pathos and satirical poems, M.A.Sabir, it is rated as a innovator, a poet and citizen.

XX əsrin böyük Azərbaycan şairi Mirzə Ələkbər Sabir nəinki öz dövründə, hətta bu gün də sevilə-sevilə oxunan, xatırlanan, araşdırılmasına ehtiyac duyulan və haqqında gözəl fikirlər söylənilən, milli və ümumbəşəri dəyərlər aşılayan qüdrətli sənətkardır. Onu oxuculara sevdirən başlıca cəhətlərdən biri də poeziyasında yüksək ümumbəşəri ideyalar təbliğ etməsi, satira yaradıcılığı, vətən və ümumxalq məhəbbəti qazanması ilə bağlıdır. Azərbaycan ədəbiyyatı tarixində özünəməxsus yer tutan, Azərbaycan mədəniyyəti və ədəbiyyatı, bədii və ictimai fikrinin fomalaşmasında müstəsna rolu olan böyük ədəbi simalardan biri də M.Ə.Sabirdir.

M.Ə.Sabir mollanəsrəddinçilər idealı və məfkurəsinə mənsub olan ən qabaqcıl satirik şairlərdən biri, bəlkə də birincisidir. Sabir öz dövrünün ən qabaqcıl fikirli satirik şairlərindən biri kimi, öz dövrünün haqsızlıqlarına dözməyən, zamanın eybəcərliklərini kəskin qələmə alan, xalqı mənəvi oyanışa səsləyən şair olub. Sabirin yaradıcılığı öz dövrünün yazarlarına çox böyük müsbət təsir göstərmiş və həmin dövrün yazarlarının "Molla Nəsrəddin" jurnalının ətrafina toplanmasına nəinki təkan vermiş, hətta onların bir şəxsiyyət, mollanəsrəddinçi şair kimi formalaşmasında, tanınmasında müstəsna rol oynamışdır.

Sabir sanki xalqın, kütlənin maarifləndirilməsini öz öhdəsinə götürmüşdü. Qaragüruhçu təbəqəni islah etmək, xalqın qarşısında çıxış etmək, onu maarifləndirmək, millətin gözünü açmaq elə də asan məsələ deyildi. Qorxmaz, mübariz şair hər şeyi gözünün qarşısına alaraq, hətta ölümün belə gözünə dik baxaraq dayanmadan satiralar yazır ki, heç olmasa yatmış xalqı oyatsın. Cəlil Məmmədquluzadə deyəndə ki, "qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir", Sabir də buna cavab olaraq yazırdı:

Kim ki insanı sevər, aşiqi -hürriyyət olur,
Bəli, hürriyyət olan yerdə də insanlıq olur (1, s.149).

M.Ə.Sabirin qələm silahdaşları, əməl dostları: Ə.Haqverdiyev, Ə.Qəmküsar, Ö.F.Nemanzadə, Ə.Nəzmi və başqaları da daim Sabir kimi ön cəbhədə olmuş, qələmiylə vuruşmuş və bütün qüvvəsini xalqın maariflənməsinə, oyanışına sərf etmişlər.

Sabir xalqın avamlığını, mədəni geriliyini görür, "Qorxuram" satirasinda fikirlərini belə ifadə edir:

Mənzil olur gah mənə viranələr,
Cin görürəm, can görürəm, qorxmuram.
Leyk, bu qorxmazlıq ilə, doğrusu,
Ay dadaş, vallahı, billahı, tallahı,
Harda müsəlman görürəm, qorxuram!..(1, s.125)

Dahi şair Sabir demək istəyir ki, avam, savadsız xalq dindarların əlində alətə çevrildiyi üçün cindən, şeytandan qorxmuram, müsəlmanların savadsızlığından, törədəcəyi bəlalardan ehtiyatlı olmağı və qorxduğunu avam insanların öz dili ilə deyir.

Bundan başqa Sabir "Səbir elə!" şeirində məcazi mənada xalqı səbirli olmağa, dözümlü olmağa, haqqını tələb etməməyə, zülmə, haqsızlığa dözməyə "səsləyir".

Etsə də aləm hamısı zəlzələ,
Aləmi gər tutsa da yüz vəlvələ ,
Get yuxuya, durma, a qardaş, hələ !
Qovzama başın, çocuqum, səbr elə ! (1, s.172)

Bu misralardan aydın olur ki, Sabir nə qədər xalqı cəhalətdən ayıltmağa çalışsa da, yatmış xalq oyanmır ki, oyanmır.

M.Ə.Sabirin böyük xalq şairi, inqilabçı satirik, mütəfəkkir kimi yetişməsində, onun mütərəqqi dünyagörüşü və poetik üslubunun formalaşmasında "Molla Nəsrəddin " jurnalının müstəsna rolu olmuşdur. Sabir də öz növbəsində özünəməxsus qüdrətli satirik poeziya məktəbi yaradaraq "Molla Nəsrəddin"in inkişaf etdirdiyi inqilabi-demokratik satiraya güclü təkan vermişdir.

"Molla Nəsrəddin" M.Ə.Sabir yaradıcılığına zəngin material vermişdir. Jurnalın aparıcı şəxsiyyətlərindən biri olmaq etibarilə, Sabir də "Molla Nəsrəddin" ideyalarının qüvvətlənməsində, milli məsələlərin qoyuluşu və həllində, mübariz mövqe tutmasında böyük qüvvə sərf etmişdir.

M.Ə.Sabiri həmfikirlərindən fərqləndirən cəhətlərindən biri də onun mövzu seçimində üstünlüyü idi. Sabir adətən oxucuya aşılamaq istədiyi ideyanı qabarıq şəkildə əks etdirən hadisələri satirasına mövzu seçir.

Professor Cəfər Xəndan M.Ə.Sabir haqqında yazırdı ki, "şairin nə qədər satirası varsa, bir o qədər də mövzusu var". Professor C.Xəndanın bu fikirlərində böyük həqiqət vardır.

Sabir mühüm hadisələrdən başlamış kiçik məişət hadisələrinə qədər hər şeydən yazıb. Onun toxunmadığı bir sahə, fikir bildirmədiyi bir obyekt qalmamışdır. Həm də Sabir öz fikirlərini bədii boyalarla, zəngin ifadələrlə, obrazın öz dili ilə, yüksək sənətkarlıqla ifadə edərək məqsədinə çatmaq üçün bütün bədii vasitələrə əl ataraq fikirlərini kəskin şəkildə ifadə etməyi bacarmışdır.

Şairəm, çünki vəzifəm budur əşar yazım,
Gördüyüm nikü bədi eyləyim izhar, yazım,
Günü parlaq, günüzü ağ, gecəni tar yazım,
Pisi pis, əyrini əyri, düzü həmvar yazım,
Niyə bəs böylə bərəldirsən, a qare, gözünü,
Yoxsa bu ayinədə əyri görürsən özünü?" ( 2, s.72)

M.Ə.Sabirin yaradıcılığı, xüsusən satiraları, insan həyatı üçün bir güzgüdür. Onun yaradıcılığına baş vuran hər kəs o güzgüdə özünü görməlidir. Yuxarıda nümunə gətirdiyimiz bir parça şeirdə də şair qeyd edir ki, mənim vəzifəm şeir yazmaqdır, gördüklərimi olduğu kimi, düzü düz, əyrini əyri, pisi pis, gecəni də olduğu kimi (qaranlıq) yazmaqdır, həyatda nə baş verirsə, həmin hadisələri satiralarımda olduğu kimi işıqlandırmaqdır. Şair oxucuya müraciət edərək bildirir ki, mənim yazım bir güzgüdür, oxucu bu güzgüyə baxsın və səhvlərini, çatışmazlıqlarını düzəltsin. Sabir oxucusuna xitabən deyir ki, mənim satiralarımı oxuyanda niyə əsəbiləşib güzgünü sındırırsan, sən öz eyiblərini düzəltməlisən, özünü islah etməlisən, güzgünü sındırmaqla hec nə düzələn və ya dəyişən deyil.

Sabir satiralarının əksəriyyətində tipləri danışdırmaq, onları öz sözü, öz dili ilə səciyyələndirmək yolu ilə gedir. Obrazların daxili aləmini şair sənət güzgüsündə əks etdirmək üçün dialoq və monoloqlardan məharətlə istifadə etmişdir. Ziyalı, tacir, fəhlə, ruhani, mülkədar və kapitalistin obrazını canlandırmaq və bu üsulla onların xarakterini açmaq Sabir yaradıcılığında ən çox səciyyələnmə üsullarından biridir. Bu səciyyəvi xüsusiyyətlər "Millət necə tarac olur olsun…" satirasında çox aydın şəkildə özünü göstərir.

Millət necə tarac olur olsun, nə işim var?!
Düşmənlərə möhtac olur olsun, nə işim var?

Qoy mən tox olum, özgələr ilə nədi karım,
Dünyavi cahan ac olur olsun, nə işim var?! (1, s.39)

Bu misralardan aydın görünür ki, xan, bəy, mülkədar və başqa istismarçı təbəqələr yalnız özlərini düşünür, həyatda özlərinin rahat yaşamaları üçün, sağlam olmaları üçün istənilən addımı atırlar və fəhlə sinfini əzir, fəhlələri insan yerinə qoymurlar. Xalqın yaşayışı bunlara maraqlı deyil.

"Bizə nə?!", "Əkinçi", "Ağlama", "Dilənçi", "Qəm yemə" kimi satiralarında şair fikirlərini çox rəngarəng boyalarla və aydın ifadə etmişdir. Bu satiraları oxuyan hər bir kəs ola bilməz ki, hər hansı bir müsbət nəticə əldə etməsin və qəflət yuxusundan oyanmasın. Əsl satira heç vaxt idealsız, nəticəsiz yaşaya bilməz. Satira o vaxt güclü olur ki, şərə qarşı hücum qalibiyyətlə nəticələnsin.

Sabirin inqilabi satirası yalnız köhnəni inkar etmir, həm də insanı işiqlı yola, mübarizəyə səsləyən bir sənət əsəridir. Sabirin fikrincə, ümidsizlik,

bədbinlik, insanın düşmənidir. İnsan öz hüququnu dərk etməli, şərəfini, ləyaqətini qorumalı və işiqlı gələcəyini düşünməlidir.

Sabirin poeziyasındakı obrazlı qəhrəmanlar inqilabi qəhrəmanlardır. Bu qəhrəmanlar özləri ilə bərabər ətrafındakıları da inqilaba səsləyirlər.

Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!
Üzün oldusa gər külfət yanında qarə, səbr eylə!... ( 1, s.276).

"Əzil, pamal ol, axtarma buna bir çarə, səbr eylə!" və ya "Çaliş ək, biç, aparsın bəy, evin qalsın dəyirman tək" kimi misralardakı hər kəlmənin, bizə adi gələn hər ifadənin dərin, ciddi məzmunu vardır. Burada dərin kinayə, öldürücü istehza, sərt qəzəb duyulur. Bunu oxuyan, eşidən hər kəs qəflətdən oyanmalıdır.

Sabirin yaradıcılığı mövzu cəhətdən çox zəngindir. Azərbaycan şeir tarixində yüksək, dolğun həyati məzmun uğrunda ilk ardıcıl, mübariz şair Sabir olmuşdur.

Sabir klassik Azərbaycan ədəbiyyatı tarixində yüksək dərəcədə demokratik mahiyyət daşıyan şeirlər yazan nadir sənətkarlardandır. İctimai həyatdakı mövqelərindən və hadisələrə münasibətindən asılı olaraq insanların mənəvi aləmi, arzuları, təsəvvürləri müxtəlifdir. Sabirin qəhrəmanları bütün zahiri görkəmləri və mənəvi xüsusiyyətləri ilə oxucunun gözləri qarşısında canlanır. Şair bu insanların hərəsini özünəməxsus bir dildə danışdırır. Odur ki, burada insan əhval-ruhiyyəsinin müxtəlif formaları təzahür edir. Məsələn, biri gülünc vəziyyətə düşür, biri hədələyir, biri şikayət edir və sair. Odur ki, bu minvalla hərə bir halda cəmiyyətdə öz yerini tutur.

Sabir zəhmətkeş insanları da çox sevir, onların zəhmətini yüksək qiymətləndirir. "Cütçü" şeirində zəhmətsevər insanlara münasibətini belə ifadə edir:

Cütçü batıb qan-tərə yer şumlayır,
Şumladığı tarlasını tumlayır.

Olsa da artıq nə qədər zəhməti
İşləməyə var o qədər qeyrəti;

Çünki bilir rahət əziyyətdədir,
Şad yaşamaq səydə, qeyrətdədir (2, s.115).

Sabir bu misralarla rahat, şad yaşamağın yolunu yalnız zəhmətdə, əziyyət çəkməkdə, heç kimə boyun əyməməkdə görür və bununla da insanlara zəhmətsevər olmağı, halal zəhmətlə yaşayaraq ömür sürməyi tövsiyə edir.

M.Ə.Sabirə qədər də tənqidi mövzuda əsərlər, satiralar yazılmışdır. Məlumdur ki, Sabir özünü S.Ə.Şirvaninin şagirdi hesab edir.

Zakirin və Şirvaninin satiralarından bəhrələnərək ilhamlanan Sabirin yaradıcılığında, satirik şair kimi yetişməsində bu iki böyük satirik şəxsiyyətin əvəzsiz rolu olmuşdur.

Sabirin bütün yaradıcılığında bu iki şəxsiyyətin əsərlərindən bəhrələnməsi onun yeni bir ideya, amal uğrunda vuruşaraq konkret hədəfləri tənqid atəşinə tutması ilə sonuclanmışdır.

Əlbəttə ki, Sabirə qədər yazılan satiralarda da bəy, xan, mülkədar və sair zümrələr kəskin tənqid atəşinə tutulmuşdur. Lakin həmin satiralarda tək-tək fərdlər ifşa olunsa da, Sabir satiralarında fərdlər yox, ictimai təbəqələr ümumilikdə, yetkin bir formada, ictimai şəkildə tənqid atəşinə tutulmuşdur. Bununla da Sabir özünəməxsus yeni bir ictimai tənqidi dövrə qədəm qoymuşdur.

Sabirin yaradıcılığında bütövlükdə bəylər, ağalar, rüşvətxorlar, ruhanilər, sultanlar və sair təbəqələr aşkar şəkildə tənqid atəşinə tutulur, şair onları yaramaz əməllərdən əl çəkməyə çağırır, xalqı nikbinliyə, milli oyanışa səsləyir.

Sabirin satiralarındakı milli ruhlu qəhrəmanlar artıq oyanmış obrazlardır, bunu görən bəy, xan, mülkədarlar isə qorxuya düşən, həyəcan, iztirab içində yaşayan tiplərdir.

"Baki fəhlələrinə" şeirində şair fəhlələrin hüququnun müdafiəçisi, onların qayğıkeşi kimi diqqəti çəkir:

Dövlətli, amandır, özünü salma bəlayə,
Fəhlə sözü həqq olsa da, baxma o sədayə,
Yol vermə nəfəs çəkməyə hərgiz füqərayə,
Öz şənini puç eyləmə hər bisərü payə!..
Bu çərxi-fələk tərsinə dövran edir imdi,
Fəhlə də özün daxili-insan edir imdi (1, s.48).

Bu misralardan görünür ki, artıq dövran tərsinə fırlanır, indi fəhlə də insandır, o da hüquqlarını başa düşür, buna görə şair məcazi mənada deyir ki, dövlətli, özünü amandır, bəlayə salma, ehtiyatlı ol.

Satirik ifşa üsulu Azərbaycanda Zakirin yaradıcılığı ilə başlasa da, sonralar Şirvani, Sabir, Mirzə Cəlil və digər görkəmli şəxsiyyətlərin, mütəfəkkirlərin yaradıcılığında geniş vüsət alır. Sabirin qaldırdığı sosial problemlər bu gün də Yaxın Şərq və digər ölkələrdə qalmaqdadır.

Görkəmli alim, tənqidçi Yaşar Qarayev Sabirin satirik poeziyasını yüksək dəyərləndirərək yazır:

"Şərqdə milli-inqilabi azadlıq hərəkatı yüksəldikcə Sabir sanki yenidən doğulur və müasirləşir, "Hophopnamə" xalqların milli və siyasi özünüdərk kitabına, ictimai mübarizə əlifbasına yenidən çevrilir. Sabiri milli bədii yaddaş kimi, tarix və keçmiş kimi yox, məhz fəal və canlı bir müasirlik kimi sevməyə, öyrənməyə, Sabirlə nəfəs almağa ilham verir"… (3, s.214).

Ədəbi-bədii fikir tariximizin bütün mərhələlərində tənqid və tənqidi fikir söyləmək nə qədər çətin olsa da, XX əsrdə yaşamış mütəfəkkirlərimiz bu sahədə öz fikirlərini cəsarətlə söyləmiş, xalqın oyanışı üçün var qüvvələri ilə çalışmışlar. M.Ə.Sabiri Sabir kimi formalaşdıran, onu uzaqgörən və düşündürən

satirik şair edən Sabirdən əvvəl yazarların bədii əsərləri, poeziya nümunələridir.

M.Ə.Sabirin yaradıcılığı haqqında fikir söyləyənlərdən biri də XX əsrin görkəmli alimi F.Köçərli olmuşdur. F.Köçərlinin ədəbi irsini araşdıran tənqidçilərdən biri olan K.Talıbzadə "Sənətkarın şəxsiyyəti" kitabındakı "Firudin bəy Köçərlinin ədəbi-tənqidi görüşləri" məqaləsində Axundov tənqidi ilə müqayisədə Köçərli tənqidinin elmi-nəzəri baxımdan xeyli inkişaf etməsi, xüsusən Sabir və C.Məmmədquluzadə yaradıcılığına münasibətdə onun ədəbi-tənqidi fikrimizi xeyli irəli aparması ilə bağlı dəyərli və obyektiv mülahizələr söyləmişdir" (6, s.124).

Sabirin "Səbr elə" şeirinə bir daha müraciət edək:

Qoyma, balam, oğlunu sən uşqola ,
Qorxusu var, axırı kafir ola,
Məşqini ver oğurluğa, sal yola,
Axırı gəl bağlasalar qol-qola.
Ya vel olub düşsə də əldən-ələ,
Qovzama başın, çocuğum, səbr elə!" (1, s.172)

Şair deyir ki, oğlunu məktəbə qoyma getsin oxumağa, onun oxumağının qorxusu var, kafir olacaq, onu oğurluğa öyrət, məşq eyləsin ki, oğurluqla pul qazansın, avara, sərgərdan olub çöllərə düşsə də, narahat olma, səbr elə. Bu misralarda hədəf birbaşa bəylər, xanlar, ruhanilər, mülkədarlar, varlılar, bir sözlə, xalqı insan yerinə qoymayan təbəqədir.

M.Ə.Sabir vətənimizin azadlığı, xalqımızın mili oyanışı uğrunda qələmi ilə mübarizə aparan qüdrətli söz sənətkarıdır. Onun satirik poeziyası əbədiyaşar poeziyadır. Odur ki, hər zaman sevilə-sevilə oxunacaq və oxunduqca cəmiyyətə görünməyən tərəfləri aşkar olacaqdır.

M.Ə.Sabir əbədiyaşar şairdir, onun irsi bu gün də öyrənilir, illər keçsə də, onun satiraları, ümumiyyətlə yaradıcılığı həmişə öz aktuallığını qoruyub saxlayacaqdır.

## ƏDƏBİYYAT


1. *Cavadov T.S.* M.Ə.Sabirin milli intibah idealı. Bakı, 2015,140 s.
2. *Əsgərli Z.Ş.* Dahi şair-vətəndaş. Sabir – 150 / Respublika elmi-praktik konfransın materialları. AMİ-nin Xəbərləri"nin xüsusi buraxılışı. Bakı, 2011, s.5-8
3. *Qarayev Y.V.* Realizm: sənət və həqiqət. Bakı, 1980, 325 s.
4. *Sabir M.Ə.* Hophopnamə: 2 cilddə, I c., Bakı, 2004, 478 s.
5. *Sabir M.Ə.* Hophopnamə: 2 cilddə, II c., Bakı, 2004, 383 s.
6. *Talıbzadə K.Ş.* Sənətkarın şəxsiyyəti. Bakı,1978, 523 s.
7. *Zamanov A.F.* Sabir və müasirləri. Bakı, 1973, 234 s.


Redaksiyaya daxil olub 07.02.2022

***UOT 81***

***Х.В.Мамедов, Х.Т.Челябиева***
*Азербайджанский государственный педагогический университет*
*kankishimamedov_53@mail.ru, xedicechelebi1970@gmail.com*

# ФОРМУЛЫ АЗЕРБАЙДЖАНСКИХ, ТУРЕЦКИХ И РУССКИХ ПОСЛОВИЦ И ПРИТЧ В ФОРМЕ «ПЕРЕКРЁСТНОЙ РИФМЫ» ИЛИ «ГОШАЯРПАГ»/«ЧАРПАЗ ГАФИЕ»

***Ключевые слова:*** *фольклор, азербайджанские пословицы и поговорки, турецкие пословицы и поговорки, русские пословицы и поговорки, Ашуг Алескер, “гошаярпаг”.*

В работе впервые рассматриваются художественные качества поэтической структуры «гошаярпаг» азербайджанских, турецких и русских пословиц, не встречающихся прежде ни в одном источнике. Следует отметить, что термин **«пословицы гошаярпаг**» употребляется впервые Х.Б.Мамедовым. Исследования показывают, что в азербайджанских, турецких и русских пословицах, а также в других образцах фольклора формы «гошаярпаг» предостаточно. Безусловно, это говорит нам о богатстве поэтического мышления наших древних предков, красоте их духовных, художественных вкусов, глубине национального общественного сознания и психологии. Поэтому очень важно изучить их смысловую природу. На наш взгляд, все это интересно не только с точки зрения нашего глубокого уважения и почитания народной памяти, прошлого и истории, но и с точки зрения системного изучения этнокультурного мышления всех трех языков.

***X.B.Məmmədov, X.T.Çələbiyeva***

# AZƏRBAYCAN, TÜRK VƏ RUS ATALAR SÖZLƏRİ VƏ MƏSƏLLƏRİNİN "QOŞAYARPAQ” VƏ YA"ÇARPAZ QAFİYƏ" FORMULLARI

***Açar sözlər:*** *folklor, Azərbaycan atalar sözləri və məsəlləri, türk atalar sözləri və məsəlləri, rus atalar sözləri və məsəlləri, Aşıq Ələsgər, “qoşayarpaq”*

Bu işdə ilk dəfə olaraq heç bir mənbədə rast gəlinməyən Azərbaycan, türk və rus "qoşayarpaq atalar sözləri”nin poetik strukturunun bədii keyfiyyətlərindən bəhs edilir. Qeyd edilir ki, "qoşayarpaq atalar sözləri" termini ilk dəfə X.B.Məmmədov tərəfindən işlədilir. Tədqiqatlar göstərir ki, Azərbaycan, türk və rus folklorunun bir çox janrlarında kifayət qədər "qoşayarpaq”lar vardır. Sözsüz ki, bu da ulularımızın təfəkkür oblastının zənginliyindən, onların zəngin ruhundan, bədii zövqündən, gözəlliyindən, millətimizin poetik düşüncəsindən və psixologiyasından xəbər verir. Bu səbəbdən onların məna təbiətini öyrənmək çox əhəmiyyətlidir. Fikrimizcə, bütün bunlar xalqın ruh yaddaşına, keçmişinə, tarixinə olan dərin hörmət və ehtiramımızı bildirməklə

bərabər, həm də hər üç dilin etnokulturoloji düşüncəsinin sistemli şəkildə öyrənilməsi baxımından maraqlıdır.

***Kh.B.Mammadov, Kh.T.Chalabiyeva***

## "KOŞAYARPAQ" OR "ÇARPAZ KAFIYE" FORMULAS OF AZERBAIJANI, TURKISH AND RUSSIAN PROVERBS AND PROBLEMS

***Keywords:*** *folklore, Azerbaijani proverbs and sayings, Turkish proverbs and sayings, Russian proverbs and sayings, Ashug Alesker, "goshayarpag".*

This paper for the first time examines the artistic qualities of the poetic structure of "koshayarpag" of Azerbaijani, Turkish and Russian proverbs, which have not been found in any source before. It should be noted that the term "koshayarpag proverbs" is used for the first time by H.B.Mammadov. Research shows that the form "koshayarpag" is sufficient in Azerbaijani, Turkish and Russian proverbs, as well as in other samples of folklore. Undoubtedly, this shows us the richness of poetic thinking of our ancient ancestors, the beauty of their spiritual and artistic tastes, the depth of national social consciousness and psychology. Therefore, it is very important to study their semantic nature. In our opinion, all this is interesting not only in terms of our deep respect and esteem for the people's memory, past and history, but also in terms of a systematic study of the ethno-cultural thinking of all three languages.

Одним из самых распространенных видов азербайджанской литературы является поэтический жанр «гошма». «Гошма» – это древняя форма стихосложения с парными рифмами. Одним из самых сложных образцов двустишия является стихотворная форма «гошаярпаг» (буквально «парные листки»). Такие стихи строятся от начала до конца на параллельных парных рифмах, отличаются плавностью и особой музыкальностью (4, s.32). Во-первых, написать подобные стихи невозможно без знания тонкостей языка и богатства его лексики. Иногда вместо «гошаярпаг» используются термины «внутренний стих» и «перекрёстная рифма» (7, s.143). По этой причине стихи в форме «гошаярпаг» встречаются только в произведениях мастеров художественного слова. В парных стихотворениях стихи, строки, бейты (двустишие), стопы рифмуются друг с другом по диагонали, и такое состояние рифмовки условно соблюдается во всех стихах. Такую поэтическую форму можно найти в творчестве Ашуга Раджаба, который жил в XIX веке и был известен в окрестностях Дербента как Кёр ашуг, Ашуга Алескера, Моллы Джумы, Шамиля Далидага и многих других мастеров слова.

Давайте рассмотрим пример:

Sevdiciyim, **hanı** gözəllər **xanı**?
Güzarımız sizin **otağa** düşdü.

Buyursan **fərmanı,** alarlar **canı,**
Püşk atdıq, can sana **sadağa** düşdü.

Sallan qələm **qaşdı,** yanı **yoldaşdı,**
Qalmışam **ataşdı** mən başı **daşdı.**
Huş başımdan **çaşdı**, dilim **dolaşdı,**
Gözlərim sataşdı, **buxağa** düşdü

Çox çəkmişəm **cəfa,** gəl bir **insafa,**
And olsun **müshafa,** olmam **bivəfa.**
Gəlmişəm **təvafa**, verəsən **şəfa,**
Ələsgər xəstədi, **ocağa** düşdü (2, s.86).

Как видно, в стихотворении строки, бейты и строфы перекрестно рифмуются друг с другом. Точнее слова первой строфы первой строки «hanı» и «xanı» перекрестно рифмуются со словами третьей строки "fərmanı" и "canı". Слово "otağa" первой строфы второй строки рифмуется со словом «садака» четвертой строки, и эти рифмы сохраняются в следующей строфе, рифмуясь со словами последней строки "buxağa" и "ocağa". Также слово **"qaşdı"** рифмуется со словом "yoldaşdı" второй строфы первой строки, во второй строке слово "ataşdı" со словом "daşdı", в третьей строке слово "çaşdı" со словом "dolaşdı".

Нетрудно заметить, что эти условия соблюдаются во всех строфах. Главной особенностью стихотворений «гошаярпаг» является то, что мы уже отметили.

Но относится ли «гошаярпаг» к другим образцам фольклора? Например, пословицам и т. п. Ведь большинство пословиц являются образцами коротких стихов. Покойный фольклорист Паша Эфендиев об этом писал: «Большинство пословиц и притч в форме стихов. Это отрывки с различными стопами, с художественной точки зрения красивы, выразительны и совершенны. Иными словами, это образцы поэзии (5, s.142). Наши исследования показывают, что в азербайджанских, турецких и русских пословицах, а также в других образцах фольклора формы «гошаярпаг» предостаточно. Безусловно, это говорит нам о богатстве мышления наших древних предков, красоте их духовных, художественных вкусов, глубине национального общественного сознания и психологии. Очень важно изучить их смысловую природу. На наш взгляд, это не только знак глубокого уважения и почитания духа наших предков, но и с точки зрения изучения истории фольклора, и интересно, и важно для сохранения красоты всех четырех языков и духовных сокровищ, созданных на этих языках. В связи с этим не считаем

необходимым доказывать актуальность проблемы. В работе впервые рассматриваются художественные качества поэтической структуры «гошаярпаг» азербайджанских турецких и русских пословиц, не встречающихся прежде ни в одном источнике. Следует отметить, что термин «пословицы гошаярпаг» употребляется впервые Х.Б.Мамедовым.

Как мы уже отмечали, в азербайджанском, турецком и русском фольклоре много «пословиц-гошаярпаг». Например, в Азербайджанской пословице «Баба, баба дедилер, вар-йокуну йедилер», слово «дедилер» рифмуется со словом «йедилер», в русской – «Бог даст, и в окно подаст», слово «даст» рифмуется со словом «подаст», в турецкой – «Analı kuzu, kınalı kuzu», слово «аналы» рифмуется со словом «кыналы».

В исследовании было рассмотрено около пятисот пословиц. В качестве источника использованы (1), (3), (6), (9) и (10). Ниже приведены около двадцати примеров пословиц «гошаярпаг» относительно каждого языка. Параллельные парные рифмы выделены в тексте черным шрифтом.

Примеры пословиц «гошаярпаг» на азербайджанском языке:

Ac əlinə düşəni **yeyər,** tox ağzına gələni **deyər;**
Adam var ki, **rəhmət aparar,** adam var ki, **lənət aparar;**
Ağırlıq qızıl **qala,** yüngüllük başa **bəla;**
Ağrılarda **göz ağrısı,** hər kişinin **öz ağrısı;**
Allahdan **buyruq,** ağzıma **quyruq.**
Arvadın biri – **əla,** ikisi – **bəla;**
At **işlər**, eşşək **dişlər;**
Azançı çəkər **soyuğu**, molla yeyər **toyuğu.**
Bağa baxarsan **bağ olar,** baxmazsan **dağ olar;**
Bağda ərik **badam oldu**, gədalar **adam oldu;**
Balalı ev **bazardı,** balasız ev **məzardı**;
Daz daznan **yatdı,** daz da naz **atdı;**
**Dil** yarası, **il** yarası;
**El** ağzı, **yel** ağzı;
Elə danış **yalanı,** dingildəsin **qalanı;**
Eşik **qar,** içəri **dar;**
**Əli gətirər, dili itirər;**
Get **naxıra,** gəl **axıra;**
Hənək, **hənək** – axırı **dəyənək;**
Yaz **əkinçi,** qış **dilənçi.**

Примеры пословиц «гошаярпаг», встречающихся в русском фольклоре:

Она бает, **рассыпает,** что погодой **посыпает;**
Без **обеда** не красна **беседа;**

Без спора **споро,** да не **скоро;**
Белый свет не **околица,** а пустая речь не **пословица;**
Говори про **чужих,** услышишь и про **своих;**
Говори **складно,** коль язык подвешен **ладно;**
Говорит **красиво,** да слушать **тоскливо;**
Говорит про **тебя,** забыв **себя;**
Денег ни **гроша,** да речь **хороша;**
Держи кулак в **кармане,** а язык – на **аркане;**
До россказней **охотник** – плохой **работник;**
Дорог в поле **пахарь,** а в беседе – **бахарь;**
Если сидишь на **печи,** так побольше **молчи**
Есть **словко** – как мед **сладко;** есть **словко** – как полынь **горько;**
Живем не **пышно,** а далеко **слышно;**
Жизнь **отдавай,** а тайны не **выдавай;**
Жить в **соседях** – быть в **беседах;**
И прав мышонок перед **волком,** да не скажет дело **толком;**
**К**аков **привет,** таков и **ответ;**
**К**ому до **чего,** а куме до **всего.**

Примеры пословиц «гошаярпаг», встречающихся в турецком фольклоре:

Allah **bana,** ben de **sana;**
**Analı** kuzu, **kınalı** kuzu;
Anasına bak **kızını al,** kenarına bak **bezini al;**
Anlayana sivri sinek **sazdır,** anlamayana davul zurna **azdır;**
**Arifin elinde, zarifin dilinde;**
Arslan **postunda,** gönül **dostunda**;
At ölür **meydan kalır,** yiğit ölür **şan kalır;**
Attan **indi,** eşeğe **bindi;**
Ayağını sıcak, başını **serin,** az ye, düşünme **derin;**
Balık **tavada,** tavşan **ovada;**
Baskısız tahtayı **yel alır,** yel almazsa **sel alır;**
Bekar **gözü,** kör **közü;**
Ben çekeyim **cefayı,** eller sürsün **sefayı;**
Ben ölürsem **büyük kıyamet**, karı ölürse **küçük kıyamet**;
Ben ölürsem **yare ne,** yar ölürse **çare ne?**
Çeneye **kuvvet,** keseye **bereket;**
Çok **hareket** – çok **bereket.**
Darısı **başına,** fenası **yaşına;**
Deli neyler **halı,** akıllı neyler **malı;**
Derdin yoksa **söylen,** borcun yoksa **evlen**.

Нетрудно заметить, что большинство пословиц «гошаярпаг» в азербайджанском, турецком и русском языках практически идентичны и в азербайджано-русском и турецко-русском языках есть пословицы с одинаковой структурой. Например, обратимся к азербайджано-русским пословицам: Ac qulağım, dinc qulağım – *Не о чем тужить, как нечего прожить;* Adamı adam eləyən paradır, parasız adamın üzü qaradır – *Без гроша – слава нехороша;* Ağa gətirər **navala,** xanım tərər **çuvala** – *Муж носит в дом* ***мешком,*** *а жена выносит* ***горшком****//Муж возом* ***навозит,*** *а жена рукавом* ***выносит***.

Таким образом, с точки зрения принципов поэтики фольклора историческая картина Азербайджанских, турецких и русских пословиц, их жанровая характеристика, художественно-эстетическая функция и, как следствие, национально-духовное, художественное мышление и историко-культурное наследие всех трех народов свидетельствуют о его глубоком величии. Следует отметить, что такие поэтические слепки, формы, разновидности, такая любовь к языку, которая является важнейшим кодом нашей национально-энергетической системы мышления и кодом этнокосмического поведения, связывающих нашу этнокультурную память со своими корнями и историческими источниками, встречаются очень редко (10). Конечно, как было отмечено выше, это говорит нам о богатстве мыслительной сферы наших предков, их богатом духе, художественном вкусе, поэтическом мышлении и красоте. Очень важно изучить их смысловую природу. Потому что эти примеры важны для повышения творческой активности людей, обогащения их духовности и художественного мышления. Это можно рассматривать как одно из важнейших средств обеспечения красоты языка, а также наиболее эффективное дидактическое средство. Следует отметить, что формулы «пословиц гошаярпаг» при подходе с точки зрения современной системы мышления представляют собой новую модель подхода в литературе. В отличие от своих предшественников, эта модель представляет собой совершенно новый и иной мир идентичности, философию этнической мудрости, которую мы храним в глубинах своей памяти и мысли, природный и культурный потенциал нашего национального интеллектуального и этнопсихологического бытия. Конечно, все это, выражая наше глубокое уважение и почтение к народной памяти, прошлому и истории, требует систематического изучения нашего этнокультурного мышления, а также привития его подрастающему поколению. Потому что провести новые исследования на имеющейся базе, представить их как единое целое – требование времени.

## ЛИТЕРАТУРА


1. *Abbasov A.Q., Məmmədov X.B.* Azərbaycanca-ingiliscə-rusca paremioloji vahidlər. Bakı: Elm və təhsil, 2019, 524 s.
2. *Aşıq Ələsgər.* Əsərləri. Bakı: Şərq-Qərb, 2004, 400 s.
3. Atalar sözləri. Tərtin edəni M.Yaqubqızı. Bakı: Nurlan, 2013, 476 s.
4. *Elçin, Vilayət Quliyev*. Özümüz və sözümüz. Bakı: Azərnəşr, 1993, 115 s.
5. *Əfəndiyev P.* Azərbaycan şifahi xalq ədəbiyyatı. Bakı: Elm və təhsil, 2013, 600 s.
6. *Həmidov İ., Axundov B., L.Həmidova.* Azərbaycanca-rusca, rusca-azərbaycanca atalar sözləri və zərbi məsəllər lüğəti. Bakı: Təhsil, 2009, 560 s.
7. *Qasımlı M., Allahmanlı M.* Aşıq şeirinin poetik biçimləri və çeşidləri. Bakı: Elm və təhsil, 2018, 220 c.
8. *Memmedov X.* Azerbaycan ve türkce dudak degmez atasözlerinin işlevsel-anlamsal yapısı // BENGİ Dünya Yörük-Türkmen Araştırmaları Dergisi, Yıl: 5 (2022), Sayı: 1, s.145-162
9. *Nurüttin Albayrak.* Türkiye türkcesinde atasözleri. İstanbul, 2009, 1140 s. / Kİtapyurdu.com
10. *Даль В.И.* Пословицы русского народа. Москва: Гос. Изд-во художественной литературы, 1957, 991 с.


Redaksiyaya daxil olub 19.01.2022

***UOT 811.512.162***

***F.M.Vəliyeva***
*Bakı Slavyan Universiteti*
*sali13@list.ru*

# AZƏRBAYCAN AFORİZMLƏRİNİN FORMA VƏ MƏZMUN XÜSUSİYYƏTLƏRİNİN TƏDQİQİNƏ DAİR

***Açar sözlər:*** *Azərbaycan aforizmləri, forma, məzmun, vətənpərvərlik, nəzm, nəsr*

Məqalə Azərbaycan aforizmlərinin forma və məzmun xüsusiyyətlərinin tədqiqinə həsr olunub. O, öz aktuallığı ilə seçilir, çünki bu növ tədqiqatlar milli-mənəvi dəyərlərimizin, milli təfəkkürümüzün, ulu keçmişimizin bir sıra sehrli səhifələrinin açılması və öyrənilməsi baxımından olduqca mühüm mənbə təşkil edir. Aparılan araşdırmalar sübut edir ki, aforizmlər forma və məzmun göstəricilərinə görə zəngin və maraqlıdır. Aforizmlər məzmununa görə müxtəlif mövzuları əhatə edir. Məqalədə Azərbaycan aforizmləri içərisində vətənpərvərlik, elm, dostluq məzmunlu aforizmlər tədqiqat obyektinə çevrilib. Bu aforizmlər tanınmış mütəfəkkirlərin, elm xadimlərinin yaradıcılığında tədqiq edilir. Formasına görə aforizmlər nəzm və nəsr şəklindədirlər. Aforizmlərin forma və məzmun xüsusiyyətlərinin araşdırılması zamanı müəllif bir sıra yeni maraqlı elmi faktlar əldə etmişdir.

***Ф.М.Велиева***

# ОБ ИССЛЕДОВАНИИ ОСОБЕННОСТЕЙ ФОРМЫ И СОДЕРЖАНИЯ АЗЕРБАЙДЖАНСКИХ АФОРИЗМОВ

***Ключевые слова:*** *Азербайджанские афоризмы, форма, содержание, патриотизм, поэзия, проза*

Статья посвящена исследованию особенностей формы и содержания Азербайджанских афоризмов. Она выделяется своей актуальностью, так как такой вид исследований является очень важным источником для раскрытия и изучения ряда волшебных страниц наших национально-духовных ценностей, национального мышления, нашего великого прошлого. Проведённые исследования доказывают, что афоризмы по форме и содержанию обладают интересными и богатыми особенностями. По содержанию афоризмы охватывают разные темы. Объектом исследования в статье становятся азербайджанские афоризмы, посвященные патриотизму, знанию, дружбе. По форме афоризмы бывают поэтическими и прозаическими. При исследовании особенностей формы и содержания афоризмов автором были добыты интересные научные факты.

**F.M.Veliyeva**

## ABOUT THE INVESTIGATION OF THE FORM AND MEANING FEATURES OF AZERBAIJAN APHORISMS

***Keywords:*** *Azerbaijan aphorisms, form, meaning, patriotism, verse, prose*

The article has been devoted to the form and meaning features of Azerbaijan aphorisms. It stands out for its relevance, as this type of research is a very important source for the disclosure and study of a number of magical pages of our national and spiritual values, national thinking, our great past. The investigations prove that the aphorisms are rich and interesting according to their form and meaning. According to their meaning the aphorisms reflects various topics. The object of research in the article is Azerbaijani aphorisms dedicated to patriotism, knowledge, friendship. According to their structure the aphorisms are in verse and prose form. During the investigation of form and meaning features of aphorisms the author has got some new scientific facts.

Öz zənginliyi ilə diqqəti cəlb edən Azərbaycan aforizmləri forma və məzmun xüsusiyyətlərinə görə bir sıra mühüm keyfiyyətlərin daşıyıcısıdır. Dilimizdə mövcud olan aforizmlərin linqvistik təhlilini apararkən onların mövzu dairəsinin çoxşaxəli, əhatəli və olduqca maraqlı olduğunu müşahidə edirik. Aforizmlərin məzmun xüsusiyyətlərinin təhlili göstərir ki, onlar vətənpərvərlik, dil, iman, elm, təhsil, əxlaq, doğruluq, qonaqpərvərlik və s. kimi mövzuları əhatə edir. Forma xüsusiyyətlərinə gəlincə, deyə bilərik ki, belə aforizmlər əsasən nəzm və nəsr şəklində formalaşmaqdadır. Mövzu zənginliyi aforizmlərin məzmununa görə qruplaşdırılmasına da imkan verir. Buna dayanaraq Azərbaycan aforizmlərini məzmun və forma xüsusiyyətlərinə görə aşağıdakı kimi sistemləşdirib təhlilə cəlb etmək olar:

1. Vətən və vətənpərvərlik haqqında;
2. Elm haqqında;
3. Təhsil haqqında;
4. Kitab haqqında;
5. Əxlaq haqqında;
6. Dürüstlük, doğruluq haqqında;
7. Qonaqpərvərlik haqqında aforizmlər və s.

Məqalədə yuxarıda qeyd etdiyimiz bəndlərin bir hissəsindən söhbət açacağıq. Vətən, vətənpərvərlik və vətəndaş haqqında aforizmlərdən bəhs edərkən söz yox ki, ilk ağlımıza gələn xalqımızın böyük oğlu, ümummilli lider Heydər Əliyev yada düşür. Onun çıxışlarının mütləq əksəriyyətində biz qeyd etdiyimiz mövzulara dair müdrik kəlamlarla qarşılaşmış oluruq. Ulu Öndər deyirdi: *"Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!"*. Sadə cümlə şəklində formalaşan aforizm dərin məzmuna

malikdir. Cümlənin mübtəda və xəbəri quruluşca mürəkkəb olub, üçüncü növ ismi birləşmələrdən təşkil olunmuşdur. Söz birləşmələrinə dair aparılan tədqiqatlarda qeyd edilir: "...Mürəkkəb mübtədalar sintaktik vahidlərlə, daha doğrusu, təyini söz birləşmələri, məsdər və feili sifət və s. tərkiblərlə ifadə olunan mübtədalardan ibarətdir" [3, s.114]. Və yaxud ümummilli lider *"...Vətənpərvərlik insanın daxilindəki duyğulardır. Əgər bunlar yoxdursa, o insan mənəviyyatsızdır",* - deyirdi. İki müxtəlif quruluşlu cümlələrdən yaranan bu aforizmin birinci tərəfi sadə geniş cümlə, ikinci tərəfi isə şərt budaq cümləli tabeli mürəkkəb cümlələrdən təşkil olunmuşdur. Aparılan tədqiqatlarda müxtəsər cümlələr yalnız baş üzvlərdən əmələ gələn cümlələrə deyilir. Tabeli mürəkkəb cümlənin komponentlərinə gəlincə tədqiqatçıların mütləq fikri bundan ibarətdir ki, belə cümlələr tabelilik prinsipi ilə biri digərindən asılı olur. Konkret olaraq şərt budaq cümlələri ilə bağlı professor Q.Kazımov yazır: "...Şərt budaq cümləsi baş cümlədə ifadə olunan hərəkət və ya əlamətin şərtini bildirir" [6, s.389]. Aparılan tədqiqatlara baxdığımız zaman görürük ki, şərt budaq cümləələri onları bağlayan vasitələrin xüsusiyyətindən asılı olaraq asintetik, sintetik, analitik olmaqla təsnif edilir. Sintetik şərt budaq cümləələri – *sa*$^2$ şəkilçisi, – *isə* köməkçi sözü və ya onun ixtisarı olan – *sa, sə* ilə bağlanır. Bu faktlara əsaslanaraq deyə bilərik ki, yuxarıdakı aforizm sintetik şərt budaq cümləsi şəklində formalaşmışdır.

Böyük sərkərdə, Azərbaycan Səfəvilər dövlətinin banisi, şair Şah İsmayıl Xətainin də vətən haqqındakı fikirləri olduqca maraqlıdır. *"Müdrik əcdadımızdan miras qalmış üç şeyi sizə vəsiyyət edirəm: ana dilimizi, vicdanımızı, Vətənimizi".* Sadə cümlə şəklində nəsr formasında yaranan aforizm bu gün də öz aktuallığını itirməmişdir. Və yaxud Məmməd Araz poeziyasında əksini tapan və hazırda geniş istifadə edilən aşağıdakı beyt də vətən haqqında deyilən mükəmməl aforizmlərdən hesab olunur.

Vətən mənə oğul desə, nə dərdim,
Mamır olub qayasında bitərdim [7].

Şərt budaq cümləsi şəklində formalaşan aforizm obrazlılığı və emosionallığına görə olduqca maraqlıdır.

Azərbaycan ədəbiyyatının bir digər görkəmli siması Abbas Səhhətin aşağıdakı beyti də vətən haqqında deyilən digər maraqlı bir aforizm kimi diqqəti cəlb etməyə bilməz.

Vətənim verdi mənə nanü-nəmək,
Vətəni məncə unutmaq nə deмək?!

Və yaxud:

Vətəni sevməyən insan olmaz,
Olsa, o şəxsdə vicdan olmaz [1, s.377].

Göründüyü kimi, yuxarıdakı nümunələr nəzm şəklində formalaşmışdır. Fikrimizcə, bu qəbildən olan nümunələrin sayını artırmaq da

olar. Lakin aforizmlərimizin məzmun və mövzu zənginliyini nəzərə alaraq bununla kifayətlənirik.

Elm haqqında deyilmiş hikmətli sözlər Azərbaycan aforizmlərinin ən mühüm və zəngin qatlarından birini təşkil etməkdədir. Filosof şairimiz Nizami Gəncəvi elm və alim haqqında bir sıra maraqlı aforizmləri ilə yadda qalır ki, onlardan biri aşağıdakı beytdən ibarətdir.

Hər uca rütbədən biliniz, fəqət,
Alimin rütbəsi ucadır, əlbət [9].

Nümunənin nəzmlə və tamamlıq budaq cümləsi şəklində formalaşdığını görə bilirik.

Ədəbiyyatımız ensiklopedik simalardan olan Abbasqulu ağa Bakıxanov isə *"Elmin təhsilini hamı şeylərdən vacib bil"* [4], - deyə gənc nəslə müraciət edirdi. Nəsr formasında əmr cümləsi şəklində formalaşmış aforizm məzmunu və ifadə üslubuna görə diqqəti cəlb edir. Tədqiqatlar sübut edir ki, əmr cümlələri əmr, xahiş, arzu, məsləhət, nəsihət məzmunlu olurlar. Buludxan Xəlilovun araşdırmalarında oxuyuruq: "Əmr, xahiş, nəsihət, məsləhət, rica və s. bildirən cümlələrə əmr cümləsi deyilir. Əmr cümlələrinin ifadə etdiyi mənalar içərisində əmr mənası daha əsasdır. Daha doğrusu, əmr cümlələrində əmr mənası daha qabarıq təzahür edir" [5, s.83]. Tədqiqatçı qeyd edir ki, "...Əmr cümlələri həm də öyüd, nəsihət, məsləhət, təskinlik bildirir" [5, s.84]. Eyni cümlə tipi şəklində nəzm və nəsr şəklində formalaşan aforizmlər dilimizdə zənginliyi ilə diqqəti cəlb edir. Belə ki, satirik poeziyamızın ustad sənətkarı Mirzə Ələkbər Sabirin aşağıdakı beyti də dediklərimizin əyani sübutudur.

Qədrin bil elmü fəzlin,
Elmin yolunda can ver! [8]

Aforizmlərin bir qismi isə bədii sual cümləsi şəklində, nəzmlə formalaşır. Abbas Səhhətin yaradıcılığından götürülmüş aşağıdakı aforizmə diqqət yetirsək, dediklərimiz bir qədər də aydınlaşmış olar.

Elmdir cümlə sənətin dəyəri,
Elmsiz sənətin nədir səməri? [1]

Elm haqqında nəsr şəklində formalaşan aforizmlərdən biri də Orta əsrlər dövründə yaşamış, milli ədəbiyyatın görkəmli siması olan Marağalı Əvhədinin "Əməlsiz elm ayağa cidadır" deyimidir. Sadə nəqli cümlə şəklində formalaşan aforizm məzmununa görə olduqca diqqət çəkir. Elm haqqında Abdulla Şaiqin: *"Hər bir millətin tərəqqisi və fəaliyyətinin başlıca amili elm və əxlaqdır"* ifadəsini, Mirzə Fətəli Axundzadənin: *"Elmi öyrənmək və mərifət sahibi olmaq insanlar üçün təkcə məişətlərini təmin etmək vasitəsi deyildir. Elm insanlara eyni zamanda onların əxlaqını, rəftarını və əməlini yaxşılaşdırmaq üçün təcrübədən keçirilmiş bir vasitədir"* hikmətli kəlamını, Mirzə Cəlilin: *"Doğrudan, bu da hünərdir ki, adam bir*

*şeyi bilməyə-bilməyə və eşitməyə-eşitməyə o şeydən xəbər verə. Bu özü də bir cür elmdir, bəlkə də, Allah vergisidir"* müdrik deyimini, Həsən bəy Zərdabinin: *"Əql və elm ilə insan bütün dünyanı tərif edə bilər"* kəlamını, Nəriman Nərimanovun: *"Tarixə nəzər salsanız, yəni keçən millətlərin barəsində oxusanız, yəqin edərsiniz ki, heç bir millət qılınc və tüfənglə qabağa getməyibdir. Hansı millət ki qabağa gedib, tərəqqi edibdir, ancaq elmin gücünə xoşbəxt olubdur"* sözlərini vurğulamaq da, bizcə, yerinə düşür. Bütün faktlar elmin insan həyatındakı yeri və mütəfəkkirlərin ona münasibətinin açılması baxımından olduqca gərəkli faktlardır.

Təhsil haqqında deyilmiş aforizmlər də öz məzmun rəngarəngliyi və formasına görə maraq doğurur. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri, Füzuli ədəbi məktəbinin davamçısı, əxlaqi-didaktik, mənzum və satirik tərzdə yazdığı əsərləri ilə şöhrət qazanmış Seyid Əzim Şirvaninin: *"Təhsil xəzinədir, əmək onun açarı"* [10, s.236] aforizmi tabesiz mürəkkəb cümlə şəklində formalaşmışdır. Tabesiz mürəkkəb cümlələrlə bağlı tədqiqatlarda qeyd edilir ki, belə mürəkkəb cümlələri təşkil edən sadə cümlələr biri digərindən asılı olmur. Sadəcə məna qrammatik cəhətdən bağlanaraq yeni cümlə tipini formalaşdırır. Buludxan Xəlilov tabesiz mürəkkəb cümlələrə aşağıdakı kimi tərif vermişdir: "İki və daha artıq sadə cümlənin məna və qrammatik cəhətdən bərabər hüquq əsasında tabesizlik yolu ilə vahid bir tam kimi birləşməsi nəticəsində əmələ gələn mürəkkəb cümlələrə tabesiz mürəkkəb cümlələr deyilir" [5, s.252]. Görkəmli maarifçi və dövlət xadimi Nəriman Nərimanov yazırdı: "Məktəb! Məktəb! Bizi ancaq məktəb nadanlıqdan xilas edə bilər". Böyük yanğı və həyəcanla deyilən bu cümləni, bəlkə də, nida cümləsi adlandırsaq, səhv etmiş olmarıq. Çünki nida cümlələri yüksək hiss, həyəcanla ifadə edilən nəqli, əmr və sual cümlələri əsasında formalaşır. Nida cümlələrinin xarakterik xüsusiyyətləri ilə bağlı professor Qəzənfər Kazımovun tədqiqatlarında oxuyuruq: "Söylənilən fikrə emosional münasibət bildirən cümlələrə nida cümləsi deyilir. Nəqli, sual və əmr cümlələri adi tonla deyildiyi kimi, yüksək tonla tələffüz edilərək hiss-həyəcanla dolğunlaşdırıla bilir və bu zaman nida cümlələri yaranır" [6, s.97].

Yekun olaraq qeyd etmək istərdik ki, aforizmlərin forma və məzmun xüsusiyyətləri olduqca maraqlı və geniş mövzudur. Biz məqaləmizdə hələlik yalnız vətən, vətənpərvərlik, elm və təhsil haqqında deyilmiş aforizmlərin kiçik bir hissəsindən bəhs etdik. Apardığımız araşdırma və təhlillərə əsaslanaraq deyə bilərik ki, Azərbaycan aforizmləri istər forma, istərsə də məzmununa görə rəngarənglik təşkil edir. Onların belə cəhətlərinin araşdırılması isə bir sıra maraqlı faktların ortaya çıxarılmasına imkan verir. Düşünürük ki, belə tədqiqatlar milli-mənəvi dəyərlərimizin, milli təfəkkürümüzün, ulu keçmişimizin bir sıra sehrli səhifələrinin açılması və öyrənilməsi baxımından olduqca mühüm vasitələrdən biridir. Belə

problematik mövzuların araşdırılması isə müasir dilçiliyimiz qarşısında dayanan əsas məsələlərdəndir.

**ƏDƏBİYYAT**


1. *Abbas Səhhət.* Seçilmiş əsərləri. Bakı: Lider nəşriyyatı, 2005, 456 s.
2. *Abdulla Şaiq.* Seçilmiş əsərləri: 3 clddə, III c., Bakı: "AVRASİYA PRESSS", 2005, 536 s.
3. *Abdullayev Ə., Seyidov Y., Həsənov A.* Müasir Azərbaycan dili. Sintaksis. Bakı: Şərq-Qərb, 2007, 424 s.
4. *Bakıxanov A.Q.* Seçilmiş əsərləri. Bakı: "AVRASİYA PRESSS", 2005, 488 s.
5. *Xəlilov B.* Müasir Azərbaycan dili. Bakı: Adiloğlu, 2017, 428 s.
6. *Kazımov Q.Ş.* Müasir Azərbaycan dili. Sintaksis: Bakı: Təhsil, 2007, 496 s.
7. *Məmməd Araz.* Seçilmiş əsərləri: 2 cilddə, I c., Bakı: Lider, 2004, 224 s.
8. *Mirzə Ələkbər Sabir.* Hophopnamə. Bakı: Turan, 2002, 368 s.
9. Nizami Gəncəvi: biblioqrafiya. (Tərtib edənləri: M.İbrahimova, G.Misirova). Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2012, 632 s.
10. *Seyid Əzim Şirvani.* Seçilmiş əsərləri: 3 cilddə, III c., Bakı: "AVRASİYA PRESSS", 2005, 384 s.


Redaksiyaya daxil olub 06.02.2022

# İctimai elmlər

*UOT 94 (479.24)*

***N.Ş.Ağayeva***
*AMEA Naxçıvan Bölməsi*
*Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutu*
*nuraagaoglu@gmail.com*

## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ 1995-2000-Cİ İLLƏRDƏ

***Açar sözlər:*** *Naxçıvan Dövlət Universiteti, Heydər Əliyev, Türkiyə Cümhuriyyəti, İran İslam Respublikası, konfrans, simpozium*

Məqalədə Naxçıvan Dövlət Universitetinin 1995-2000-ci illərdəki fəaliyyətinə nəzər salınmışdır. Həmçinin universitet rəhbərliyinin dəstəyi ilə konfrans və simpoziumlarda iştirak edən əməkdaşlar haqqında məlumat verilmişdir. Həmin dövrdə ümummilli lider Heydər Əliyevin Naxçıvan Dövlət Universitetinə qayğısı, universitetinin professor-müəllim heyəti ilə görüşməsi xüsusi vurğulanmışdır. 1990-cı illərin ikinci yarısında Naxçıvan Dövlət Universietinin Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının bir sıra universitetləri arasındakı əməkdaşlıq əlaqələri də məqalədə öz əksini tapmışdır.

***Н.Ш.Агаева***

## НАХЧЫВАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ В 1995-2000 гг.

***Ключевые слова:*** *Нахчыванский государственный университет, Гейдар Алиев, Турецкая Республика, Исламская Республика Иран, конференция, симпозиум*

В статье рассматривается деятельность Нахчыванского государственного университета в 1995-2000 гг. Также была предоставлена информация о сотрудниках, участвующих во встречах, конференциях и симпозиумах при поддержке администрации университета. В то время особо подчеркивалась забота общенационального лидера Гейдара Алиева о Нахчыванском государственном университете и его встреча с профессорско-преподавательским составом университета. В статье также нашло отражение сотрудничество Нахчыванского государственного университета между рядом университетов Турецкой Республики и Исламской Республики Иран во второй половине 1990-х годов.

***N.Ş.Aghayeva***

**NAKHCHIVAN STATE UNIVERSITY IN 1995-2000 YEARS**

***Keywords:*** *Nakhchivan State University, Heydar Aliyev, Republic of Turkey, Islamic Republic of Iran, conference, symposium*

The article looks at the activities of Nakhchivan State University in 1995-2000. Information was also provided about the staff participating in meetings, conferences and symposiums with the support of the university administration. At that time, the care of the national leader Heydar Aliyev for Nakhchivan State University and his meeting with the faculty of the university were especially emphasized. In the second half of the 1990s, Nakhchivan State University's cooperation between a number of universities in the Republic of Turkey and the Islamic Republic of Iran was also reflected in the article.

## Giriş

Azərbaycan SSR Nazirlər Sovetinin 29 dekabr 1990-cı il tarixli qərarına əsasən Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Pedaqoji İnstitutu Naxçıvan Dövlət Universitetinə çevrilmişdir. Muxtar Respublika Nazirlər Sovetinin 9 yanvar 1991-ci il 07 №-li qərarı və Naxçıvan Muxtar Respublika Nazirlər Kabinetinin 360 saylı sərəncamı ilə Naxçıvan Dövlət Universitetində təsərrüfat hesablı ixtisasartırma və yenidən hazırlanma fakültəsinin açılması haqqında qərar qəbul edilmişdi. Universitetdə 1991-ci ilin noyabr ayında mövcud "Kənd təsərrüfatı və iqtisadiyyat" fakültəsinin bazasında 2 yeni fakültə yaradılmışdı. 1991-ci ildə Naxçıvan Dövlət Universitetində tarix-filologiya, iqtisad, kənd təsərrüfatı, təbiətşünaslıq-riyaziyyat, mühəndis-pedaqoji, ibtidai təhsil və məktəbəqədər tərbiyə fakültələri var idi. Bütün ali məktəblərdə olduğu kimi Naxçıvan Dövlət Universitetində də tədris prosesinin və elmi-tədqiqat işlərinin təşkili kafedralar vasitəsilə həyata keçirilirdi. Universitetdə 17 kafedra fəaliyyət göstərirdi. "İqtisadiyyat və idarəetmə", "Botanika və Zoologiya" kafedraları son ildə yaradılmışdı. İctimai fənləri özündə cəmləşdirən kafedra "Fəlsəfə və Politologiya" adı ilə yenidən təşkil olunmuşdu. 1991-ci ildə "Azərbaycan tarixi" kafedrasının fəaliyyətə başlaması nəzərdə tutulurdu. 1990-cı ilin əvvəllərində universitetdə ayrı-ayrı kafedraların maddi texniki bazası imkan daxilində möhkəmləndirilmiş, müxtəlif ali məktəblərdən və elmi-tədqiqat institutlarından elmlər doktorları və elmlər namizədləri (fəlsəfə doktorları) işə cəlb olunmuşdular. Əvvəlki illərlə müqayisədə universitetdə xeyli dərəcədə geniş kadr potensialına malik kafedralar fəaliyyət göstərirdi. Universitetin bütün kafedralarında 170 nəfər elmi-pedaqoji mütəxəssislər fəaliyyət göstərirdi. Onlardan 7 nəfəri elmlər doktoru, professor, 90 nəfəri elmlər namizədi (fəlsəfə doktoru), o cümlədən 59 nəfəri dosent idi.

**Naxçıvan Dövlət Universiteti 1995-2000-ci illərdə**

1990-cı illərin əvvəllərində respublikamızın ictimai-siyasi həyatında baş verən dəyişikliklər ali məktəblərin təhsil sisteminə də öz təsirini göstərməyə başladı. Naxçıvan Muxtar Respublikasının nəqliyyat, enerji və yanacaq cəhətdən blokada şəraitində olması universitetdə dərslərin normal keçirilməsində çətinliklər yardırdı. Universitet rəhbərliyinin 11 yanvar 1995-ci il 8 №-li əmrinə əsasən 1994-1995-ci tədris ilində dəyişiklik edilmişdi. Belə ki, gündüz şöbəsində 1994-1995-ci tədris ilinin ikinci semestrinin dərsləri 15 mart 1995-ci il tarixdə, qiyabi şöbənin qış məqbul imtahan sessiyası isə 1 mart 1995-ci il tarixdə başlayırdı (6, v.10).

Universitet Elmi Şurasının 2 fevral qərarına əsasən 1994-1995-ci tədris ilində Elmi Şura üzvlərinin tərkibində bəzi dəyişikliklər olmuşdu. Universitetin elmi katibi, tarix elmləri namizədi A.Qasımov Naxçıvan Muxtar Respublikası Təhsil naziri təyin edildiyinə görə işdən ayrılmış, onun yerinə pedaqoji elmlər namizədi E.Maqsudov elmi katib seçilmişdi (6, v.50).

"Azərbaycan" qəzetinin 21 sentyabr 1994-cü il tarixli nömrəsində verilmiş elana əsasən Allahverdiyev Səftər "Elektroradio texnika və materialşunaslıq" kafedrasına müəllim vəzifəsinə, Hacıyev İsmayıl və Seyidov Abbas "Azərbaycan tarixi" kafedrasına dosent vəzifələrinə, Məmmədov Yaqub və Həsənov Abdulla "Riyaziyyat və hesablama texnikası" kafedrasına dosent əvəzi vəzifələrinə, Hüseynov Yusif "Fəlsəfə və Politologiya" kafedrasına dosent vəzifəsinə, Qasımov Firdovsi "Kimya" kafedrasına dosent vəzifəsinə və Babayev Yasin isə "Kimya" kafedrasının müdiri vəzifəsinə təyin olundular. (6, v.3-36). Həmçinin Abdullayev Həqiqət dosent diplomunu aldığı üçün 24 yanvar 1995-ci il tarixdə "Azərbaycan dili və onun metodikası" kafedrasına dosent əvəzi vəzifəsinə təyin olundu (6, v.41).

Universitet elmi şurasının 1 aprel 1995-ci il tarixli qərarına əsasən "Rus və xarici dillər" kafedrasında dərs yükünün və fənlərin çoxluğu nəzərə alınaraq hazırkı mərhələdə dillərin öyrənilməsinin əhəmiyyətini əsas götürməklə həmin bazada "Qərbi Avropa və Şərq dilləri", "Rus dili" kafedralarının yaradılması məqsədəuyğun hesab edildi. İsmayılov Adil isə "Qərbi Avropa və Şərq dilləri" kafedrasına müdir vəzifəsinə təyin olundu (13, v.65).

Universitet inkişaf etdiyi üçün 24 noyabr 1995-ci ildə artıq "Mülki-müdafiə və tibbi biliklər" kursu ayrıca kafedraya çevrildi. Seçki keçirilənədək baş müəllim Xaqani Məmmədov kafedra müdiri təyin olundu (18, v.102).

1 dekabr 1995-ci ildə "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrası ilə "Musiqi və təsviri incəsənət" kafedrasının bazasında "Fənlərin tədrisi metodikası" kafedrası yaradılır və yeni kafedra "İbtidai təhsil və məktəbəqədər tərbiyə" (İTMT) kafedrasının tabeliyinə verildi. "Azərbaycan dili və onun tədrisi metodikası" kafedrası bundan sonra "Azərbaycan dilçiliyi" kafedrası, "Musiqi və təsviri incəsənət" kafedrası isə "Musiqi və onun tədrisi

metodikası" kafedrası kimi adlandırıldı. Seçki müddəti qurtaranadək "Azərbaycan dilçiliyi" kafedrasının müdiri dosent Ə.Quliyev ilə "Musiqi və onun tədrisi metodikası" kafedrasının müdiri, baş müəllim N.Quliyev adları yuxarıda qeyd olunan kafedraların müdiri vəzifəsində saxlanıldılar. Müsabiqə keçirilənədək "Fənlərin tədrisi metodikası" kafedrasının müdirliyi vəzifəsi pedaqoji elmlər namizədi dosent S.Vəliyevə həvalə olundu (14, v.67).

Universitetdə riyaziyyat fənlərinin daha da yüksək keyfiyyətdə tədris edilməsi üçün 13 avqust 1996-cı ildə fizika-riyaziyyat və mühəndis-pedaqoji fakültələrinin "Ümumi riyaziyyat" və "Riyaziyyat və hesablama texnikası" kafedralarının bazaları əsasında "Riyazi analiz", "Cəbr və həndəsə", Riyaziyyat və informatika kafedraları təşkil olundu (15, v.122).

Universitetin "Beynəlxalq əlaqələr" şöbəsinin rəisi Eynulla Mədətov Azərbaycan Respublikasının prezidentinin 5 fevral 1996-cı il tarixli 436 №-li fərmanı ilə İran İslam Respublikasının Təbriz şəhərində Azərbaycan Respublikasının Baş konsulu təyin edildiyindən "Beynəlxalq əlaqələr" şöbəsinin rəisi və 0.5 ştat müəllim vəzifəsindən azad olundu (11, v.40).

Naxçıvan Muxtar Respublikası üzrə Qadınlar Məclisinin mükafatı uğrunda keçirilən voleybol yarışlarında II yeri tutduqlarına görə universitetin "Bədən tərbiyəsi və idman" kafedrasının baş müəllimi Elza Musayevaya və Fizika-riyaziyyat fakültəsinin Riyaziyyat ixtisasının 10 nəfər tələbəsinə rektorluq tərəfindən təşəkkür edildi (15, v.136).

Azərbaycan Respublikası Təhsil Naziri L.Rəsulovanın əmri ilə İsmayıl Hacıyev 13 noyabr 1996-cı il tarixdən universitetin elmi işlər üzrə prorektoru təyin olundu. Bundan sonra İsmayıl Hacıyev "Ali məktəb şurası"nın müvəqqəti əsasnaməsinə uyğun olaraq tutduğu vəzifəyə görə universitet elmi şurasının tərkibinə daxil edildi (16, v.63).

"Azərbaycan Respublikası Konstitusiyasının ali və orta ixtisas təhsil müəssisələrində öyrənilməsi barədə" Azərbaycan Respublikası Təhsil Nazirliyinin 14 mart 1996-cı il tarixli 89 nömrəli əmrinə əsasən Naxçıvan Dövlət Universitetində 1996-1997-ci tədris ilindən başlayaraq bütün ixtisasların 1-ci kurslarının I semestrində 12 saat mühazirə həcmində humanitar və sosial fənlərə ayrılan saatlar hesabına "Azərbaycan Respublikasının Konstitusiyası" müstəqil fənn kimi tədris olundu (15, v.91).

Gənclərə vətənpərvərlik hissini aşılamaq üçün Naxçıvan diyarının tarixini, maarif və mədəniyyətini, coğrafiyasını, iqtisadiyyatını, habelə adət və ənənələrini öyrətmək məqsədilə 1996-1997-ci tədris ilində bütün ixtisasların gündüz şöbəsinin 1-ci kurslarında 20 saat mühazirə həcmində "Naxçıvan" xüsusi kursu universitetin müəllimləri İ.Həbibbəyli, S.Babayev, İ.Bağırov, İ.Mollayev, Z.Şahverdiyev tərəfindən tədris olundu (15, v.164).

1995-2000-ci illərdə Naxçıvan Dövlət Universitetində təhsilin inkişafı sahəsində bir sıra mühüm addımlar atılmışdır. Bu addımlardan ən mühüm olanı

isə burada 1997-ci ildə Magistratura şöbəsinin fəaliyyətə başlaması idi. Məhz həmin ildə magistraturaya ilk qəbul aparılmış və 7 ixtisaslaşma üzrə 27 nəfər magistr universitetə qəbul olunmuşdur. Həmin dövrdən 2000-ci ilədək Magistratura şöbəsinə kimya elmləri doktoru, professor Yasin Babayev rəhbərlik etmişdir. Sonrakı dövrlərdə magistraturaya qəbul aparılan ixtisaslaşmaların sayı ilbəil artmağa başlamışdır. Artıq 1999-2000-ci tədris ilində universitetdə 12 ixtisaslaşma üzrə 32 magistr təhsil alırdı (19).

Naxçıvan Dövlət Universitetinin 30 illik yubileyi (30 oktyabr 1997-ci il) dahi lider Heydər Əliyevin diqqətindən kənarda qalmamışdır. Ümummilli lider yubiley münasibətilə universitetin kollektivinə təbrik məktubu ünvanlamışdır. Bu təbriknamə universitetin sonrakı inkişafına müsbət təsir göstərmişdir (4, s.12).

1997-1998-ci tədris ilinin ikinci yarısından etibarən Naxçıvan Dövlət Universitetində dahi lider Heydər Əliyevin adına təqaüd təsis edildi. Bu təqaüdün universitetin hər fakültəsinin təhsildə və ictimai işlərdə fərqlənən 1 tələbəsinə verilməsi nəzərdə tutuldu (17, v.208).

11 oktyabr 1999-cu ildə Naxçıvan Dövlət Universitetinin 1600 yerlik yeni tədris korpusunun açılışı olmuşdur. Həmin açılışda iştirak edən ümummilli lider Heydər Əliyev demişdir: "Naxçıvan Muxtar Respublikasının Dövlət Universiteti Azərbaycanın ən dəyərli, qabaqcıl ali məktəblərindən, ali təhsil ocaqlarından biridir... Mən bu gün böyük iftixar hissi keçirirəm ki, 30 il öncə əsasını qoyduğumuz bu gözəl təhsil ocağı indi böyük şöhrətə malikdir...". Naxçıvan Dövlət Universitetinə daim qayğı ilə yanaşan Heydər Əliyevə Elmi Şuranın 9 oktyabr 1999-cu il tarixli qərarı ilə Naxçıvan Dövlət Universitetinin fəxri doktoru adı verilmişdir. Artıq 2000-ci ildə Naxçıvan Dövlət Universitetinin 7 fakültəsində 3600 nəfərdən çox tələbə, magistr və aspirant ali təhsil alırdı. Dövlət tərəfindən göstərilən böyük qayğı sayəsində yüz hektar ərazini əhatə edən universitetin 14 tədris korpusu, kitabxanası, idman kompleksi, konservatoriyası, tibb fakültəsi və xəstəxanası, kompüter sinifləri, internet mərkəzi, çoxsaylı fənn kabinetləri və laboratoriyaları, Botanika bağı regionda elm, təhsil və mədəniyyətin, habelə milli ictimai fikrin inkişaf etdirilməsində mühüm rol oynadı (4, s.15).

### Universitetin xarici əlaqələri

Naxçıvan Dövlət Universiteti müstəqil universitet kimi fəaliyyətə başlayandan sonra Türkiyə Cümhuriyyəti və İran İslam Respublikasının bir sıra universitetləri ilə əməkdaşlıq əlaqələri yaratmışdır. İlk dəfə olaraq Türkiyənin Ərzurum Atatürk Universitetinin nümayəndələrindən 4 nəfəri 1992-ci ilin yanvar ayında Naxçıvanda olmuşdular. Bu hadisədən sonra Naxçıvan Dövlət Universitetinin rektoru Qasım Hüseynovun rəhbərliyi ilə nümayəndə heyəti ilk dəfə Türkiyədə olmuşdur (7, v.15). Sonralar həmin əlaqələr daha da

möhkəmlənmişdir. Belə ki, universitetin rektoru Qasım Hüseynov Təhsil Nazirliyinin nümayəndə heyətində tədrisin təkmilləşməsi və elmi əlaqələr yaratmaqla əlaqədar 25 may 1995-ci il tarixində 10 günlüyə Ankara Hacəttəpə Universitetində olmuşdu (8, v.49).

Ankara Universitetinin rektorluğunun 25 aprel 1996-cı ildə yazılmış məktubuna əsasən Universitetin 50 illik yubileyində iştirak etmək məqsədilə "İbtidai təhsil və məktəbəqədər tərbiyə" (İTMT) fakültəsinin dekanı Nəriman Orucəliyevin rəhbərliyi ilə "Əcəmi" instrumental ansamblının 11 nəfər üzvü Ankara şəhərinə yollanmışdılar (10, v.56).

Universitetin "Fizika" kafedrasının müəllimi fizika-riyaziyyat elmləri namizədi Vəli Hüseynov 20 may 1995-ci il tarixdən 10 gün müddətinə Türkiyə Cümhuriyyətinin Kayseri şəhərindəki Ərciyəz Universitetində təcrübə mübadiləsi aparmışdır (9, v.73).

İran İslam Respublikası baş konsulunun məktubuna əsasən tədris işləri üzrə prorektor Faiq Mirişli, "Ümumi riyaziyyat" kafedrasının müəllimi Sahib Əliyev, müəllim Şamil Mahmudov, "Fizika" kafedrasının müəllimi Vəli Hüseynov Naxçıvan Dövlət Universiteti və Urmiya Universiteti arasında mədəni, elmi əlaqələri inkişaf etdirmək üçün 10 oktyabr 1996-cı ildə 3 gün müddətinə Urmiya şəhərində ezam olundular (10, v.144).

Universitetin "Fəlsəfə və Politologiya" kafedrasının dosenti Əhmədov Həsən Türkiyə Cümhuriyyətinin Ankara şəhərində keçiriləcək 1926-cı il Bakı Türkoloji konqresinin 70-ci ildönümü münasibəti ilə xatirə toplantısında iştirak etmək üçün Türk Dil Qurumu Başqanları tərəfindən 27 noyabr 1996-cı ildə Ankara şəhərinə dəvət olunmuşdu (12, v.157)

Universitetin "İqtisadiyyat və idarəetmə" kafedrasının müəllimləri Mehdi Bağırov və Asəf Qəribov Türkiyə Cümhuriyyətinin Ankara Universitetində bir aylıq staj keçmək üçün 15 yanvar 1996-cı il tarixində Ankara şəhərinə getmişdilər (11, v.16).

Universitetin "Ədəbiyyat" kafedrasının müdiri Yavuz Axundov Ankara Universitetinin Xarici işlər üzrə koordinatoru professor Cemal Talğunun dəvəti ilə 17 dekabr 1996-cı il tarixdən 10 gün müddətinə Ankara şəhərinə göndərildi (12, v.157).

**Konfrans və simpoziumlarda iştirak edən əməkdaşlar**

İran İslam Respublikasının Təbriz Universitetində böyük şərq alimi Seyid Məhəmmədhüseyn Təbatəbainin elmi irsinə həsr olunmuş elmi konfransda iştirak etmək üçün "Zoologiya" kafedrasının müdiri dosent Abbas Mehdiyev 6 may 1995-ci il tarixdən 2 günlüyə Təbriz şəhərinə ezam olundu (9, v.44).

İran İslam Respublikasının Marağa şəhərində 21 iyun 1995-ci il tarixdə keçirilən simpoziumda elmi işlər üzrə prorektor İ.Həbibbəyli, "Fəlsəfə və

Politologiya" kafedrasının müdiri Q.Allahverdiyev, fəlsəfə elmləri namizədləri Y.Qasımov, M.Rzayev, tarix elmləri namizədi N.Əliyev, ədəbiyyat kafedrasının müəllimi H.Həşimov iştirak etmişdilər (9, v.84)

Universitetin elmi işlər üzrə prorektoru İsa Həbibbəyli, "Ədəbiyyat" kafedrasının müdiri Yavuz Axundov, "Azərbaycan dilçiliyi" kafedrasının müdiri Əbülfəz Quliyev, elmi katib Elbəyi Maqsudov, "Pedaqogika və Psixologiya" kafedrasının dosenti İsmayıl Əliyev 22 iyun 1996-cı il tarixdə Ankarada keçirilən beynəlxalq folklor konfransında iştirak etmişdilər (12, v.108).

Universitetin rektoru İsa Həbibbəyli (artıq 1996-cı ilin iyulundan rektor idi) 6 noyabr 1996-ci ildə Bakı şəhərində Azərbaycan Yazıçılar Birliyinin keçirdiyi Beynəlxalq simpoziumda iştirak etmişdi (10, v.148).

Universitetin "Fəlsəfə və politologiya" kafedrasının müdiri Qərib Allahverdiyev və "Ədəbiyyat" kafedrasının baş müəllimi Hüseyn Həşimov 21 dekabr 1996-cı il tarixdə Türkiyə Cümhuriyyətinin Ankara şəhərində Nəsrəddin Xocaya həsr edilən beynəlxalq konfransda iştirak etmişdilər (12, v.165).

**Universitetin kitabxanası**

1968-ci ildə cəmi 370 kitabla fəaliyyətə başlamış kitabxananın maddi-texniki bazası olduqca aşağı səviyyədə idi (3, s.22). İnstitut dövründə kitabxananın fəaliyyəti, xidmət sahələri genişləndirilmiş və fondların vacib olan ədəbiyyatlarla komplektləşdirilməsi məsələsi sürətlənmişdi. Sonralar keçmiş Sovet İttifaqının və bir sıra xarici ölkələrin elmi qurumları, kitabxanaları ilə mübadilə aparılması nəticəsində kitabxananın fondu nisbətən zənginləşmişdi. Buna görə də 2000-dən artıq kitab mübadilə yolu ilə əldə edilmişdi. Kitabxananın fondunda 1985-ci ildə 60 min nüsxə Azərbaycan, rus və xarici dillərdə çap olunmuş nadir və müstəsna əhəmiyyətli nəsr əsərləri, elmi ədəbiyyatlar var idi (2, s.6). 1990-ci ildən sonra kitabxananın beynəlxalq əlaqələri daha da genişlənmişdi. 1992-ci ildə Naxçıvan Dövlət Universitetinin kitabxanasının kitab fondunda 111927 ədəd ədəbiyyat var idi (3, s.19).

Universitet rəhbərliyinin əmrinə əsasən Naxçıvan Dövlət Universitetinin kitabxanasında 1 fevral 1996-cı ildə 5 nəfərdən ibarət komissiya yaradılmışdı. Komissiyanın təşkil olunmasının əsas məqsədi kitabxanada invertarlaşma aparılması və müasir şəraitdə ictimai-siyasi ədəbiyyatın, həmçinin köhnəlmiş ədəbiyyatın nəzərdən keçirilməsi idi. Çünki uzun müddət idi ki, kitabxanada invertarlaşma işləri həyata keçirilmirdi (11, v.37).

Naxçıvan Dövlət Universitetinin kitabxanasında əldə edilən ən böyük nailiyyətlərindən biri "Heydər Əliyev Universiteti" kitabxanasının yaradılması olmuşdur. Bu kitabxana Azərbaycanda ilk dəfə olaraq Naxçıvan Dövlət

Universitetində, Universitet Elmi Şurasının 6 mart 1997-ci il tarixli qərarı ilə təşkil olunmuşdur. Bu yeni tipli dövlətçilik məktəbinin ilk məşğələsi 5 aprel 1997-ci ildə keçirilmişdir. İlk məşğələdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov "Heydər Əliyevin həyatı və fəaliyyəti bir universitetdir" məruzəsi ilə çıxış etmişdir (1). Həmin dövr üçün bu kitabxana ümummilli lider Heydər Əliyev irsinə dair ədəbiyyatın saxlanmasında və təbliğində də mühüm rol oynayırdı.

1998-ci ildə qəbul edilmiş "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunun (5, s.3) III fəslində kitabxana fondlarının təşkili və tərkibi haqqında geniş məlumat verilirdi. Naxçıvan Dövlət Universitetinin kitabxanası da bu qanunu rəhbər tutaraq kitabxana fondlarının təkmilləşdirilməsi işində bir sıra tədbirlər görmüşdü. Məhz bu qanunun qəbulundan sonra kitabxana fondunun tərkibinə kitab, jurnal, qəzet, digər çap məhsulları, audiovizual və texniki vasitələrlə oxunan materiallar, əlyazmalar və başqa informasiya daşıyıcılarının daxil edilməsi və fondların universal, sahəvi, çoxsahəli, ixtisaslaşdırılmış olması sahəsində mühüm addımlar atılmışdı.

**Nəticə**

1990-cı illərin ikinci yarısında da Naxçıvan Dövlət Universitetinin fəaliyyəti yüksələn xətlə davam etmiş, universitetin Türkiyə və İran İslam Respublikasının universitetləri ilə qarşılıqlı əlaqələri olmuşdur. Universitet rəhbərliyinin dəstəyi ilə əməkdaşların konfranslarda və simpoziumlarda iştirakı yüksək səviyyədə təşkil olunmuşdur. Həmçinin Naxçıvan Dövlət Universitetinin kitabxanasının fəaliyyətində 1996-cı ildən sonra canlanma baş vermişdir. Burada 1997-ci ildə "Heydər Əliyev Universiteti" kitabxanası və 2000-ci ildə Tibb kitabxanasının əsası qoyulmuşdur. Ümumiyyətlə Naxçıvan Dövlət Universitetində yeni istiqamətlər üzrə ali təhsilli müəllim kadrları hazırlanmaqla yanaşı, ali məktəbin özü üçün elmi-pedaqoji kadr potensialının formalaşdırılması, onun keyfiyyət və kəmiyyət göstəricilərinin artırılması sahəsində mühüm addımlar atılmışdır.

## ƏDƏBİYYAT

1. *Behbudova A.* Kitabxana informasiya dünyasına açılan qapıdır / "İki sahil" qəz., Bakı, 2021, 22 sentyabr
2. *Behbudova A.* Naxçıvan Dövlət Universitetinin Elmi kitabxanası – 40. NDU: Qeyrət, 2008, 76 s.
3. *Həbibbəyli İ.* Əsrin dörddə biri. Bakı, 1992, 91 s.
4. *Həbibəyli İ.* Heydər Əliyev və Naxçıvan Dövlət Universiteti. Bakı, 2002, 80 s.

5. Kitabxana işinə dair rəsmi sənədlər (Qanun və qanun qüvvəli normativ hüquqlu sənədlər toplusu). Bakı, 2015,  200 s.
6. Naxçıvan Muxtar Respublikası Dövlət Arxivi  (NMRDA), fond 747, siy 2, iş 466, 77 v.
7. NMRDA , fond 747, siy 2, iş 354, 36v.
8. NMRDA, fond 747, siy 2, iş 472, 119v.
9. NMRDA, fond 747, siy 2, iş 469, 167v.
10. NMRDA, fond 747, siy 2, iş 473, 180v.
11. NMRDA, fond 747, siy 2, iş 491, 118v.
12. NMRDA, fond 747, siy 2, iş 492, 167v.
13. NMRDA, fond 747, siy 2, iş 467, 181v.
14. NMRDA, fond 747, siy 2, iş 490, 112v.
15. NMRDA, fond 747, siy 2, iş 486, 307v.
16. NMRDA, fond 747, siy 2, iş 507, 107v.
17. NMRDA, fond 747, siy 2, iş 508, 314v.
18. NMRDA, fond 747, siy 2, iş 489, 150v.
19. https://ndu.edu.az/elm-ve-tehsil/magistratura/

Redaksiyaya daxil olub 07.02.2022

*UOT 32*

***S.V.Talıbov***
*Naxçıvan Dövlət Universiteti*
*admin@ndu.edu.az*

# ÜMUMMİLLİ LİDERLİK: POLİTOLOJİ ANLAMI VƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

***Açar sözlər:*** *siyasi identifikator, ümummilli lider, siyasi təcrübə, dövlətçilik ənənəsi, geosiyasi böhran, yeni lider, nizamlayıcı-qurucu-birləşdirici lider, XXI əsrin çağırışları*

Məqalədə siyasi təlimlərdə ümummilli liderliyin anlamı, müəyyən edilməsi prinsipləri və siyasi identifikatorları analiz edilir. XX əsrin ikinci yarısından başlayaraq ABŞ və Avropa siyasi-nəzəri düşüncəsində bu problemin yeri və rolu təhlil olunur. Politoloqlar qarşısına çıxan bir sıra nəzəri xarakterli çətinliklər vurğulanır.

Göstərilir ki, XXI əsrin gəlişi ilə ümummilli liderlik məsələsi nəzəri və praktiki olaraq daha da aktuallaşıb. Bu baxımdan ayrı-ayrı təcrübələrin tədqiqi də ön plana çıxmaqdadır. Azərbaycan təcrübəsi həmin aspektdə son dərəcə ciddi əhəmiyyət kəsb edir. Ulu Öndər Heydər Əliyevin Ümummilli Liderlik təcrübəsi bir sıra özəlliyi ilə xarakterizə olunur. Nəzəri təhlillər əsasında bir sıra nəticələr alınır.

***С.В.Талыбов***

## ОБЩЕНАЦИОНАЛЬНОЕ ЛИДЕРСТВО: ПОЛИТИЧЕСКОЕ ПОНИМАНИЕ И ОПЫТ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *политический идентификатор, общенациональный лидер, политический опыт, традиция государственности, геополитический кризис, новый лидер, упорядочивающий-созидающий-объединяющий лидер, вызовы xxı века*

В статье анализируется понимание общенационального лидера в политических теориях, принципы их определения и политические идентификаторы. Исследуется место и роль этого понятия в работах политологов США и Европы начиная со второй половины XX века. Отмечается некоторые теоретические трудности, с которыми встречались политологи.

Показывается, что с приходом XXI века теоретически и практически еще более актуализируется проблема общенациональное лидерство. В этом смысле изучение разных опытов выходит на первый план. Азербайджанский опыт в этом контексте становится более актуальным. Общенациональное лидерство Гейдара Алиева характеризуется некоторыми особенностями. На основе теоретических анализов получается ряд результатов.

***S.V.Talibov***

# NATIONAL LEADERSHIP: POLITICAL UNDERSTANDING AND EXPERIENCE OF AZERBAIJAN

***Keywords:*** *political identifier, nationwide, leader, political experience, tradition of statehood, geopolitical crisis, new leader, ordering-creative-unifying leader, challenges of the 20th century*

The article analyzes the understanding of the national leader in political theories, the principles of their definition and political identifiers. The place and role of this concept in the works of political scientists in the USA and Europe starting from the second half of the 20th century is studied. Some theoretical difficulties encountered by political scientists are noted. It is shown that with the advent of the XXI century, theoretically and practically, the problem of national leadership becomes even more relevant. In this sense, the study of different experiences comes to the fore. The Azerbaijani experience in this context becomes more relevant. The nationwide leadership of Heydar Aliyev is characterized by some peculiarities. On the basis of theoretical analysis were drawn a number of conclusions.

## Giriş

Ümummilli liderlik məsələsənin politoloji izahının vacibliyi indiki tarixi mərhələdə şübhə doğurmur. Politoloqlar bu məsələnin siyasi-nəzəri analizi ilə keçən əsrin 70-ci illərindən müxtəlif aspektlərdə məşğuldurlar. Təbii ki, ümumilikdə toplum və dövlət miqyasında liderliyi tədqiqinin tarixi çox qədimdir. Antik dövrdə yunanlar məsələni ümumtoplum və dövlət səviyyəsində araşdırırdılar. Aristotelin “Politika”sı, Platonun “Dövlət”i bu qəbildən maraqlı nümunələr sayıla bilər. O da məlumdur ki, Platon “ən yaxşı dövlət başçısı və liderin filosoflardan ola biləcəyi” tezisinin müəllifidir. Bu faktları unutmamaq şərtilə bizim üçün XX əsrin sonu və XXI əsrin üçüncü onilliyinin ilk illərinə qədərki dövrdə ümummilli liderliyin politoloji aspektdə necə dərk edilməsi maraqlıdır.

Öncə qeyd edək ki, “siyasi lider”, “milli lider” və “ümummilli lider” anlayışları arasında fərqlər mövcuddur. Həmin fərqlər məzmun çalarları ilə bağlıdır. Keçən əsrin 70-90-cı illərinin politoloji araşdrımaları göstərdi ki, vurğulanan anlayışlar arasında politoloji sərhədləri nəzəri və praktiki olaraq müəyyən etmək, onlar haqqındakı nəzəri təsəvvürləri vahid bucaq altında sistemləşdirmək asan məsələ deyildir. Hətta bir sıra politoloqlar bu barədə təsəvvürlərin dumanlı və “sübutların əlaqəsiz” olduğundan bəhs edirlər. Bu qənaət siyasi liderliyin politoloji analizi zamanı meydana çıxan nəzəri və metodoloji problemlərin fonunda meydana gəlir. Məşhur fransız politoloqu Jan Blondel yazırdı ki, siyasi liderliyi və ayrıca, milli liderliyi araşdıran zaman açıq

hiss etdik ki, "ümummilli siyasi liderliyin daha dəqiq xarakteristikasına ehtiyac" mövcuddur [1, s.116].

O, araşdırmasında bu qənaətə konkret hansı məsələlərin tədqiqi zamanı gəldiyini də təsvir edir. Hansı səbəblərdən milli miqyasda fəaliyyət göstərən siyasi liderlərin heç də hamısı eyni nəticəni əldə edə bilmirlər? Bir qismi ümumiyyətlə "iz qoya bilmirlər". Onların liderliyinin ömrü hakimiyyətdə olduqları qədərdir və ya həmin dövrdə belə real lider kimi qəbul edilmirlər. Bir başqaları topluma məhdud dərəcədə təsir edə bilirlər. Nəhayət, böyük siyasətdə olan siyasi liderlər sırasında cəmiyyəti əhəmiyyətli miqyasda dəyişənlərə də rast gəlinir [1, s.116]. Deməli, J.Blondelə görə, milli miqyasda fəaliyyət göstərən siyasi liderləri təsir dairəsinə görə fərqləndirmək gərəkdir. Bizim analiz göstərir ki, problem bununla tamamlanmır.

Çünki tarixdə kifayət qədər nümunələr mövcuddur ki, cəmiyyəti dəyişən liderlər belə yaddaşlarda müsbət ümummilli lider kimi qalmırlar. Və politoloji olaraq da onları həmin kateqoriyaya aid etmək çox çətindir. Məsələn, Adolf Hitler. Nəinki Almaniyaya, hətta dünyaya ciddi təsiri olan və çox şeyi dəyişən lider olub. Lakin indi onu müsbət mənada Almaniyanın ümummilli lideri adlandıran yox dərəcəsindədir. Şarl De Qol Fransanı dəyişdi və indi də həmin ölkənin ümummilli lideri kimi qiymətləndirilir. Atatürk də həmin sırada yüksək zirvədədir.

Bunlardan başqa hakimiyyətdə olduğu dövrdə müəyyən müsbət işlər görən, lakin toplum tərəfindən ümummilli lider kimi qəbul edilməyən və bu aspektdə real lider sayılmayan siyasətçilər də olub. Məsələn, Azərbaycanda Əbülfəz Elçibəy bu taleyi yaşadı. Öz humanizmi, milliliyi və demokratikliyi ilə seçilən bu siyasətçi nəinki ümummilli lider kimi qəbul edilmir, hətta hakimiyyətdən gedəndən sonra undulanlardandır. Bir başqa misal olaraq Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvilini gətirə bilərik. M.Saakaşvili müəyyən müddətə Gürcüstan cəmiyyətini dəyişə bildi, lakin o da ümummilli lider kimi qəbul edilmədi. İndi isə həbsdədir və onu Gürcüstan hakimiyyəti cinayətkar kimi cəzalandırır.

Dünyanın çoxsaylı ölkələrindən başqa nümunələr də göstərə bilərik. Müqayisələr təsdiqləyir: J.Blondel bir məqamda haqlıdır ki, ümummilli liderliyin universal "siyasi indikatorları"nı müəyyən etmək də çətindir. Məsələyə konkret tarixi şəraitdə və konkret ölkənin siyasi liderlik təcrübəsi prizmasında yanaşmaq maraqlı politoloji qənaətlər əldə etməyə imkan verərdi.

Biz bu məqalədə ümummilli liderlik haqqında nəzəri politoloji fikirləri analiz etməklə yanaşı, konkret Azərbaycanda bu siyasi məsələnin təhlilini aparmaq məqsədini qarşıya qoymuşuq. Bunun üçün sistemli, inteqrativ və dinamik dəyişən siyasi sistemlərin politioloji təhlili mövqeyindən çıxış edəcəyik. Bu ümumi yanaşmamız fənlərarası mövqedən həyata keçiriləcək. Metod kimi toplumun siyasi, sosial, mədəni aspektlərin qarşılıqlı təsiri

şəraitində dövlətçiliyin inkişaf özəlliklərindən faydalanmağa çalışacağıq. Bütün bunlarda başlıca məqsəd isə Ulu Öndər Heydər Əliyevin Ümummilli lider kimi siyasi-nəzəri obrazını yaratmağa cəhddən ibarətdir.

## 1. Ümummilli liderliyin siyasi-nəzəri meyarları haqqında

Yuxarıdakı müddəalardan belə nəticə çıxır ki, ümummilli liderliyin mühüm şərti siyasi liderin bütöv cəmiyyət miqyasında fəaliyyət göstərməsindən ibarətdir. Lakin bu, zəruri şərt olsa da, kifayətedici deyil. Bir qədər də konkret yanaşaraq ümummilli liderləri başqalarından fərqləndirən siyasi indikatorları müəyyən etmək lazımdır. J.Blondel "liderin təsir miqyası" anlayışına üstünlük verir. Maraqlıdır ki, ümumiyyətlə, J.Blondel liderliyin politoloji dərkinə daha çox dərinlik və geniş əhatəlilik prizmasından yanaşır. Yəni elə bir politoloji-nəzəri sistem qurmağa çalışır ki, onun çərçivəsində liderliyi tam, mükəmməl və əhatəli analiz etmək mümkün olsun. Liderliyin politoloji konseptuallaşmasını bu yöndə aparmağa çalışan fransız politoloq yazır ki, başlıca məqsədi liderliyə daha əsaslı yanaşmaqla onu "qiymətləndirdikdə açar elementləri identifikasiya etmək" lazımdır [1, s.116]. Lakin J.Blondelin bu layihəsi tam olaraq baş tutmadı və bu da təbii idi.

Əslində bu fransız politoloqun liderliklə bağlı araşdırmaları kifayət qədər uğurlu qəbul edilir. Onun özü də siyasi liderliyi, xüsusilə ümummilli liderliyi çox mürəkkəb məsələ kimi təsəvvür edirdi. Digər tərəfdən politoloji təcrübə göstərir ki, politoloqlar siyasi liderliyə və ayrıca ümummilli liderliyə çox fərqli mövqelərdən yanaşırlar. Məsələn, liderliyin transformasiya nəzəriyyəsinin ayrı-ayrı təmsilçiləri liderin aldığı konkret nəticələrə və onun bütövlükdə cəmiyyətlə qura bildiyi qarşılıqlı münasibətlərin məzmununa daha çox diqqət yetirirlər. Məsələn, J.M.Burns [2] lideri fəaliyyətində aldığı konkret nəticələrə görə qiymətləndirirdi. Glenn Peycin bu məsələdə ideya transformasiyası isə daha maraqlıdır. Amerikanın bu tanınmış politoloqunun nəzəriyyəsi prezident G.C.Trumenə Koreyaya təcavüz etməyə ideya əsası vermişdi. Yəni G.Peyc politoloq kimi milli siyasi liderin aqressiv və təcavüzkar obrazına üstünlük verirdi. Bu mənada onun üçün ümummilli liderliyin siyasi identifikatorları sırasında aqressivlik də yer ala bilərdi. Lakin Koreya müharibəsindən sonra siyasi liderliyin politoloji analizində G.Peyc tamamilə fərqli mövqe tutdu: o, Qlobal qeyri-zorakılıq təşkilatının yaradıcılarından biri və rəhbəri oldu. Dünyada ən çox oxunan əsəri isə "Qlobal qeyri-zorakılıq haqqında siyasi təlim" adlanır. Bu əsər 40 dilə tərcümə olunub. Əsərdə göstərilir ki, ümummilli lider nümunəsi kimi Mahatma Qandini göstərmək olar [3].

Ümummilli liderliyin siyasi identifikasiyasına maraqlı yanaşmalar nümunəsi kimi amerikalı politoloqlar Arçi Braun və Barbara Kellermanın da mövqelərini göstərmək olar. Bu politoloqların hər ikisi ABŞ prezidentləri ilə işləyiblər və siyasi liderliyin praktiki aspektinə yaxından bələddirlər. Hətta

A.Braunu "Ağ Ev politoloqu" da adlandırırlar. A.Braun ümummilli liderliyə "güclü lider" anlayışı, B.Kellerman isə lider-ardıcılları qarşılıqlı münasibətləri kontekstində baxırlar. Onlar XXI əsrin son ilk onilliklərində yazdıqları əsərlərində bu barədə tezislər irəli sürürlər.

A.Braun XXI əsrdə fəaliyyət göstərən və dünyada tanınan siyasi liderləri "güclü lider" anlayışı prizmasında təhlil edir və deyək ki, D.Trampı bu kateqoriyaya aid etməyin çətin olduğu qənaətinə gəlir. Bunun üçün o, tarixdən çoxlu nümunələr gətirir [4, s.10-30]. Politoloqun fikirlərindən belə nəticə çıxır ki, ümummilli səviyyədə lider olmaq üçün çoxlu sayda siyasi faktorlara və meyarlara uyğun gəlmək lazımdır ki, nəzəri cəhətdən bunu müəyyən etmək asan məsələ deyil.

B.Kellermanın liderliklə bağlı tədqiqatlarına politoloq və siyasətçilərin diqqətlərinin çox olması müasir cəmiyyətlərə onun orijinal yanaşması ilə bağlıdır. Politoloq liderliyə onun ardıcılları və daha geniş kontekstdə bütöv cəmiyyətlə münasibətləri aspektində yanaşır. Hələ 2018-ci ildə "Peşəkar liderlik" adlı kitabında B.Kellerman siyasi liderliyin ciddi bir iş olduğunu və bunun üçün kadrların hazırlanması prosesinin dəqiq və elmi əsaslandırılmış hazırlanması problemini qaldırmışdı. Buna səbəb son 40 ildə Qərbdə liderlik böhranının özünü göstərməsi ilə bağlıdır. Politoloq vurğulayır ki, son 40 ildə Qərbdə liderlik sənayesinin "həndəsi silsilə ilə böyüməsinə baxmayaraq", liderlik təhsili, təlimi və inkişafı "idealdan çox uzaq vəziyyətdədir". Bundan politoloq belə nəticə çıxarır ki, sürətlə dəyişən dünyada gələcəyin liderləri ciddi hazırlanmalıdır. Bu, baş verməsə, hazırda Qərbi bürümüş liderlik böhranı daha da genişlənəcək [5].

Barbara Kellerman 2021-ci ildə dərc edilən əsərində siyasi liderliyə konkret situasiyada, pandemiya dövründə analitik yanaşır. O, D.Trampın liderliyi və həmin prosesdə ardıcıllarının (bütövlükdə cəmiyyətin) oynadığı rolu maraqlı məntiqlə analiz edir. Kitabın adında "D.Trampın pandemiyanı necə bərbad etdiyi və Amerikanı pis vəziyyətə saldığı" ifadəsi yer alıb. Bu, təsadüfi və ya dəb naminə seçilmiş başlıq deyil. Müəllif vurğulayır ki, D.Trampın liderliyinin "dəhşətli dərəcədə yanlış olduğu aydın" idi. Lakin D.Trampın prezident olmasında və sonrakı mərhələdə idarəetməsinin yarıtmazlığında özü ilə yanaşı, ardıcıllarının da böyük payı vardır. Bu o deməkdir ki, amerikalı politoloq D.Trampın prezident olması ilə liderliyi arasında kəskin ziddiyyətin mövcud olduğunu önə çəkir və onu heç bir halda ümummilli lider kimi qəbul etməyin mümkün olmadığını ifadə edir [6].

B.Kellermanın siyasi liderliyə yanaşmasından belə qənaət əldə edə bilərik: birincisi, keçən əsrin 80-ci illərindən başlayaraq Qərbdə liderlik böhranı özünü göstərir, ikincisi, bunun səbəbləri Qərb politoloji fikrində liderliyin adekvat dərk edilməməsi ilə bağlıdır, üçüncüsü, konkret olaraq lider yetişdirmə mexanizmi müasir tələblərə cavab vermir. Lideri yetişdirmək üçün siyasi

varisliklə yeniliyin vəhdətini müəyyən etmək gərəkdir və bunun fonunda gələcəyin uğurlu liderlərini hazırlamaq olar. Bəs bunu necə yerinə yetirmək mümkündür?

Aparılan analizlər göstərir ki, həmin vəzifənin öhdəsindən real olaraq ümummilli liderlik qabiliyyətinə malik siyasi şəxsiyyətlər gələ bilərlər. Təbii ki, yeni liderlərin yetişdirilməsində siyasi institutlar və texnologiyaların rolu danılmazdır. Lakin onların da səmərəli işləməsi üçün siyasi liderin yetərli təşkilati qabiliyyəti zəruridir. Buradan belə ümumi nəticə alınır ki, ümummilli liderliyin vacib siyasi indikatorları sırasında liderin öz dövründə səmərəli fəaliyyəti ilə yanaşı, özündən sonrakı mərhələ üçün də layiqli milli siyasi lider yetişdirməsi ayrıca yer tutur. Bu mövzuda artıq bir sıra politoloji araşdırmalar da mövcuddur.

Hələ XX əsrin 80-90-cı illərində amerikalı politoloq Marqaret Hermann siyasi liderlərin tipologiyasında "lider-bayraqdar" nümunəsini göstərmişdi. Bu kateqoriyadan olan liderlər reallığa və arzu olunan gələcəklə bağlı öz baxışlarına malikdirlər. Onlar qarşıya qoyduqları məqsədlərə çatmaq üçün yüksək bilik səviyyəsinə sahibdirlər. Adətən lider-bayraqdar mövcud sosial-siyasi sistemi dəyişə, onu daha uğurlu sistemə transformasiya edə bilir [7, s.148-167].

XXI əsr üçün bu məsələ nəinki aktuallığını itirib, hətta liderliyin digər növləri üçün daha da aktuallaşıb. Məsələn, M.Hermann 2016-cı ildə C.Peyclə birgə qələmə aldığı əsərdə böyük təşkilatlarda liderin çevikliyi, miqyası görə bilməsi, mövcud sistemi daha da təkmilləşdirmə qabiliyyətinin getdikcə daha çox strateji aktuallıq kəsb etdiyi tezisini irəli sürür [8, s.127-137]. Bu tezisin kökü keçən əsrin 80-90-cı illərində ABŞ və Avropada aparılan bir sıra politoloji tədqiqatlarda irəli sürülən fikirlərə gedib çıxır. Həmin bağlılıqda C.C.Manz, H.P. Sims, C.P.Neck və başqalarının "özlider" və ya "superlider" anlayışından istifadə etməsi diqqəti çəkir [9, s.681-689].

Superlider tərəfdarları sırasında liderlər yetişdirə biləndir. XXI əsrdə politoloqların bu məsələyə ("özliderlik" və ya "superliderli"yə) daha geniş kontekstdə yanaşmağa çalışdıqları müşahidə edilir. Məsələn, ABŞ-da J.Sirkwoo və Çində X.Zhang, və K.M.Bartol apardıqları tədqiqatlarda göstərirlər ki, "liderlik əməkdaşların yaradıcılığında mühüm rol oynamalıdır" [10, s.17-18] və liderlərin imkan və haqlarının genişlənməsi... yaradıcılıq prosesinə cəlbetməni gücləndirir ki, yekunda lider güclənir [11].

Ancaq bu məqamda superliderlik və ya özliderlliklə ümummilli liderliyi eyniləşdirmək olmaz. Birincisi, superliderlik əsas olaraq böyük təşkilatlarla bağlıdır. İkincisi, onların yetişdirdikləri yeni liderlərlə cəmiyyət və dövlət miqyasında fəaliyyət göstərən ümummilli liderin yetişdirdiyi liderin fərqli funksiyaları və məqsədləri olur. Superlider üçün bütövlükdə cəmiyyətin gələcək obrazı maraqlı deyil – onu təşkilatının gələcəyi maraqlandırır. Bundan başqa

superliderin düşüncə miqyası milli lider masştabında deyil. Ümummilli lider isə bütün xalqın, cəmiyyətin, dövlətin gələcəyini etibar edə biləcəyi layiqli lider yetişdirməlidir. Təbii ki, ümummilli liderin bu mənada qarşısında nəhəng, ölkə üçün strateji əhəmiyyəti olan vəzifə dayanır. Bu səbəbdən hələlik politoloqlar superliderlikdən milli siyasi liderliyə nəzəri keçid mexanizmini hazırlamayıblar. Bunun necə mümkün olması məsələsi də açıqdır. Ancaq hazırda superliderlik, özliderlik kimi anlayışlardan istifadə bütövlükdə XXI əsr üçün liderliyin əhəmiyyətinin və aktuallığının daha da artmasını ifadə edir.

Bunlarla yanaşı, politoloji baxımdan ümummilli liderliyin aktuallığı kontekstində çox önəmi olan bir məqamı da burada qeyd etməyə ehtiyac görürük. Hazırda heç də politoloqların ümummilli liderliyə münasibəti eyni deyil. Hətta buna alternativ kimi əcayib bir ideya da irəli sürülüb: “hakimiyyətdə “təsadüfi adamlar”ın zamanı gələcəkmi?” və uyğun olaraq “siyasi lotoreya” anlayışını daxil edirlər [12, s.142-143]. Bu, faktiki olaraq hələ Qədim Yunanıstanda sınaqdan keçirilmiş “müqəddəs nizamsızlığın” siyasi sistemin arxitekturasına daxil edilməsi cəhdindən başqa bir şey deyildir. XXI əsrin reallıqları prizmasında bu yanaşmanın nə dərəcədə təhlükəli olduğu adi gözlə görünür. Çünki hazırda politoloqlar, siyasi liderlər, filosoflar, sosioloqlar və başqaları dünyanın xaosa, risklərə, qeyri-müəyyənliyə sürükləndiyindən narahatlıqla bəhs edirlər. “Siyasi lotereya” ideyası da bu tendensiyaya od atmış kimi görünür. Nizamsız dünyada dövlətlərin başına, parlamentlərə təsadüfi seçilmiş adamlar gələcəksə, başqa nə gözləmək olar?

Ümummilli liderliyi politoloji aspektdə daha da aktuallaşdıran başqa bir faktoru da vurğulamaq gərəkdir. Son illərin politoloji araşdırmalarına görə, artıq “qlobal dünya böhranlı dayanıqsızlıq mərhələsindədir”. Bu vəziyyəti obrazlı olaraq “siyasətin tufanlı dənizi” kimi də xarakterizə edirlər. Bu cür mənzərədə siyasi baxımdan sabit və dayanıqlı qalan “adacıq” isə müstəqil dövlətdir. Və müstəqil dövlət üçün “müasirlik və “ərazilik” faktorları aktual olaraq qalır. Bu iki anlayışı qarşılıqlı əlaqədə dərk etmək faydalı olardı. Belə ki, hazırkı tarixi mərhələdə real liderlik yerli, regional və qlobal miqyasda dəyişikliklərin böyük ölçüdə dövlət-cəmiyyət-region-dünya “zəncirində” tarixdə görünməmiş yeniliklər, risklər, qeyri-müəyyənliklər, təhdidlər meydana gətirdiyini mütləq surətdə nəzərə almalıdır [13, s.149].

Politoloji proqnozlar da vurğulanan tezisin doğruluğunu təsdiq edir. Müxtəlif siyasi-elmi və analitik dairələrin fikrinə görə, 2030-cu ildə bəşəriyyət keyfiyyətcə yeni səviyyəyə transfer edə bilər. Bu zaman bütün sahələr üzrə fərqli mənzərələr yarana bilər ki, onların həm öncədən görülməsi, həm də dövlət idarəetməsində nəzərə alınması arxiəhəmiyyətli işdir. Politoloqlar yazırlar: “2040-cı ilin başlanğıcında ...dərin geosiyasi dəyişiklər və qlobal sistemin ...təkamül dinamikasında kardinal yenilik”lər gözlənilir [14, s.17].

Bütün bunların fonunda bir tərəfdən ümummilli liderliyin siyasi-nəzəri tədqiqatının çox aktuallaşdığı, digər tərəfdən isə ayrıca XX əsrin sonu XXI əsrin əvvəllərini əhatə edən Azərbaycan təcrübəsinin öyrənilməsinin aktuallığı aydın görünür. Məsələnin bu aspekti üzərində geniş dayanaq.

## 2. Heydər Əliyev: müasir Azərbaycan dövlətçiliyi təcrübəsində yeni Ümummilli Liderlik modelinin banisi

Yuxarıda vurğulanan siyasi-nəzəri tezislərin prizmasında Azərbaycanda Ümummilli Liderliyin müasir mərhələdə siyasi təcrübə kimi dərk edilməsinə cəhd etmək olar. Azərbaycan nümunəsi yalnız postsovet məkanı üçün deyil, bütövlükdə dünya üçün böyük töhfələr verə bilər. Çünki Ulu Öndərin Ümummilli Liderlik nümunəsi yerli, regional və qlobal miqyaslarda XX əsrin sonu XXI əsrin əvvəllərində müşahidə edilən siyasi, geosiyasi, iqtisadi, mədəni, diplomatik, hərbi, təhlükəsizlik kimi istiqamətlərin mürəkkəb və ziddiyyətli dinamikası fonunda özünü göstərdi. Heydər Əliyev dünya miqyasında gedən prosesləri ciddi nəzərə alaraq milli siyasi kursu müəyyən etdi, onu daha da aktuallaşdırdı və eyni zamanda siyasi varisinə uğurla ötürə bildi. Bu faktorlar baxımından müasir mərhələdə Azərbaycanda Ümummilli Liderliyin bir sıra başlıca özəlliklərini siyasi-nəzəri kontekstdə vurğulamaq zəruridir.

XX əsrin 90-cı illərində Azərbaycanda Ümummilli Liderliyin siyasi xarakterli vacib özəlliklərindən biri Heydər Əliyevin dövlət başçısı (Prezident)-lider kontekstində fəaliyyətə başlamasıdır. Şərait elə gətirmişdi ki, Ulu Öndər bu iki mühüm idarəetmə keyfiyyətini öncədən sintez halında özündə ehtiva etməli idi. Uğurlu dövlət başçısı (ayrıca, Prezident) nümunəsi postsovet məkanında heç bir müstəqil dövlətdə yox idi. Heydər Əliyev Azərbaycan təcrübəsini nəzərə alaraq onu yaratmalı idi. Eyni zamanda həmin mərhələ üçün uğurlu milli lider nümunəsi də yox idi – onu da Heydər Əliyev yaratmalı idi. Bizim üçün çox önəmlidir ki, Azərbaycanın böyük şəxsiyyəti hər iki nümunəni yaradan yeganə dövlət xadimi oldu. İndi də aydın görünür ki, Heydər Əliyev səviyyəsində davamlı olaraq uğurlu dövlət başçısı-lider XXI əsrin əvvəllərinə qədər postsovet məkanında meydana gəlmədi.

Bu məqam həm də ona görə siyasi baxımdan çox qiymətlidir ki, keçən əsrin 90-cı illərində Azərbaycan qədər mürəkkəb, ziddiyyətli geosiyasi şəraitə salınan ikinci bir postsovet ölkəsi yox idi. Üstəlik, havadarların ciddi dəstəyi ilə Ermənistan davamlı olaraq təcavüz edir, Azərbaycan torpaqlarını işğal altına alırdı. Və buna BMT də daxil heç bir beynəlxalq təşkilat ciddi təpki göstərmirdi. Bununla Heydər Əliyevin dövlət başçısı-lider kimi qarşısında üç vacib vəzifəni eyni zamanda yerinə yetirmək dururdu: təcavüzkarlığı dayandırmaq (kənar hərbi müdaxiləyə son vermək, təhlükəsizliyi təmin etmək), ölkədə daxili sabitliyi təmin etmək (nizam-intizam, asayişin təmini) və

iqtisadiyyatı inkişaf relsinə çıxarmaq (güclü müstəqil dövlətin güclü iqtisadi bazasını yaratmaq).

Birinci vəzifə xilaskar liderliyi, ikinci vəzifə daxili birliyi və həmrəyliyi təmin edən birləşdirici liderliyi, üçüncü isə qurucu liderliyi tələb edirdi. Deməli, müstəqilliyin ilk illərində Heydər Əliyevin Ümummilli Lider obrazının formalaşmasında xilaskarlıq-birləşdiricilik – quruculuq keyfiyyətlərinin mükəmməl sintezi başlıca rol oynadı. Bu məqamlar siyasi təlimlərdə böhranlı mərhələlərdə xarizmatik liderin həlledici rol oynaması sayəsində ümummilli səviyyədə liderliyə yüksəlməsi kimi də xarakterizə olunur.

Aparılan analizdən aydın olur ki, Heydər Əliyevin Ümummilli Liderliyi müasir tarixi mərhələdə müstəqil, demokratik və güclü dövlət quruculuğu prosesindən kənarda təsəvvür edilə bilməz. Bu məqam Azərbaycan təcrübəsinin regional və dünya miqyasında olduqca böyük geosiyasi və siyasi əhəmiyyət kəsb etdiyini göstərir. Eyni zamanda politoloji aspektdə ümummilli liderliyin digər nümunələri ilə müqayisə etmək imkanı yaranır. Heydər Əliyevin Ümummilli Liderlik təcrübəsi qlobal miqyasda qiymətli politoloji, nəzəri və praktiki faktordur. Bu bağlılıqda akademik Ramiz Mehdiyevin aşağıdakı fikirləri maraqlıdır. R.Mehdiyev yazır: "Milli dövlət və milli lider müasir tarixin fenomenləridir… Azərbaycan xalqının ümummilli lideri həmin lider şəxsiyyətlərdən biridir... Heydər Əliyev ümummilli lider zirvəsində... müstəqil Azərbaycan dövlətini yaratmışdır və onun bütün sahələrdə sarsılmaz təməllərini müəyyən etmişdir" [15, s.7].

Politoloji araşdırmalar onu da aydınlaşdırır ki, Heydər Əliyevin Ümummilli Liderliyində Azərbaycanı faktiki olaraq çökməkdə və dağılmaqda olan ölkədən tarixi baxımdan qısa bir müddətdə güclü və demokratik dövlət olmağa istiqamətlənmiş dinamik məkana çevirmək xüsusi yer tutur. Bunun üçün Ulu Öndər siyasi, iqtisadi, ideoloji, diplomatik və mədəni sferalarda ciddi islahatlar kursu hazırlayıb həyata keçirməyə başladı.

Cəmiyyəti güclü, müasir və demokratik ruhlu Azərbaycançılıq ideologiyası xəttinə çıxardı, beynəlxalq əməkdaşlıq sahəsində strateji enerji kursu seçdi, milli təhlükəsizliyin bütün komponentləri arasında sıx əlaqə yaratdı, ordu quruculuğunu sistemli və ardıcıl davam edən vəziyyətə gətirdi, xarici siyasətdə bütün böyük dövlətlərlə bərabərhüquqlu və milli maraqların təmin olunmasına xidmət edən balanslaşdırma kursunu həyata keçirməyə başladı, beynəlxalq təşkilatlarda Azərbaycanın dövlət kimi məqsədlərini izah etdi.

Bütün bunlara görə akademik İsa Həbibbəylinin aşağıdakı fikrini Heydər Əliyevin Ümummilli Liderlik zirvəsinə ucalmasının lakonik ifadəsi kimi qəbul etmək olar. Akademik vurğulayıb: "...məhz Ulu Öndər Heydər Əliyevin çoxillik siyasi və dövlətçilik fəaliyyəti sayəsində Azərbaycanda dövlət rəhbərliyi Ümummilli Lider statusu qazanmışdır. Heydər Əliyev Azərbaycan

dövlətinin çoxəsrlik tarixində birinci Ümummilli Liderdir". Burada Heydər Əliyevin Ümummilli Liderliyinin başqa bir mühüm cəhətinin də tədqiqatçılar tərəfindən vurğulandığını demək lazımdır. Belə ki, Ulu Öndərin ümummilli liderliyi onun "milli dövlətçilik istedadının ardıcıl və məqsədyönlü fəaliyyətinin mühüm nəticəsidir" [16].

Və bu prosesin kökləri dərindir – hələ sovet dönəmində Ulu Öndər mübarizəsinə başlamışdı. Heydər Əliyev illər sonra, müstəqillik mərhələsində xatırlayırdı ki, 1954-cü ilin əvvəlində başladığı təmizləmə işlərinə 1955-ci ildə Mərkəz sərt reaksiya verdi, lakin Ulu Öndər öz inadından dönmədi, işlərini davam etdirdi [17, s.25].

SSRİ zamanında bu cür cəsarət və yüksək zəka nümayiş etdirmək çox çətin bir məsələ idi. Çünki sovetlərdə ideoloji nəzarət yüksək səviyyədə idi. Kreml istənilən milli davranışa sərt reaksiya verirdi. Lakin Heydər Əliyev Azərbaycan SSRİ-nin təhlükəsizlik xidmətinin rəhbəri, Mərkəzi Komitənin I Katibi olanda da seçdiyi yoldan zərrə qədər də kənara çıxmadı. Bütün imkanları ilə ardıcıl olaraq Azərbaycanın milli inkişafına xidmət etdi, onun nüfuzunu çox yüksəltdi.

Bu sırada tədqiqatçılar Ulu Öndərin səbirlə milli kadrlar hazırlamasını, Azərbaycan SSR-nin sosial, mədəni və iqtisadi infrastrukturlarını inkişaf etdirməsini, Azərbaycan dilini mərkəzin müqavimətlərinə baxmayaraq dövlət dili kimi Konstitusiyaya salmasını və başqa məqamları vurğulayırlar [18, s.106-118].

Deməli, Heydər Əliyevin Ümummilli Liderliyi əslində qeyri-rəsmi və qeyri-formal olaraq sovet dönəmindən başlamışdı. Xalq Azərbaycan SSR-nin rəhbərini daxilində Ümummilli Lideri kimi qəbul edirdi. Bu səbəbdəndir ki, müstəqillik illərində "Xalq-Heydər, Heydər-xalq" şüarı öz-özünə qısa zamanda çox məşhurlaşdı və kütləviləşdi!

Hesab edirik ki, vurğulanan məqam müstəqillik mərhələsində Ulu Öndərə siyasi varislik prinsipini mükəmməl şəkildə həyata keçirməyə siyasi, mənəvi və ideoloji əsas kimi təkan verdi. Hələ keçən əsrin 90-cı illərində Ulu Öndərin Yeni Lider yetişdirməklə bağlı tam formalaşmış, mükəmməl konsepsiyası mövcud idi. Bu, Ümummilli Liderin bir fikrindən aydın duyulur. Ulu Öndər demişdi: "Keçid dövrü yaşayan ölkələrə başçılıq etmək istəyən şəxslər gərək çox təcrübəli, dünyanı bilən adam olsun" [19, s.11]. Bütövlükdə cəmiyyət Heydər Əliyevin təqdimatında siyasi varisi tam qəbul etməyə psixoloji olaraq hazır idi. 2003-cü ildə Ulu Öndərin Azərbaycan xalqına məlum müraciətində İlham Əliyevə dəstək verməyə səsləməsi ümumxalq səviyyəsində tam dəstəkləndi və müstəqil Azərbaycan dövlətçiliyi bundan çox böyük faydalar görməkdədir.

Dünyanın müxtəlif politoloqlarının əsərlərindən, yuxarıda gətirdiyimiz nəzəri nümunələrdən aydın görünür ki, XXI əsr üçün yeni lider yetişdirmək

olduqca vacib problemə çevrilib; müstəqil dövlətlərin buna böyük ehtiyacı yaranıb. Hazırda layiqli və uğurlu lider yetişdirməyin formulunu tapmaq politologiya elmi üçün də əhəmiyyətlidir. Bu vəziyyətin fonunda Ulu Öndərin siyasi varislik əsasında çox böyük uğurla Yeni Lider – XXI əsrin uğurlu Liderini yetişdirməsi onun Ümummilli Liderliyinin strateji baxımdan ən əhəmiyyətli məqamını təşkil edir. Bu barədə professor İlham Məmmədzadə aşağıdakı fikrində tam haqlıdır. O, yazır: "İlham Əliyev ...dünyanın ...bildiyi, tanıdığı milli liderdir" [20].

Bütün bunlar Ümummilli Liderliyin Heydər Əliyev modelinin (yuxarıdakı analiz əsasında biz bu tezisi qətiyyətlə irəli sürə bilərik) dünya miqyasında siyasi-nəzəri və digər liderlər üçün praktiki-diplomatik əhəmiyyət kəsb etdiyini göstərir. Onun səbəbləri faktiki olaraq bu məqalədə apardığımız siyasi analizdən görünə bilər. Biz yenə də onlar üzərində bir qədər geniş dayanmağı lazım bilirik.

Hər şeydən öncə Heydər Əliyev postsovet məkanında yeganə liderdir ki, hələ sovet dövründə yalnız rəhbər kimi deyil, lider kimi də ümumxalq miqyasında fəaliyyət göstərir və konkret nəticələr alırdı. Bu zaman Heydər Əliyev iki əks məqamı, ziddiyyəti ortaq "məxrəcə gətirə" bilmişdi – daim öz daxilində daşıdığı millilik, milli dövlətçilik ənənəsi prinsipləri və tarixi-mədəni kimliyə dərin hörmət ilə sovet ideologiyasının anti-milli ruhu, rəsmi vəzifənin tələb etdiyi ideoloji çərçivəni qeyri-rəsmi uyğunlaşdıra bilirdi. SSRİ dağılandan sonrakı təcrübə göstərdi ki, Heydər Əliyevdən başqa bunu bacaran ikinci bir Respublika rəhbəri olmayıb (Rusiya da bura daxildir). Çünki İttifaq Respublikalarının heç biri müstəqil dövlət quruculuğunda tam olaraq uğurlu ola bilmədi – müəyyən müddətdən sonra onların hazırladıqları konsepsiya çökdü. Son olaraq Nursultan Nazarbayev bu taleni yaşadı.

Heydər Əliyevin sovet dönəmindən başladığı toplum (millət) miqyasında liderlik formulu nəinki sınaqlardan çıxdı, hətta indi dünya miqyasında ən uğurlu nümunələr sırasındadır.

Buradan belə siyasi qənaət əldə edə bilərik ki, Heydər Əliyevin Ümummilli Liderliyi həmişəyaşardır, daim faydalı olacaqdır və real olaraq uğurlu və modern dövrün tələblərinə cavab verən siyasi varisliyi təmin edəcəkdir! Yeri gəlmişkən, Qərbin yüksək inkişaf etmiş dövlətləri üçün belə uğurlu və modern siyasi varislik nəzəri və praktiki həllini gözləyən məsələ kimi qalmaqdadır!

Digər məqam ondan ibarətdir ki, müstəqillik mərhələsində Heydər Əliyevin Ümummilli Liderliyi misli görünməmiş yerli, regional və qlobal böhranların üst-üstə düşməsi şəraitində başladı. Burada eyni zamanda bir neçə həyati əhəmiyyətli vəzifəni yerinə yetirmək lazım idi: daxildə sabitliyə nail olunmalı, iqtisadi inkişafın düzgün işlək modeli hazırlanmalı, siyasi mühit sağlamlaşdırılmalı və müasir ideoloji sistem hazırlanmalı, xarici təcavüz

durdurulmalı, seçkilərdə demokratik prinsiplər oturuşmalı, xarici siyasətdə qonşu böyük dövlətlərlə münasibətləri bərabərhüquqlu konstruktiv müstəviyə keçirmək gərəkdi, beynəlxalq təşkilatlarda Azərbaycan dövlətinin başlıca məqsədlərini anlatmaq lazım idi, beynəlxalq əməkdaşlığın əsasını qoyub, sonra regionda onun başlıca təşəbbüskarına çevrilmək gərək idi.

Heydər Əliyev tarixi baxımdan çox qısa müddətdə bütün bu vəzifələrin öhdəsindən yüksək səviyyədə gəldi. Artıq 1995-ci ilə ölkədə sabitlik mövcud idi. Güclü iqtisadi sistem formalaşırdı, mühüm beynəlxalq əməkdaşlıq sazişi imzalanmışdı ("Əsrin Müqaviləsi"). Siyasi mühitdən radikallıq elementi götürülmüşdü (bunu sonrakı seçkilər tam təsdiq etdi). Qonşu dövlətlərlə münasibət bərabərhüquqlu tərəfdaşlıq müstəvisinə keçmişdi. Azərbaycan dövlətinin əsl məqsədlərini Ulu Öndər BMT-nin yüksək tribunasından iki dəfə dünyaya bəyan etmişdi.

Bütün bunların fonunda Ümummilli Liderlikdə vacib rol oynayan ordu quruculuğu, müdafiə qüdrətinin artırılması və təcavüzkar Ermənistanın durdurulması prosesi də vüsət almışdı. Heydər Əliyev düşməni atəşkəs imzalamağa məcbur etdi. Ermənistanın bütün istiqamətdə hücumlarının qarşısı alındı, bir sıra yerlərdə geri atıldı. Rəsmi İrəvan və havadarları anladılar ki, artıq bir qarış da Azərbaycan torpağını işğal edə bilməyəcəklər. Bu, ilk və mühüm qələbə idi. Həm də ona görə ki, Azərbaycan xalqı Heydər Əliyevin bu siyasətini tam dəstəklədi, ona real Ümummilli Lider kimi qiymət verdi və ardınca getdi.

Nəhayət, Heydər Əliyevin Ümummilli Liderlik modelində böyük strateq keyfiyyəti mühüm yer tutur. Çünki Heydər Əliyev fəaliyyətində yalnız qarşıda duran cari məsələləri deyil, eyni zamanda gələcək vəzifələri də dəqiq müəyyənləşdirdi. Onları gördü və dəqiq proqnozları ilə düzgün qərarlar qəbul etdi. Bura idarəetmə sistemini (Prezident İnstitutu) təkmilləşdirməklə yanaşı, daxili və xarici siyasətin əsas istiqamətləri daxildir. Təsadüfi deyildi ki, Vitse-Prezidentlik İnstitutu postsovet məkanında ancaq Azərbaycanda uğurla tətbiq edilməkdədir. Bu, Heydər Əliyevin əsasını qoyduğu idarəçilik sisteminin yüksək potensialının və səmərəsinin nəticəsidir.

Beləliklə, Heydər Əliyev Ümummilli Lider kimi yerli, regional və qlobal əhəmiyyəti olan bir nümunədir. O nümunənin ümumi əlamətləri haqqında yuxarıda analiz apardıq. İndi onu vurğulayaq ki, Heydər Əliyevin Ümummilli liderlik nümunəsi Prezident İlham Əliyevin bütün istiqamətlərdə son dərəcə uğurlu və demokratik fəaliyyət göstərməsi üçün böyük təkan verir. İndi İlham Əliyev dünya miqyasında tanınan, qəbul edilən, XXI əsrin liderlik kriteriyalarına görə Yeni Lider kimi qiymətləndirilən Milli Lider obrazına malikdir! Azərbaycan XXI əsrdə də Ulu Öndər Heydər Əliyevin siyasi xəttini davam etdirərək XXI əsrdə yerli, regional və qlobal miqyaslarda böyük uğurlar əldə edən Yeni Ümummilli Liderini yetişdirməkdədir.

Vurğulanan tezislərdən bir neçə siyasi nəticələr çıxara bilərik.

Birincisi, Heydər Əliyev Azərbaycan təcrübəsi ilə müasir dövrün tələblərini səmərəli şəkildə ehtiva edən Ümummilli Liderdir.

İkincisi, Heydər Əliyevin Ümummilli Liderliyi sovet dönəmindəki fəaliyyətindən başlayır. Bu mənada Ulu Öndərin Ümummilli Liderliyi dərin tarixi-siyasi və mədəni köklərə malikdir.

Üçüncüsü, Heydər Əliyevin Ümummilli Liderliyi çox mürəkkəb bir geosiyasi, geoiqtisadi, geomədəni və hərbi şərtlər daxilində cəmiyyəti və sosial-siyasi sistemi dərindən dəyişməklə xarakterizə olunur. Konkret desək, Qərb siyasi təlimlərində hazır sosial-strukturda və sabitlik şəraitində cəmiyyəti kökündən yeniləşdirməyi ümummilli liderliklə əlaqələndirməsi fonunda Azərbaycan nümunəsi daha parlaq model təsiri bağışlayır.

Dördüncüsü, Heydər Əliyevin Ümummilli Lider kimi fəaliyyətində olduqca vacib məqamı siyasi varislik prinsipi əsasında yeni uğurlu və layiqli Lider yetişdirə bilməsi xüsusiyyəti tutur. Bu məqam Heydər Əliyevin Ümummilli Liderliyinin Azərbaycan və dünya üçün həmişə aktual olacağı nəticəsini də çıxarmağa əsas verir!

## ƏDƏBİYYAT

1. *Блондель Ж.* Политическое лидерство: путь к всеобъемлющему анализу М.: Российская академия управления, 1992, 135 с.
2. *Burns J.M.* Presidential Government: The Crucible of Leadership, New York: Avon, 1967, 392 p.
3. *Paige G.D.* Nonkilling Global Political Science // G. D. Paige. Nonkilling Global Political Science. Honolulu, Hawai‘i (US): Center for Global Nonkilling, 2009, 187 p.
4. *Браун А.* Типы лидеров. Определить, найти подход, добиться своего. М.: Бомбора, 2019, 730 с.
5. *Kellerman B.* Professionalizing Leadership // B.Kellerman. Professionalizing Leadership. Boston: Tantor Media, Inc. Boston, MA Safari, 2018, 369 p.
6. *Kellerman B.* The Enablers: how Team Trump Flunked the Pandemic and Failed America // B.Kellerman. The Enablers: how Team Trump Flunked the Pandemic and Failed America. Cambridge: Cambridge University Press, 2021, 319 p.
7. *Hermann M.* Leaders, Leadership, and Flexibility: Influences on Heads of Government as Negotiators and Mediators // The ANNALS The American Academy of Political and Social Science. 1995, v. 542, №1, pp.148-167
8. *Hermann M., Page C.* Leadership and Behavior in Humanitarian and Development Transnational Non-Governmental Organizations // Politics and Governance, 2016, v. 4, № 2, pp.127-137
9. *Neck C.P., Manz C.C.* Thought self-leadership: the impact of self-talk and mental imagery on performance // Journal of Organizational Behavior, 1992, v. 12, pp.681-699

10. *Sirkwoo J.* Leading employee creativity: the relationship between leadership styles and employee creativity // Review of General Management, 2015, v. 21, №1, pp.17-28
11. *Zhang X., Bartol K.M.* Employee Creativity: The Influence of Psychological Empowerment, Intrinsic Motivation, and Creative Process Engagement iaomeng and athryn [Electronic resource] // New York, Academy of Management Journal. 2017.30.11., v.53, No 1 / URL: https:// journals.aom.org/doi/10.5465/amj.2010. 48037118. Müraciət tarixi 05.03.2022
12. *Алексеева Т.А., Лошкарёв И.Д., Пареньков Д.А.* Придет ли время "случайных людей" во власти? // Полис. Политические исследования, Москва, 2018, № 6, с.142-154
13. *Лапкин В.В.* Государство во временах и пространствах: многообразие и изменчивость // Журнал "Полис. Политические исследования. Москва, 2020, №6, с.148-162
14. *Лапкин В.В., Пантин В.И.* Историческая динамика международной рыночной системы: циклы лидерства, геополитическая экспансия и перспективы трансформации мирового порядка. История и современность, 2019, № 1, с.17-61
15. Heydər Əliyev mənim həyatımda: 2 cilddə, I c. Məsləhətçi və ön sözün müəllifi: Ramiz Mehdiyev. Bakı: Azərbaycan, 2013, 396 s.
16. *Həbibbəyli İ.* Ümummilli liderlik: miqyası və missiyası/ "Azərbaycan" qəz., 12 dekabr 2019-cu il / URL: http://imbb.az/az/news/ 431. Müraciət tarixi 05.03.2022
17. *Hüseynova İ.* Müstəqil Azərbaycan dövlətinin qurucusu. Bakı: Təhsil, 2004, 472 s.
18. *Qurbanov F., Mədətli E.* Bir millət – iki dövlət: fəlsəfi-tarixi təhlil. Bakı: Elm və təhsil, 2020, 232 s.
19. *Heydər Ə.* Müstəqillik yolu: seçilmiş fikirlər. Bakı: Azərbaycan Universiteti, 1997, 136 s.
20. *Məmmədzadə İ.* Azərbaycanın liderlik strategiyası // "Xalq qəz.", Bakı, 2019, 25 dekabr


Redaksiyaya daxil olub 15.12.2021

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №1, s. 49-56
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №1, pp. 49-56

*UOT 94 (479.24)*

***N.D.Bağırova***
*AMEA Milli Azərbaycan Tarixi Muzeyi*
*nbaqirova@mail.ru*

# MİLLİ AZƏRBAYCAN TARİXİ MUZEYİNİN KOLLEKSİYASINDA İLK AZƏRBAYCANLI HƏKİM-PSİXİATR, İCTİMAİ XADİM İBRAHİM RƏHİMOVUN MATERİALLARINA DAİR

***Açar sözlər:*** *İbrahim Rəhimov, psixiatr, Yena Universiteti, Xarkov, "Saburov bağı"*

Məqalədə Milli Azərbaycan Tarixi Muzeyinin kolleksiyası əsasında ilk azərbaycanlı həkim-psixiatr, ictimai xadim İbrahim Rəhimovdan bəhs olunur. 1867-ci ildə İ.Rəhimov Tiflis gimnaziyasını bitirdikdən sonra Moskva Universitetinə göndərilir. Qəbul imtahanlarını uğurla verən İ.Rəhimov tibb fakültəsinə qəbul olunur, lakin bir müddət sonra burada siyası məsələlərə cəlb olunduğuna görə təhsilini yarımçıq qoymaq məcburiyyətində qalır. Daha sonralar o, Xarkova gedərək orada Sevastopol dəmir yolu xəttində feldşer işləmişdir.

1875-ci ildə İ.Rəhimov Vyanaya gedərək Vyana Universitetinin Tibb fakültəsinə daxil olur, lakin Vyanadakı bahalıq və maddi təminatsızlıq onu təhsilini davam etdirmək üçün kiçik universitet şəhəri olan Yenaya (Almaniya) köçməyə vadar edir. Tibb təhsilini başa vuran İ.Rəhimov Xarkova qayıdır. 1891-ci ildə İ.Rəhimov Xarkovda "Saburov bağı" adı ilə məşhur olan yerli xəstəxanada ordinator işləməyə başladı. 34 il boyunca Kəskin ruhi xəstəliklər şöbəsinin müdiri vəzifəsində çalışdı. İş yoldaşlarının dediklərinə görə, İ.Rəhimov olduqca geniş elmi zəkaya, böyük həkimlik təcrübəsinə malik idi. O, bir neçə gənc psixiatr nəslini yetişdirmiş, çoxsaylı məhkəmə təbabəti komissiyalarında ekspert kimi iştirak etmişdir.

***Н.Д.Багирова***

# МАТЕРИАЛЫ ПЕРВОГО АЗЕРБАЙДЖАНЦА ВРАЧА ПСИХИАТОРА И ОБЩЕСТВЕННОГО ДЕЯТЕЛЯ ИБРАГИМА РАХИМОВА В КОЛЛЕКЦИИ НАЦИОНАЛЬНОГО МУЗЕЯ ИСТОРИИ АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *Ибрагим Рахимов, психиатр, Йенский университет, Харьков, "Сабурова дача"*

В статье повествуется о первом азербайджанце враче-психиатре, общественном деятеле Ибрагиме Рахимове. По окончании в 1867 году Тифлисской гимназии И.Рахимов был направлен на учебу в Московский университет. Успешно сдавший вступительные экзамены И.Рахимов был зачислен на медицинский факультет, но впоследствии был вынужден

прервать образование, поскольку был вовлечен в политическую борьбу. Затем он отправился в Харьков, где работал фельдшером на Севастопольской дистанции железной дороги.

В 1875 году он едет в Вену и поступает в местный университет, но дороговизна в Вене и материальная необеспеченность вынуждают его для продолжения обучения перебраться в небольшой университетский город Йена (Германия). По завершении медицинского образования И.Рахимов возвращается в Харьков. Здесь он в 1891 году начинает работать ординатором в местной клинике, известной как «дача Сабурова». В течении тридцати четырех лет он возглавлял кафедру острых психических заболеваний. По утверждению коллег И.Рахимов обладал широкими научными познаниями и большим врачебным опытом. Он воспитал несколько поколений молодых психиатров, часто участвовал в комиссиях судебной медицины в качестве эксперта.

***N.D.Baghirova***

## MATERIALS OF THE FIRST AZERBAIJANIAN DOCTOR PSYCHIATOR AND PUBLIC FIGURE IBRAGIM RAKHIMOV IN THE COLLECTION NATIONAL MUSEUM OF HISTORY OF AZERBAIJAN

***Keywords:*** *Ibrahim Rahimov, psychiatrist, Jena University, Kharkov, Saburov's house*

The article tells about the first Azerbaijani psychiatrist, public figure Ibrahim Rakhimov. After graduating from the Tiflis gymnasium in 1867, I. Rakhimov was sent to study at Moscow University. Having successfully passed the entrance exams, I. Rakhimov was enrolled in the Faculty of Medicine, but was subsequently forced to interrupt his education, as he became involved in the political struggle. Then he went to Kharkov, where he worked as a paramedic on the Sevastopol distance of the railway.

In 1875, he went to Vienna and entered the local university, but the high cost of living in Vienna and material insecurity forced him to move to the small German university city of Jena to continue his studies. Upon completion of medical education, I. Rakhimov returns to Kharkov. Here, in 1891, he began working as an intern at a local clinic known as "Saburov's house". For thirty-four years he headed the department of acute mental illness. According to his colleagues, I. Rakhimov had broad scientific knowledge and extensive medical experience. He brought up several generations of young psychiatrists, often participated in the commissions of forensic medicine as an expert.

Azərbaycanın tibb tarixi qədim zamanlardan başlayır. Lakin elmi təbabətin yaradılması və inkişaf etdirilməsi istiqamətində ilk addımlar XIX əsrin II yarısında atılmışdır. Tibb elminin inkişafının ilk sələfləri olaraq Həsən bəy Zərdabini, Nəcəf bəy Vəzirovu, Əli bəy Hüseynzadəni, Bəhram

bəy Axundovu, Abbas Səhhət Mehdizadəni və b. göstərmək olar. Azərbaycanda tibb elminin ilk inkişaf mərhələləri Rusiyanın və digər ölkələrin müxtəlif universitetlərində təhsil almış ilk azərbaycanlı həkimlərin sayəsində mümkün olmuşdur. Belə mütəxəssislərdən biri Aleksey Nikolayeviç Kazımbəydir. Qeyd etmək lazımdır ki, o məşhur şərqşünas alim Mirzə Kazım bəyin qardaşı oğludur. A.Kazımbəy 1887-ci ildə «Ürəyin innervasiyasına dair materiallar» mövzusunda dissertasiya müdafiə edərək doktorluq dərəcəsini almış, onun həmçinin terapiya elminin inkişafında, difteriyaya qarşı mübarizədə böyük xidmətləri olub (3, s.64-66).

XX əsrin əvvəllərində Azərbaycanlı gənclərin çox az hissəsi Rusiyada və digər xarici ölkələrdə təhsil ala bilirdi. X.Rəfibəyov, M.Axundov, M.Sultanov, M.Mirqasımov, S.Ağamirzəyev və başqaları xaricdə tibb təhsili alaraq vətənə xidmət etmək şərəfinə nail olmuşlar.

XIX əsrin ortalarında Azərbaycanda bütün həkimləri, tibb bacılarını və feldşerləri birləşdirən dövlət səhiyyə sistemi fəaliyyət göstərirdi. XIX əsrin sonu XX əsrdə Azərbaycanın vilayət və iri qəza mərkəzlərində xəstəxanalar açılmışdı.

Rusiya ali məktəblərində qafqazlıların təhsil alması yalnız bu diyarda orta təhsil sisteminin inkişafından sonra mümkün oldu. Qafqazın ali məktəblərə göndərilmiş ilk yetirmələri ölkədə yeganə olan Tiflis gimnaziyasının məzunları idi. Başqa gimnaziyaların məzunları olan Azərbaycanlılar Qafqaz Tədris Dairəsi tərəfindən Peterburqa, Moskva, Kiyev, Novorossiysk, Xarkov universitetlərinin tibb fakültələrinə göndərilirdilər (4, s.168).

XX əsrin başlanğıcında Azərbaycanlı həkimlərin böyük hissəsini Kiyev və Xarkov universitetləri hazırlayıb. XX əsrin əvvəllərinədək yalnız iki Azərbaycanlı xarici dövlətdə ali tibb təhsili alıb. Onlardan biri XX əsr Azərbaycan-türk ictimai fikrinin ən görkəmli nümayəndələrindən biri Əli bəy Hüseynzadə, digəri isə ilk Azərbaycanlı həkim-psixiatr, ictimai xadim İbrahim Rəhimov olmuşdur.

XX əsrin əvvəlində Azərbaycanlı qadınlar da tibb təhsili almağa başladılar. Sonralar məşhur oftalmoloq alim kimi tanınan, 1908-ci ildə Peterburq Qadın Tibb İnstitutunu bitirmiş Sona xanım Vəlixan onlardan birincisidir. Qeyd etmək lazımdır ki, ilk Azərbaycanlı həkim-psixiatr İ.Rəhimovun qızı olan Sona xanım Vəlixanın tibb elminə olan marağı, onu atasının yolunu davam etdirməyə yönəltdi, ancaq psixiatriya üzrə yox, oftalmologiya üzrə. Həkim ata həkim alimə xas ən müqəddəs xüsusiyyətləri qızına aşılamağı özünə borc bilir və buna nail olur.

Ölkəmizin ən iri elmi və mədəni ocaqlarından biri olan Milli Azərbaycan Tarixi Muzeyinin zəngin fondlarında tibb və onun inkişafına böyük töhfələr vermiş şəxslərə aid materialların toplanması və oxuculara

təqdim olunması Muzey fəaliyyətinin ən önəmli sahələrindəndir. Burada çox əhatəli səhiyyə tarixinin bir çox cəhəti əksini tapır, bu da tədqiqatçıların diqqətini cəlb etməklə yeni-yeni araşdırmalara yol açır. Muzeyin Sənədli Mənbələr fondunda İbrahim Rəhimovun materialları qorunmaqdadır.

Belə ki, XIX əsrin 60-cı illərinədək rus məktəblərində oxuyan Azərbaycanlıların sayı çox az idi, buna görə də Rusiyanın müxtəlif ali məktəblərinin tələbələrinin siyahısında Azərbaycan soyadlarına tək-tük rast gəlinir. İldən-ilə gimnaziya təhsilli Azərbaycanlıların sayı artdı və bununla yanaşı, Rusiyaya oxumağa göndərilən Azərbaycanlıların faizi də yüksəldi. Arxiv sənədlərindən məlum olmuşdur ki, Azərbaycanlılar arasında ilk tam ali tibb təhsilli həkimlərdən biri İbrahim Rəhimov olmuşdur. İ.Rəhimovun şəxsiyyəti onun Rusiyada XIX əsrin 60-cı illərində inqilabi hərəkatda iştirakı ilə bağlı da müəyyən maraq doğurur (4, s.250).

İ.Rəhimov 1849-cu ildə Tiflis gimnaziyasının türk dili (Azərbaycan dili) və şəriət müəllimi ailəsində doğulub. Onun atası Rəhim Süleyman oğlu Gəncə qəzasının Dağkəsəmən kəndinin dövlət kəndlilərindən idi. O, şərq dillərini və şəriəti mənimsəyərək mollalıq etmişdir.

1850-ci ildə Tiflis Klassik Gimnaziyasında müəllim kimi fəaliyyətini davam etdirən Molla Rəhim ailəsini Tiflisə köçürür və oğlunun tərbiyəsi ilə özü məşğul olur, əvvəlcə ona "Qurani-Kərim"i və doğma dilini öyrədir, 1858-ci ildə isə İbrahimi dərs dediyi gimnaziyanın hazırlıq kursuna göndərir. Ciddi gimnaziya qaydaları ilə tərbiyə alan İ.Rəhimov artıq birinci sinifdə rus dilini mükəmməl bilirdi. O, dərslərini yaxşı oxuyur, öyrədilən proqramı asanlıqla qavrayırdı, onun soyadı əlaçı gimnazistlərin siyahısında idi.

1867-ci ildə Tiflis quberniyası gimnaziyasının direktoruna ünvanlanan müraciəti diqqətsiz qalmır. Təhsildə qazandığı müvəffəqiyyətlərin, dünyəvi elmlərə həvəsini, xüsusi əqli inkişafa malik olmasını nəzərə alan Tiflis Klassik Gimnaziyasının Pedaqoji Şurası 1867-ci il iyunun 19-da keçirilən növbəti iclasında İ.Rəhimova Moskva Universitetində oxumaq üçün zəmanət verir.

Əla qiymətlərlə gimnaziyanı bitirən İ.Rəhimov həmin il Moskvaya gəlir, qəbul imtahanlarını müvəffəqiyyətlə verib, nə üçünsə universitetin Tibb fakültəsinə deyil, Fizika-riyaziyyat fakültəsinə qəbul olunur. Tiflisdən Moskvaya həkim olmaq arzusu ilə gedən İbrahimin ciddi səyi nəticəsində onu Tibb fakültəsinə keçirirlər. Gənc İbrahimi alim-zooloq və görkəmli ictimai xadim A.P.Boqdanov, histofizioloq və bakterioloqların Moskva məktəbinin yaradıcısı A.İ.Babuxin, görkəmli terapevt Q.A.Zaxarin, istedadlı nevropatoloq A.J.Kojevnikov və başqalarından tibb elminin sirlərini öyrənir. Təkcə onu qeyd etmək kifayətdir ki, universitetdə təhsil aldığı müddətdə botanika və fizika fənləri istisna olmaqla bütün fənlərdən əla qiymət almışdı. Uşaqlıqdan zəhmətsevən və qənaətcil olan İbrahim maddi cəhətdən özünü

təmin etmək üçün Moskva gimnazistlərinə rus dilindən xüsusi dərslər də verirdi (1).

İ.Rəhimovun Moskvaya köçməsi və təhsilinin ilk illəri paytaxt gənclərinin inqilabi əhval-ruhiyyəsinin oyanışı, onların siyasi çıxışları baş verən bir vaxta təsadüf etmişdi. Bu təsadüf İbrahimin həyatından izsiz keçmir. Tələbə İbrahim S.Q.Neçayevin "Народная расправа" adlanan qeyri-leqal təşkilatına qəbul edilməmişdən öncə ilk həyat imtahanından – inqilabi sınaqdan çıxır. 1869-cu ilin oktyabr ayında məşhur "Полунинская история" hərəkatında fəal iştirak etdiklərinə görə universitetdən qovulan tələbələr sırasında İbrahim də vardı (1). Kütləvi axtarışlar və həbslər zamanı üçüncü kurs tələbəsi İ.Rəhimovdan "neçayevçi" qrupdan olan yoldaşlarının ona saxlamağa verdiyi mətbəət şriftləri tapılmışdı. İ.Rəhimov universitetdən çıxarılmış və həbs edilmişdi. Başqa dustaqlarla birgə o, Peterburqa göndərilmiş və Petropavlov qalasına salınmışdı. İ.Rəhimov qalanın müxtəlif kameralarında 11 may 1870-ci ildən 1 oktyabr 1871-ci ilədək oturdu. O, məhbusluq dönəmini ləyaqətlə keçirdi. Dindirmələrdən sonrakı boş vaxtlarında alman dilini öyrəndi və bu, sonralar onun xeyli əlindən tutdu (4, s.252)

İ.R.Rəhimov həddi-buluğa çatmamış gənc kimi Peterburqdakı Litva qalasında üç həftəlik dustaqlığa, Moskva və Peterburqa girmək icazəsi olmadan 5 illik açıq polis nəzarətinə məhkum edildi.

Zindandan çıxan İ.Rəhimov Xarkovda yerləşməyi qərara aldı ki, universitet təhsilini davam edə bilsin. Xarkovda iş tapa bilmədi və çəkilməkdə olan Xarkov-Sevastopol dəmiryolu xəttində feldşer işləməyə məcbur oldu. O, bir müddət dəmiryolunun Melitopol sahəsində yaşadı.

Rusiyada ali təhsilini davam etdirə bilməyəcəyinə bir daha əmin olan İ.Rəhimov 1875-ci ildə Vyanaya gedərək Vyana Universitetinin Tibb fakültəsinə qəbul olundu. Vyanadakı bahalıq və onun maddi baxımdan təminatsızlığı onu təhsilini davam etdirmək üçün kiçik universitet şəhəri olan Yenaya (Almaniya) köçməyə məcbur etdi. Tibb təhsilini başa vuran İ.Rəhimov Xarkova döndü. Onun siyasi əhval-ruhiyyəsini Rusiya-Avstriya sərhəddindəki bir hadisə səciyyələndirir. Çar sərhədçiləri gənc həkimin çamadanından K.Marksın "Kapital" əsərini tapdılar. Kitab dərhal müsadirə olundu. Rəhimovun üzərində polis nəzarəti o, xaricdən qayıdandan sonra da bərpa edildi və 1917-ci ildəki fevral inqilabınadək davam etdi. İ.Rəhimova Qafqazda yaşamağa icazə verilmədi və o, Xarkovda yurd saldı (4, s.252).

Doğma diyarına getmək üçün hər dəfə jandarmeriyadan icazə alması tələb olunurdu.1881-ci ildə həkim işləmək hüququ almaqdan ötrü o, Xarkov Universitetində həkim rütbəsinə imtahanlar verdi. İ.Rəhimov fiziologiya sahəsində elmi araşdırmalarla məşğul olmağa can atırdı. Bu sahədə ilk addımlarını Tibb fakültəsinin Məhkəmə təbabəti kafedrasında atdı.

Muzeyin Sənədli Mənbələr Fondunun kolleksiyasında İ.Rəhimovun materialları qorunur. Burada onun Xarkov Universitetinin farmakoloji laboratoriyasında iş yoldaşları ilə çəkdirdiyi fotoya rast gəlmək olar (2).



***Xarkov Universitetinin Farmakoloji laboratoriyasının bir qrup əməkdaşı. Solda, ayaq üstə İ.Rəhimov. Xarkov, 1888-1889***

İ.R.Rəhimov tibb doktoru dərəcəsi almaq üçün uğurla imtahan verdi, ancaq dissertasiyanı təqdim edə bilmədi. Onun elmi mənsəbi polisin müdaxiləsi ilə yarımçıq qaldı – siyasi baxımdan səbatsız sayılan doktorant (özü də qeyri-rus) 1888-ci ildə "öz xahişinə əsasən" universitetdən çıxarıldı. (4, s.253)

Fondun kolleksiyasında həmçinin İ.Rəhimovun 1908-ci il Xarkovda həkimlik fəaliyyəti göstərdiyi illərdə çəkdirdiyi foto mövcuddur (2).



***İbrahim Rəhimov. Xarkov, 1908***

1891-ci ildə İ.Rəhimov Xarkov quberniyasında "Saburov bağı" adı ilə məşhur yerli xəstəxanada ordinator işləməyə başladı. 34 il boyunca

Kəskin ruhi xəstəliklər şöbəsinin müdiri vəzifəsində çalışdı, müvəqqəti olaraq bəzən baş həkimi də əvəz etdi (4, s.253).

17 iyul 1916-cı ildə İbrahim Rəhimovun 25 illik həkimlik və ictimai fəaliyyəti "Saburov bağı"nda qeyd olundu. Yubilyarın ünvanına görkəmli alimlərdən, dostlarından və iş yoldaşlarından çoxlu təbriklər gəldi (1). Əməkdaşların dediklərinə görə, İ.Rəhimov olduqca geniş elmi zəkaya, böyük həkimlik təcrübəsinə malik idi. O, gənc psixiatr mütəxəssislərin bir neçə nəslini tərbiyə edib.

40 ildən artıq bir vaxtda Xarkov quberniyasının Zemskaya xəstəxanasında vicdanla çalışan İ.Rəhimov səhhəti ilə bağlı əlaqədar təqaüdə çıxanda 1925-ci ildə xəstəxananın həkimləri Xarkov quberniya icra komitəsinə müraciət etmişlər ki, ona Əməkdar əmək veteranı kimi fərdi təqaüd təyin edilsin və xəstəxananın Fəxri konsultantı adı ilə təltif olunsun.

1925-ci ildə İ.Rəhimov ağır xəstə ikən qızı Sona xanımın yanına gəlir, 2 il sonra onu doğma kəndi Dağkəsəmənə aparırlar. 1927-ci il aprelin 3-də İ.Rəhimov canından artıq sevdiyi, ömür boyu həsrət qaldığı, yalnız son nəfəsində qovuşduğu doğma Azərbaycana vida deyərək gözlərini əbədi yumur.

Sənədli Mənbələr Fondunun materialları arasında Xarkov quberniyasının Zemskaya xəstəxanasının əməkdaşları tərəfindən İ.Rəhimova həkimlik fəaliyyətinin 25 illiyi ilə əlaqədar təqdim olunmuş təbrik ünvanına rast gəlmək olar (2). Həmin sənəddə bu müalicə müəssisəsinin işçiləri İ.Rəhimovun həkimlik fəaliyyətinə nəzər salaraq yazırlar:

*Əziz İbrahim Rəhimoviç!*

*"Siz sırf elmi fəaliyyət ilə məşğul olan Universitetə xilaf çıxıb, onu Xarkov quberniyasının Zemskaya xəstəxanasına dəyişdiyinizdən artıq 25 il ötür. Burada siz uğurla, bədbəxt ruhi xəstələrə xidmət göstərmək kimi əziyyətli və məsuliyyətli iş görürsünüz. Siz "Saburov bağı"na Avropa təhsilinizi və elmi-tibbi ədəbiyyata yiyələnmək həvəsini gətirmisiniz... Siz bizim xəstəxananın fəxri və tibb işçilərinin bəzəyisiniz. Sizin təhsiliniz və elmi çalışmalarınız sizə tibb doktoru elmi dərəcəsini almaq hüququnu çoxdan vermişdir. Siz aramızda ən təvazökar və ən əzmkar əməkdaş olduğunuz üçün yəqin ki, hazırda utanıb qızarırsınız.*

*Siz əməkdaşlarımız arasında həsəd aparılası ad-san, xəstələrinizin və tabeliyinizdə olan personalın hörmətini qazanmısınız.*

*Bu əlamətdar gündə biz müharibənin top gurultusunu və mənasız qurbanlarını unudub sıx xəstəxana ailəmizdə sizi və sizin simanızda bizim həkim zümrəmizin ən yaxşı ənənələrini salamlayırıq.*

*Sizə bizim Xarkov quberniyası Zemskaya xəstəxanasında daha uzun illər səmərəli çalışmağınız üçün möhkəm qüvvə və can sağlığı arzulayırıq"*

Bir neçə nüsxədə olan həmin təbrik ünvanlarının üzərində İ.Rəhimovun elmi-praktiki fəaliyyətini, xüsusilə onun vaxtaşırı keçirdiyi maraqlı, canlı konfransları yüksək qiymətləndirən professorlar V.P.Protopopovun, N.F.Melnikov-Razvedenkovun, A.M.Şerşevskinin xatirə yazılarını da görmək olar.

Klinik Psixiatriya İnstitutunun (keçmiş "Saburov bağı" belə adlanmağa başlamışdı) direktoru, prof. V.Protopopov və ordinator M.Alekseyevin "Vraçebnoye delo" jurnalında yazdıqları nekroloqda İ.Rəhimovun dərin həkimlik zəkası, geniş dünyagörüşü və insanlara qayğıkeşliyi, buna görə də iş yoldaşlarının və xəstələrinin sonsuz sevgisini qazandığı qeyd olunub. İ.Rəhimov haqqında xatirələrini yazmış görkəmli patoloq-anatom akademik N.F.Melnikov-Razvedenkov göstərir ki, bu mərhum həkimə görə "Saburov bağı" "Xarkov elmi təbabət üfüqlərində görkəmli yer tutub".



***Xarkov quberniyası Zemskaya xəstəxanasının əməkdaşları tərəfindən İ.Rəhimova həkimlik fəaliyyətinin 25 illiyi ilə əlaqədar təqdim olunmuş təbrik ünvanı***

## ƏDƏBİYYAT


1. *Ağabəyova S.* Vətən həsrətli həkim. "Respublika" qəz., 2000, № 023 (761), 1 fevral
2. MATM, Sənədli Mənbələr Fondu, inv. № 304/2, 304/3, 304/7, 304/4, 633 (1), 633(6), 633 (əlavə № 2).
3. *Şirəliyeva R.K., Pirəliyeva Y.U., Əliyev R.R.* Azərbaycan tibb elminin tarixi (Azərbaycan səhiyyəsinin 100 illiyimə həsr olunur) // Milli Nevrologiya, №1 (13) 2018, s.64-66
4. *Tahirzadə N.* Azərbaycan təhsil tarixi oçerkləri və ilk ali təhsillilərimiz. Bakı, 2015, 479 s.


Redaksiyaya daxil olub 16.02.2021

*UOT 316:001.83 (100)*

***Н.Ф.Гахраманова***
*Азербайджанский государственный педагогический университет*
*ngahraman@mail.ru*

# К ВОПРОСУ О СПЕЦИФИЧЕСКИХ ФУНКЦИЯХ СОЦИАЛЬНОЙ ИНФОРМАЦИИ В ТЕОРИИ И ПРАКТИКЕ СОЦИАЛЬНОГО УПРАВЛЕНИЯ

***Ключевые слова:*** *теория управления, практика управления, политическая культура, социальная информация*

Любое политическое или управленческое решение, в конечном счете, затрагивает интересы людей. Те, кто готовит, и кто принимает эти решения, обязательно должен иметь об этом достаточную информацию. В принятии любого решения, касающихся тех или иных структур и состояний социальной системы, чувства, эмоции, симпатии и антипатии должны быть полностью исключены. И это возможно при наличии высокой культуры (общей и политической), чувства ответственности за принимаемое решение, профессионализма и компетентности. И здесь нелишне подчеркнуть чрезвычайную важность нравственной культуры человека.

***N.F.Qəhrəmanova***

# SOSİAL İDARƏETMƏ NƏZƏRİYYƏSİ VƏ PRAKTİKASINDA SOSİAL İNFORMASİYANIN SPESİFİK FUNKSİYALARI MƏSƏLƏSİNƏ DAİR

***Açar sözlər:*** *idarəetmə nəzəriyyəsi, idarəetmə təcrübəsi, siyasi mədəniyyət, sosial informasiya*

Hər hansı bir siyasi və ya idarəetmə qərarı nəticədə insanların maraqlarına təsir edir. Bu qərarları hazırlayanlar və qəbul edənlər bu barədə kifayət qədər məlumata sahib olmalıdırlar. Sosial sistemin müəyyən struktur və vəziyyətləri ilə bağlı hər hansı bir qərar qəbul edərkən duyğular, emosiyalar, simpatiya və antipatiya tamamilə istisna edilməlidir. Və bu, yüksək mədəniyyət (ümumi və siyasi), qərar vermə üçün məsuliyyət hissi, peşəkarlıq və səriştənin mövcudluğunda mümkündür. Burada mənəvi mədəniyyətinin son dərəcə vacibliyini vurğulamaq lazımdır.

***N.F.Gahramanova***

# ABOUT THE SPECIFIC FUNCTIONS OF SOCIAL INFORMATION IN THE THEORY AND PRACTICE OF SOCIAL MANAGEMENT

***Keywords:*** *theory of management, practice of management, political culture, social information*

Any political or management decision ultimately affects the interests of people. Those who prepares and who takes decisions must have sufficient information about this. In making any decision regarding certain structures and states of the social system, feelings, emotions, likes and dislikes should be completely excluded. And this is possible in the presence of a high culture (general and political), a sense of responsibility for the decision, professionalism and competence. And here it is necessary to emphasize the extreme importance of human moral culture.

Теория и практика управления насчитывает тысячелетия. На протяжении всего этого периода главной теорией управления считалась философия. В настоящее время многие функции управления биологическими и техническими системами перешли к кибернетике. Более того, и в управлении рядом социальных процессов возможности кибернетики могут быть использованы с большей отдачей. Но, как бы там ни было, а общей теорией социального управления продолжает оставаться философия. Благодаря этому идея о функциях политической культуры в системе социального управления обретает подлинно научный смысл.

В результате перехода от одной социально-экономической и политической системы к другой коренным образом изменилась не только система социального управления, не только управляемые социальные системы, но и субъект-объектные отношения, основанные на частной собственности и иных ценностях и принципах. Функции политической культуры в данном случае – способствовать взаимопониманию субъектов и объектов социального управления, ориентировать их на поиск решений, приемлемых с позиций общенациональных и общегосударственных интересов.

В контексте рассматриваемых вопросов чрезвычайно актуальной является задача формирования, совершенствования и развития новых управленческих отношений. Формирование и развитие совершенно новых управленческих отношений в сфере новой системы социального управления происходит на разных уровнях – на уровне больших, средних и малых систем, но, в первую очередь, на уровне субъект-объектных отношений, складывающихся на почве управленческой деятельности.

На всех уровнях взаимоотношений людей, социальных и политических институтов, складывающихся в процессе решения управленческих задач участие и использование политической культуры крайне необходимо. Оно необходимо не только для оптимизации систем социального управления разных уровней и масштабов, не только для усиления целенаправленности в создании новых звеньев системы социального управления, но и для предотвращения всякого рода ошибок. С этих позиций значительный теоретический и практический интерес

представляет вопрос о функциях политической культуры в принятии управленческих задач. Во всем процессе поиска оптимальных вариантов решения той или иной управленческой задачи политическая культура может и должна выполнять ряд важных функций. Вся проблема заключается в том, как пользоваться ею.

В управлении социальными системами разного уровня мы имеем дело с непрерывной цепью взаимосвязанных действий: управление – управленческое решение – управление. В этой цепи действий принятие управленческого решения следует считать, на наш взгляд, специфической составной частью управленческой деятельности, где, с одной стороны, в соответствии с новыми требованиями по оптимизации практики или системы управления возникает необходимость в подготовке и принятии новых управленческих решений; с другой – внесения каких-то новшеств и совершенствования системы управления. Но, когда заходит речь об управленческой культуре, в том числе о присутствии политической культуры в управленческом процессе, управленческой деятельности, то подавляющее большинство авторов (если не все) рассматривают участие культуры только в самом акте осуществления управленческой деятельности, акцентируют внимание только на факте воздействия субъекта управления на объект управления. При этом принятие управленческого решения как бы выпадает из общей цепи, а культура на него, в их интерпретации, фактически не распространяется.

В современной практике управления социальными системами при возникновении новых задач, в том числе задач реализации вновь принятых решений, субъекты управления, как правило, действуют в рамках «апробированных» правил и установок, нисколько не заботясь о культуре реализации этих решений. Притом, говоря о культуре реализации новых решений, мы имеем в виду, прежде всего профессиональное и интеллектуальное совершенствование субъектов управления, усвоенные ими более или менее прогрессивные методы воздействия на социальные системы.

Среди исследований проблем социального управления в советский период и по времени, и по политической значимости (по меркам Советского периода) на первом месте стояли исследования академика В.Г.Афанасьева. Он одним из первых взялся за изучение управленческого цикла, а внутри него – проблему выработки и принятия управленческого решения [3, с.195-223].

Указывая на многообразие управленческих решений, В.Г.Афанасьев выдвигает ряд критериев или принципов различения этих решений. Они различаются, считает он «во-первых, по степени охвата, по степени сложности, то есть в зависимости от того, для какого объекта (или

группы объектов) они предназначены» [3, с.199]. «Самыми емкими и самыми сложными», как верно подмечает академик В.Г.Афанасьев, «являются решения, касающиеся общества в целом». Эти решения он называет «общественными» [3, с.199]. Именно здесь наиболее полно проявляются функции и значимость политической культуры. Во-первых, эти функции могут проявляться двояко по отношению к принимаемым или принятым «общественным» решениям. Поскольку политическую культуру нельзя отождествлять ни с политикой и ни с политическими структурами (Р.Т.Мухаев дает более основательное разъяснение «…политическая культура является качественной характеристикой политической сферы, критерием ее развития») [6, с.243], и поскольку политическую культуру в своей политической и практической деятельности используют и власть, и оппозиция, то и к принятию общественных решений могут быть разные подходы и требования «за» и «против». Если «за», то политическая культура может сыграть важную роль в сближении позиций управленцев и управляемых, различных лиц и групп, включенных в подготовку этих решений. Если «против», то политическая культура может быть применена для ориентации масс против предлагаемых решений, или для усиления протеста общественности. Дело в том, что методологически функции политической культуры, формы и способы их реализации нельзя рассматривать только в позитивном смысле. Если принятое управленческое решение не соответствует интересам общества, государства и нации, то такое решение должно быть опротестовано, отвергнуто, и здесь чрезмерно велико значение политической культуры.

Во-вторых, управленческие решения различаются «по длительности времени, в процессе которого они действуют… Могут быть решения, рассчитанные на длительный срок, исчисляемые годами или десятилетиями. Могут быть и краткодействующие и разовые решения» [3, с.199].

В-третьих, управленческие решения различаются по значению, по месту и роли в функционировании и развитии общества. Одни решения могут затрагивать самые существенные стороны жизни общества, например, решения, связанные с переходом общества от одной общественно-экономической формации к другой. Такие решения характеризуются еще и тем, что-либо в их принятии, либо в проведении в жизнь участвуют миллионы людей, почти весь народ; другие – каких-то отдельных, подчас неосновных, несущественных сторон жизнедеятельности общества [3, с.199].

Принятие любого управленческого решения не означает ни начала и ни конца управленческого цикла. После любого управленческого

решения наступает время осуществления этих решений. В соответствии с этим перед политической культурой, используемой в целях поддержки и проведения в жизнь принятых решений, встают новые задачи: а) мобилизация основных сил общества на выполнение этих решений; б) стабилизация общественно-политической ситуации в стране; в) ориентация людей и структур на цивилизованные способы и формы выполнения данного решения; г)пробуждение интереса к передовому, прогрессивному опыту развитых стран.

Система властных структур, принимающих или заинтересованных в принятии управленческих решений, построена по принципу вертикальной иерархии. Поэтому, учитывая это обстоятельство, политическая культура должна определить особенности и конкретные цели своих функций на каждом уровне этой иерархии, например, на уровне правительства, министерств или местной власти. С этих позиций возникает целый комплекс задач теоретико-методологического, политического, социально-психологического, правового, экономического и практического характера. В отличие от решений, принимаемых в системе технического управления, решения, принимаемые в системе социального управления, должны быть крайне справедливыми, гуманными, цивилизованными. Именно эта идея должна составлять главный смысл практического использования политической культуры. Президент Азербайджанской Республики Ильхам Алиев особо подчеркивает: «Все должны быть равными перед законом. Все решения должны быть справедливыми. Несправедливые решения отражаются на судьбах людей. Если принятое решение несправедливое, то люди от этого испытывают очень большие страдания» [1, с.59].

Говоря о принятии управленческого решения, почти все авторы акцентирую внимание на самом акте, событии принятия того или иного решения. Да, формально решение принято тогда-то, соответствующие документы подписаны тогда-то, и это можно считать временем и событием принятия управленческого решения. Но такой метафизический подход к анализу и интерпретации явления оставляет за бортом целый этап мучительных поисков решений, этапы, на которых осознаны и приняты решения о необходимости принятия новых управленческих решений. В философской и политологической литературе этот момент до сих пор не получил должной оценки и остается неразработанным. Как ни парадоксально, но ключ к решению данной проблемы первым нашел выдающийся советский ученый, академик АН СССР и АМН СССР, виднейший исследователь проблем медицины, физиологии и психологии П.К.Анохин. Отметив, что «механистический подход не сможет объяснить ту сложность, которая имеется в организме (а социальный организм

гораздо сложнее, чем человеческий – Н.Г.), и особенно на высшем уровне, где решение делается постоянным этапом в поведении человека» [2, с.202], он делает важный вывод: «Следовательно, первый и важный момент: решение есть неизбежный предмет интеграции и предмет выбора – из множества других возможностей выбирается одна, которая способна обеспечить организм или машину наилучшим эффектом» [2, с.392]. Точно так же, в системе социального управления при принятии управленческого решения выбирается такая возможность, которая могла бы обеспечить систему наилучшим эффектом действия.

Академик П.К.Анохин писал: « …Решение является не началом, а результатом какой-то очень тонкой и обширной работы, проделанной мозгом. Поэтому выявилась необходимость вовлечь в сферу внимания не только само принятие решения, но и стадию «предрешения», которое формирует решение и предопределяет его направленность. И тут выяснилось, что принятие решения невозможно без этой стадии предрешения, которая делает самую «культурную», самую «интеллектуальную», а именно определяет, какие обстоятельства должны быть учтены при принятии решения…». Поэтому выражение «принятие решения» не должно быть гипнотизирующим фактором, это есть конечный акт одного весьма разветвленного процесса и начало другого [2, с.393].

В период предрешения политическая культура имеет больше возможностей повлиять на поведение и образ мышления людей, настроить их на волну самокритичности с тем, чтобы подготовка проектов будущих решений сопровождалась проверкой и обсуждением специалистами всех «за» и «против». Как считают видные специалисты по теории социального управления и принятию решений, этот период предрешения должен быть наполнен практическими целенаправленными действиями по диагностированию и прогнозированию процессов, которые есть и которые могут быть, диагностированием и прогнозированием того, в каком направлении эти процессы могут развиваться.

Н.П.Пищулин, С.Н.Пищулин, А.А.Бетуганов («Социальное управление: теория и практика» [7]) выделяют следующие диагностические процедуры: диагностика активности персонала управления (7, с.78-80), диагностика степени оптимизма персонала (7, с.82-85), диагностика объективности персонала (7, с.85-87), диагностика внимательности (7, с.87-89), диагностика творческого потенциала (7, с.89-91), диагностика силы воли (стр. 92-93), диагностика степени обидчивости (7, с.93-94), диагностика наблюдательности (7, с.94-96), диагностика надежности (7, с.97), диагностика уровня самоконтроля (7, с.98-99), диагностика черт характера (7, с.103-104) и др. А автор учебника

«Разработка управленческого решения» Р.А.Фатхутдинов [8], осуществив всестороннюю разработку методов прогнозирования управленческого решения (8, с.154-180), как бы дополняет и развивает идеи вышеназванных авторов. Он, в частности, рассматривает такие вопросы, как принципы и классификация методов прогнозирования, организация работ по прогнозированию, экспертные системы, параметрические методы и т.д.

Все это вместе – крупицы, кирпичики построения общей теории социального управления, все это должно работать, по мнению упомянутых авторов, на качество принимаемых решений. На всех этих уровнях политическая культура должна нащупать свою нишу влияния на процессы и деятельность людей и структур, озабоченных идеей принять новое, более перспективное и более прогрессивное управленческое решение.

В свое время С.Верба говорил: «Политическая культура формирует субъективную ориентацию на политику» [9]. Смысл той ориентирующей функции политической культуры, как раз заключается в том, чтобы эта субъективная ориентация была одновременно субъективной ориентацией людей, участвующих в принятии управленческих решений. В таком случае и решение будет в той или иной степени ориентировано на политику. Вот вам и результат «на выходе».

Разнобой мнений по поводу определения политической культуры возрастает, но не уменьшается. Уже на сегодняшний день написано огромное количество работ, посвященных анализу политической культуры Великобритании, России, Франции и т.д. При этом появляются работы и другого характера. «В наше время становится очевидным, что нельзя никакую национальную культуру считать самодостаточной. Каждая из них несовершенна и ограничена. Любая культура нуждается в «выходе из себя», ибо может развивать свои потенции, лишь обращаясь к опыту других культур и усваивая его» [5, с.57], - так утверждает А.Кармин.

Эта тенденция, присущая развитию современных национальных культур, свойственна также политической культуре отдельно взятых стран и народов. Политическая культура, например, современного азербайджанского общества, равно как и политическая культура других народов и обществ, испытывает постоянную тягу к самосовершенствованию, к постижению самодостаточности. При этом она должна постоянно обращаться: а) к опыту развития политических культур других стран; б) к опыту других стран по использованию политической культуры для совершенствования системы социального управления

вообще, для усвоения их опыта по использованию политической культуры в процессе выработки и принятия управленческих решений.

Как известно, принятие управленческих решений государственного значения не может быть прерогативой организаций и структур, занимающихся такого рода вопросами на любительском уровне. Здесь всегда должна чувствоваться сильная рука и воля государства. Здесь последовательную, не противоречащую Закону, ориентирующую позицию должна занимать политическая система. Но поскольку «формирование, развитие и изменение политической культуры во многом зависят от ее взаимосвязей от политической системы» [4, с.205], то заинтересованная в совершенствовании системы управления и принятии более совершенных управленческих решений политическая культура должна усвоить все прогрессивные, выражающие общенациональные интересы принципы и установки политической системы и реализовать их на практике, в частности, в деле принятия управленческих решений.

Любое политическое или управленческое решение, в конечном счете, затрагивает интересы людей. Те, кто готовит, и кто принимает эти решения, обязательно должен иметь об этом достаточную информацию. Притом, речь идет не только о каких-то стратегических данных, но и об информации прогностического характера, информации, пропущенной через фильтр критической рефлексии. Но, проходя через фильтр оценивающего индивидуального сознания субъекта принятия решения, информация или какая-то часть информации, при определенном расположении духа может вызвать реакцию, никак не соответствующую целям, определенным еще задолго до принятия решения. При низкой культуре и неразвитости чувства ответственности сохраняется возможность принятия таких решений, которые впоследствии могут оказаться малоэффективными или даже вредными. В принятии любого решения, касающихся тех или иных структур и состояний социальной системы, чувства, эмоции, симпатии и антипатии должны быть полностью исключены. И это возможно при наличии высокой культуры (общей и политической), чувства ответственности за принимаемое решение, профессионализма и компетентности, наконец, элементарной человеческой порядочности. И здесь нелишне подчеркнуть чрезвычайную важность нравственной культуры человека. Явно или неявно, подспудно или в силу практической осознанности в принятии управленческих или политических решений должна занимать свое достойное место нравственная культура.

## ЛИТЕРАТУРА

1. 8 avqust 2006-cı il Ali Məhkəmənin yeni inzibatı binasının təməli qoyulma mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. İqtibaslar və təhlil. Bakı, 2006, 328 s.
2. *Анохин П.К.* Проблема принятия решения в психологии и физиологии. В кн.: Анохин П.К. Избранные труды. Философские аспекты теории функциональной системы. М., 1978, 399 с.
3. *Афанасьев В.Г.* Научное управление обществом. М., 1981 г., 362 с.
4. Бурл*ацкий Ф.М., Галкин А.А.* Современный Левиафан. Москва: Мысль, 1985 г., 255 с.
5. *Кармин А.* Философия культуры в информационном обществе: проблемы и перспективы // Вопросы философии, 2006, №2, 136 с.
6. *Мухаев Р.Т.* Теория политики. Москва: Юнити, 2005, 432 с.
7. *Пищулин Н.П., Пищулин С.Н., Бетуганов А.А.* Социальное управление: теория и практика. Москва: ИКЦ «Академкнига», 2003, Т 2, 450 с.
8. *Фатхутдинов Р.А* Разработка управленческого решения, Москва, 1999, 240 с.
9. *Almond Gabriel A., Verba Sidney.* The Civic Culture. Boston, MA: Little, Brown and Company, 1965, 456 p.

Redaksiyaya daxil olub 15.02.2022

*UOT 94 (479.24)*

***N.R.Məmmədov***
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu*
*mamedov-n@yahoo.com, rshixaliyeva@mail.ru*

# HEYDƏR ƏLİYEV VƏ ŞUŞANIN TARİXİ

***Açar sözlər:*** *Azərbaycan, Şuşa, Ümummilli lider, Heydər Əliyev, arxitektura, Qarabağ, şəhər, siyasi sabitlik*

Məqalədə göstərilir ki, Şuşa şəhərinin inkişafı Ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. XX yüzilliyin 70-ci illərində Heydər Əliyevin təşəbbüsü ilə Şuşanın tarixi abidələrinin qorunub saxlanılması və bərpası məqsədilə Azərbaycan KP MK-ya 2 qərar verimişdir. Bunlardan birincisi 4 noyabr 1976-cı ildə qəbul edilmiş "Şuşa şəhərinin kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında", ikincisi 10 avqust 1977-ci ildə "Şuşa şəhərinin Tarixi Arxitektura qoruğu elan edilməsi haqqında" qərarları idi. Həmin vaxtdan həyata keçirilən tədbirlər nəticəsində Şuşanın qədim tarixi abidələri bərpa edilərək qorunmuş və gələcək nəsillərə çatdırılmışdır.

***Н.Р.Мамедов***

## ГЕЙДАРА АЛИЕВ И ИСТОРИЯ ШУШИ

***Ключевые слова:*** *Азербайджан, Шуша, общенациональный лидер, Гейдар Алиев, архитектура, Карабах, город, политическая стабильность*

В статье указывается, что развитие города Шуши всегда было в центре внимания нашего общенационального лидера Гейдара Алиева. В 70-х годах XX столетия с целью развития материальной культуры в городе Шуша была принята два постановления ЦК КП Азербайджана. Благодаря первому постановлению «О мероприятиях по дальнейшему развитию курортного комплекса в городе Шуша» от 4 ноября 1976 г. и второму постановлению «Об объявлении города Шуша Архитектурно-историческим Заповедником» от 10 августа 1977 г. в городе Шуша было зарегистрировано 236 архитектурно-исторических памятников. В результате этих мероприятий большинство исторических архитектурных памятников было сохранено для будущего поколения азербайджанцев.

***N.R.Mammadov***

## HEYDAR ALIYEV AND HISTORY OF SHUSHA

***Keywords****: Azerbaijan, Shusha, national leader, Heydar Aliev, architecturally, Garabagh, city, political stability*

In clause is underlined, that development of the city of Shisha always was the focus of attention of our national leader Heydar Aliyev. In 70th of the XX century in order to development of material culture in the city of Shusha the Central Committee of CP of Azerbaijan have taken two decisions. Owing to the first decision “About measures on the further development of the health resort complex in the city of Shusha” from November, 4th, 1976 and the second decision “About the declaration of the city of Shusha Architecturally-historical Reserve” from August, 10th, 1977 in the city of Shusha 236 architecturally-historical monuments have been registered. As a result of these measures the majority of historical, architectural monuments have remained for the future generation of Azerbaijanis.

Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev Qarabağın tacı olan Şuşaya ürəkdən bağlılığını çıxışlarından birində ifadə edərək bildirmişdir: “Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir” [15, s.44].

Qeyd edək ki, Şuşa Azərbaycanın qədim tarixə malik olan şəhər mədəniyyətinin nadir və təkrarsız incilərindən biridir. Azərbaycan xalqının yaradıcılıq dühasının möcüzəsi olan Şuşa şəhəri zəngin və şanlı tarixi keçmişə malikdir. Mənsub olduğu xalqın tarixi ənənələrinin simvolu olan Şuşa qədim Xocalı-Gədəbəy mədəniyyətinin (e.ə. ikinci minilliyin II yarısı – birinci minilliyin əvvəlləri) əhatə dairəsinə daxil olan ən qədim yaşayış yerlərindən birində yaranıb və daimi insan məskəninə çevrilib. Şuşa ətrafındakı qədim yaşayış yerləri, o cümlədən məşhur Cıdır düzündəki Şuşa mağarası bu yerlərin Azərbaycan ərazisində ən qədim insan düşərgələrindən biri olduğunu sübut edir. Şuşa Azərbaycan xalqı üçün son dərəcə müqəddəs, ziyarətgah qədər əziz olan yurd yeridir [1]. Çünki dünyanın bu füsunkar guşəsi bütün tarixi dövrlərdə Qarabağın mərkəzi olmuşdur. Düzənli-dağlı Qarabağ üçün, bütün Azərbaycan ellərindən ötrü uzun tarixi dövr ərzində uca, şiş dağlar başında səfalı bir yaylaq yeri olan Şuşa el arasında, xalqın təfəkküründə və ədəbiyyatında “Şiş qaya” kimi də məşhur olmuşdur [2, s.41]. XVIII əsrin ortalarına yaxın Azərbaycan ərazisində müstəqil xanlıqlar dövrü başlandıqda qədim yurd yeri olan Şuşa yeni inkişaf mərhələsinə qədəm qoydu. Azərbaycanın görkəmli dövlət xadimi, Qarabağ xanı Pənahəli xan Cavanşir əsası 1750-ci ilin əvvəlində qoyulmuş Şuşanı möhkəm qalaya çevirdi və “Pənahabad” adlandırdı. Qarabağ xanlığının paytaxtı Şuşaya köçürüldü. 1756-1823-cü illərdə Azərbaycanın qüdrətli xanlıqlarından biri olan Qarabağ xanlığının paytaxtı olan Şuşa sürətlə inkişaf etdi [7, s.71]. Şəhər hərbi-siyasi mərkəz olmaqla yanaşı, Azərbaycanın ən mühüm sənətkarlıq, ticarət və mədəniyyət mərkəzlərindən birinə çevrildi. XVIII yüzillikdə Azərbaycanın paytaxt şəhərlərindən biri olan Şuşa tipik Azərbaycan şəhəri kimi formalaşmış və 1992-ci ildə erməni vandalları tərəfindən işğal olunana qədərki bütün dövrlərdə öz tarixi simasını olduğu kimi qoruyub

saxlamışdır. Belə ki, yarandığı vaxtdan etibarən Şuşanın əhalisi ancaq azərbaycanlılar idi. Şəhərdəki bütün məhəllələrin, küçələrin, tarixi abidələrin, imarətlərin, bulaqların adları bu şəhəri yaradan, onun aborigen əhalisi olan azərbaycanlılara məxsus idi [16, s.8].

Azərbaycan Respublikasının Birinci Vitse-Prezidenti, YUNESKO-nun xoşməramlı səfiri, Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyeva çıxışlarından birində Şuşanın Ermənistan silahlı birləşmələri tərəfindən işğalını ürək ağrısı ilə dilə gətirərək demişdir: “Dünyada bir çox şəhərlər var ki, onlar müəyyən mədəni və siyasi səbəblərdən rəmzə çevrilmişlər. Onların adlarını dilə gətirmək kifayətdir ki, hər birimizin yaddaşında həmin şəhərin obrazı yaransın. Hər bir azərbaycanlı üçün belə şəhər Şuşadır. Şuşa Azərbaycan mədəniyyətinin parlaq rəmzlərindən biri kimi olub və qalmaqdadır. Bu gün o, həm də bizim torpaqlarımızın işğalının rəmzidir. Nə qədər ki, Şuşa erməni qoşunlarının işğalı altındadır, hər birimiz Şuşalıyıq” [25, s.26].

Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 9 aprel 2012-ci il tarixli Sərəncam imzalamışdır. Həmin Sərəncamda göstərilir: “Şuşa Azərbaycanın unikal mədəniyyət mərkəzlərindən biridir. Təbii gözəllikləri ilə seçilən bu şəhər milli memarlığımızın və orta əsrlər şəhərsalma sənətinin qiymətli abidəsidir. Milli-mənəvi dəyərlərimizi və musiqi ənənələrimizi daim yaşadan Şuşa mühüm iqtisadi, siyasi və mədəni əhəmiyyətə malik şəhər kimi təşəkkül tapanadək zəngin yol keçmiş, Qarabağ xanlığının mərkəzi olmaqla xalqımızın həyatında özünəməxsus rol oynamışdır. Qasım bəy Zakir, Xurşidbanu Natəvan, Mir Möhsün Nəvvab, Nəcəf bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Yusif Vəzir Çəmənzəminli, Firudin bəy Köçərli, Əhməd bəy Ağaoğlu və digər görkəmli şəxsiyyətləri ilə tarixə düşən bu şəhər dünyada Azərbaycan muğamının beşiyi olaraq tanınır. 1977-ci ildə ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə “Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında” qərar qəbul edilmişdir [8, s.3]. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyətimizin və incəsənətimizin böyük simalarından Üzeyir bəy Hacıbəylinin, Xurşidbanu Natəvanın və Bülbülün ev-muzeyləri təşkil olunmuş, görkəmli şair Molla Pənah Vaqifin məqbərəsi ucaldılmışdır. 1991-ci il oktyabrın 18-də öz dövlət müstəqilliyinin bərpası haqqında müvafiq sənədlər qəbul edən Azərbaycan Respublikası Dağlıq Qarabağ münaqişəsi nəticəsində Ermənistanın aqressiv etnik təmizləmə siyasəti ilə üz-üzə qaldı [6, 186 s.]. Dərin siyasi, iqtisadi, sosial böhran keçirən və Dağlıq Qarabağda yaranmış gərgin vəziyyətdən çıxış yolu axtaran ölkəmiz hələ öz milli ordusu formalaşmadığından yüksək hərbi-strateji əhəmiyyətli Şuşa şəhərinin müdafiəsində yalnız könüllü özünümüdafiə dəstələrinin yardımına ümid edirdi. Lakin onların qəhrəmancasına döyüşmələrinə və layiqli müqavimət göstərmələrinə baxmayaraq, təpədən

dırnağadək silahlanmış Ermənistan silahlı qüvvələri 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etdi. Şuşanın müdafiəsi uğrunda aparılan döyüşlərdə 195 nəfər soydaşımız şəhid oldu, 165 nəfər yaralandı, 58 nəfər əsir düşdü və girov götürüldü. Erməni vandalları işğal vaxtı minlərlə eksponatın olduğu muzeyləri talan elədilər, yüzlərlə tarix-mədəniyyət abidəsini dağıtdılar, məbədgah və məscidləri təhqirlərə məruz qoydular, çox sayda nadir əlyazma nümunələrini məhv etdilər, təhsil və səhiyyə ocaqlarını xarabazara döndərdilər. Şuşanın süqutunun iyirminci ildönümü ərəfəsində şəhərin müdafiəsi zamanı şəhid olmuş soydaşlarımızın xatirəsini bir daha dərin hüznlə yad edir, Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının ərazisində və ölkəmizin hüdudlarından kənarda Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü ilə əlaqədar müvafiq anma mərasimləri keçirilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Şuşa şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən işğalının iyirminci ildönümü ilə bağlı tədbirlər planı hazırlayıb onun həyata keçirilməsini təmin etsin” [14, s.110].

Onu da qeyd etmək yerinə düşərdi ki, 1969-cu ildə Azərbaycanın müasir tarixində dönüş mərhələsinin təməli qoyuldu. Ağlı və işgüzarlığı sayəsində general-mayor rütbəsinədək yüksəlmiş görkəmli şəxsiyyət Heydər Əliyev 1969-cu il iyulun 14-də Azərbaycan KP MK-nın birinci katibi seçildi. Həmin ilin avqustun 5-də Heydər Əliyev Azərbaycan KP MK Plenumunda çıxış edərək Respublikamızın iqtisadiyyatının dərin və hərtərəfli təhlilini vermiş, təsərrüfata rəhbərlikdə, mədəni quruculuqda, ideoloji işdə ciddi nöqsanlar olduğunu qeyd edərək onun aradan qaldırılması yollarını göstərmişdi. Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan KP-nin qurultaylarında, MK-nın plenumlarında, vaxtaşırı çağırılmış müşavirələrdə dövlətimizin iqtisadi, mənəvi və sosial-mədəni inkişafının konkret vəzifələri müəyyən edilmişdi. Heydər Əliyevin məqsədyönlü siyasi fəaliyyəti nəticəsində Azərbaycanda milli özünüdərk prosesi xeyli güclənmiş, yaradıcı ziyalılarımız üçün sərbəst düşüncə və iş şəraiti yaradılmışdır.

1970-ci illərdə DQMV-nin iqtisadi və mədəni tərəqqisinə diqqət daha da artırılmışdır. Şuşa şəhərinin inkişafı Ümummilli lider Heydər Əliyevin daim diqqət mərkəzində olmuşdur. Belə ki, o, çıxışlarından birində göstərmişdir ki, “Şuşa abidələr şəhəridir. Diyarın zəngin tarixi ilə bağlı olan hər şeyi qayğı ilə qorumaq, buradakı qədim tikililəri bərpa etmək lazımdır” [13]. Gözəl memarlıq abidələri ilə zəngin olan Şuşa şəhərinin kompleks inkişafı üçün Azərbaycan hökuməti, dövlət başçısının təşəbbüsü ilə bir neçə xüsusi qərar qəbul etmişdir. Bunlardan biri, “Şuşa şəhərində kurort kompleksini daha da inkişaf etdirmək tədbirləri haqqında” Azərbaycan KP MK-nın və Respublika Nazirlər Sovetinin

4 noyabr 1976-cı il qərarı idi. Həmin qərara uyğun olaraq Azərdövlətlayihə İnstitutu tərəfindən şəhərin "Baş planı" layihələşdirildi. Layihədə Şuşa şəhərində 2000-ci ilədək olan dövrdə görüləcək işlər öz əksini tapmışdı. "Baş plan"da – 2 doqquz mərtəbəli, 45 mənzilli yaşayış evi, 300 yerlik turist bazası, məişət evi, 400 yerlik uşaq sanatoriyası, Şuşanın cənub-qərbində 40 mənzilli "Azərqaznəqliyyat" Nazirliyinin binası, Cıdır düzü-Topxana, Şuşa-Xankəndi kanat yolunun çəkilməsi və digər tikinti abadlıq işlərinin aparılması nəzərdə tutulmuşdur [27]. Lakin təəssüf hissi ilə bir məsələni xüsusi qeyd etməliyik ki, DQMV-nin erməni rəhbərliyi və Vilayət XDS-i öz səlahiyyətlərindən istifadə edərək türkçülüyü, müsəlmançılığı öz üzərində əks etdirən Xurşidbanu Natəvanın, Gövhər Ağanın, Cəfərqulu xanın, Uğurlu Bəyin, Fərzəlibəyin, Nəcəfqulu Ağanın, Hacı Qulunun, Səfibəyin tikdirdikləri saray və imarətlər, məscid və hamamlar, Camxarov, Mirsiyabov, Fayazovların tikdirdikləri ticarət-sənaye mərkəzlərinin "Şuşa şəhərinin Kurort kompleksini inkişaf etdirmək" adı altında dağıtmağa başladılar. Bu acı həqiqətdən məlumat tutan dövlət başçısı Heydər Əliyev dərhal məsələyə öz münasibətini bildirmiş və 10 avqust 1977-ci ildə Azərbaycan KP MK-nın, Azərbaycan SSR Nazirlər Sovetinin 280 №-li qərarı ilə "Şuşa şəhəri Tarixi Arxitektura Qoruğu" elan edilmişdir [29].

Doğrudan da dağlar diyarı Şuşa şəhəri əsrlərin yadigarı gözəl memarlıq abidələri ilə zəngindir. Şuşa özü boyda canlı abidədir, desək, yanılmarıq. Çünki burada tarixi keçmişimizi özündə əks etdirən gözəl sənət inciləri – "Alaqapı", "Çanaqqala", "Gəncə qapısı", "Gövhərağa Məscidi", "Xan qızı bulağı", "Böyük meydan bulağı", "Rasta-Bazar", "Hacıqulluların malikanəsi", "Zöhrabbəyovun malikanəsi", "Bülbülün ev muzeyi", "Saatlı Məscidi", "Mirsiyabovun Karvansarası", "Heydər Türbəsi" qala divarları şəhərə xüsusi gözəllik verir. Qədim Şuşanın memar və nəqqaşlarından Mir Möhsün Nəvvab Qarabağı, Məmmədyar, Usta Qənbər Qarabağı, Məşədi Əliqulu, Qarabağlı Kəblə Əkbər, Məşədi Xaspolad, Kərbəlayi Səfixan Qarabağı və digər azərbaycanlı sənətkarlarının əllərinin məhsulu olan bu sənət əsərləri öz milliliyinə və forma müxtəlifliyinə görə Azərbaycan memarlıq mədəniyyəti tarixində özünəməxsus yer tutmuşdur. Başdan-başa tarixi abidələrlə zəngin olan Şuşa şəhərində hər kvadrat kilometrə 327 tarixi abidə düşürdü [26, s.170]. Şəhərin 190 hektar sahəsini əhatə edən 198 Respublika dərəcəli köhnə tarixi abidə 1977-ci ildən "Tarixi memarlıq qoruğu" elan edilmiş, Azərbaycan SSR Mədəniyyət Nazirliyinin uçotuna alınmışdır. Azərbaycan SSR Nazirlər Sovetinin 1977-ci il yuxarıda adı gedən "Qərarı"ndan sonra Şuşa şəhərinin qoruq zonasına daxil edilən 549 qədim bina, ümumi uzunluğu 1203 metr olan daş döşənmiş küçələr, 18 məhəllə bulağı, 15 məscid, 6 karvansara, 3 türbə, 2 mədrəsə, 2 qəsr, kilsə, qala divarları və bürcləri, 21 sovet dövründə tikilmiş tarixi abidə dövlət tərəfindən qorunmağa və bərpa edilməyə başlandı [2, s.32].

Doğrudan da Heydər Əliyevin uzaqgörənliyi olmasaydı, Şuşanın qədim abidələrindən, təkrarsız sənət incilərindən bir dənə də olsun əsər-əlamət qalmazdı. Heydər Əliyevin təşəbbüsü ilə 1977-ci ilin sentyabrında Şuşadakı Tarixi Memarlıq Abidələrinin qorunub saxlanılması işini daha da yaxşılaşdırmaq məqsədilə Azərbaycan SSR Elmlər Akademiyasının İncəsənət və Memarlıq İnstitutu tərəfindən geniş "Tədbirlər planı" işlənib hazırlandı. Planın icrasına mütəxəssislər, alimlər, Mədəniyyət Nazirliyinin idarə, müəssisə və ictimai təşkilatları cəlb edildi. 1977-ci ilin oktyabrında Şuşa şəhərində Dövlət Tarixi Memarlıq Qoruğu İdarəsi yaradıldı [5]. Hətta mədəniyyət abidələrinin bərpa və inkişafı, kurort kompleksini inkişaf etdirmək məqsədilə yerli əhalidən ibarət "Şuşa Mədəniyyət Abidələrinin Mühafizəsinə Könüllü Yardım Cəmiyyəti" də təşkil edildi. "Cəmiyyət"in 40-a yaxın ilk təşkilatı var idi. Beləliklə, Heydər Əliyev Şuşanın mədəniyyət abidələrinin erməni vandalları tərəfindən dağıdılmasının qarşısını böyük uzaqgörənliklə aldı və bölgədəki 236 tarixi memarlıq abidəsi qeydə alınaraq mühafizə olunmağa, şəhərin kurort kompleksi inkişaf etdirilməyə başlandı [31, s.128].

1976-1982-ci illərdə Şuşa şəhərində bir neçə tarixi abidə tamamilə bərpa olundu. Bunlardan biri öz gözəlliyi və möhtəşəmliyi ilə diqqəti cəlb edən "Gəncə qapısı"nın bərpasıdır. Bərpa vaxtı şəhərin girəcəyində yerləşən "Gəncə qapısı"nın milli xüsusiyyətləri qorunub saxlanmışdır. "Gəncə qapısı"nın mühafizə zonasında Azərbaycanda birinci dəfə olan "Açıq muzey" təşkil olunmuşdur. Muzeydə ulu babalarımızdan bizə yadigar qalan milli naxışlı bəzək daşları, qapı və pəncərə üstü karnizlər, müxtəlif daşlardan yonulmuş kitabələr, sütunlar və digər memarlıq nümunələri nümayiş etdirilmişdir [23, s.274].

Bəhs etdiyimiz illərdə Şuşada Şorbulaq, Meydan, Hamamqabağı məhəlləsinin bulaqları, Saatlı məhəlləsindəki məscid, keçmiş realnı məktəbinin binası, qala divarlarının bir hissəsi, "Şirin su" hamamı qazılıb üzə çıxarılaraq bərpa olunmuşdur. Təsadüfi deyildir ki, 12 yanvar 1979-cu ildə Ümummilli lider Heydər Əliyev Şuşaya gəlmiş, burada bərpa olunmuş bir sıra abidələrin açılışında iştirak etmiş və gələcək işlər üçün özünün dəyərli məsləhətlərini vermişdir. Qısa bir müddətdə Şuşanın gözəl memarlıq nümunələrinin, tarixi abidələrinin bərpasında ciddi irəliləmələr müşahidə edildi. Zöhrabbəyovun və Hacı Qulunun imarətləri, Aşağı məscid, Qala divarlarının bərpası, Vaqifin, Natəvanın, Nəvvabın və başqa tarixi şəxsiyyətlərin ev muzeylərinin açılışı 70-ci illərin sonları 80-ci illərin əvvəllərinə təsadüf etmişdir. Bu dövrdə Ü.Hacıbəyovun ev muzeyində yenidənqurma və yeni tərtibat işləri aparılmış, Natəvanın evinin qarşısında şairin heykəli qoyulmuş, vaxtilə Şuşanı düşmənlərdən qoruyan qədim "Qala divarları" bərpa olunmuşdur [30, s.44].

Bütün bunlarla yanaşı, XX yüzilliyin 70-ci illərində Şuşada 1176 yerlik orta məktəb binası, 600 yerlik "Azərbaycan" kino-teatrı, yay kino-teatrı, 9

mərtəbəli 100 nəfərlik mehmanxana, 36 və 40 mənzilli yaşayış binaları, hər biri 70 çarpayıdan ibarət 2 pansionat və digər mədəni-məişət obyektləri tikilib istifadəyə verilmişdir. Bu dövrdə Daşaltı su kəməri ilə Şərq milli-musiqi alətləri fabriki yanında “Hədiyyələr korpusu”, “Kommunalar bağı”, “Pionerlər”, “Gənclik”, “Natəvan” adına parklar tikilib yerli əhalinin istifadəsinə verilmişdir [11]. “Baş plan”a uyğun olaraq 70-ci illərdə Şuşada xeyli quruculuq və abadlıq işləri görülmüşdür. Məşhur “İsa Bulağı”nın, “Turş su” mineral bulağının abadlaşdırılması, sanatoriya ərazisində “Su qalereyası”nın tikilməsi bəhs edilən illərin məhsullarıdır. Ümumiyyətlə, 1976-1982-ci illərdə Şuşada tikinti-abadlıq işlərinə 20 milyon manat vəsait ayrılmışdır ki, bu da 1971-1975-ci illərlə müqayisədə 2 dəfə, 1965-1969-cu illərdə isə müqayisədə 10 dəfə artıq demək idi. Bütün bunlar isə Ümummilli lider Heydər Əliyevin Vətənimizə, onun keçmişinə vurğunluğu, tarixi abidələrimizə olan sevgisi ilə əlaqədar idi. Bu böyük sevginin, vurğunluğun nəticəsi idi ki, Heydər Əliyev 1982-ci ildə Şuşa şəhərində 2 dəfə olmuşdur [28, s.156]. 1982-ci il yanvarın 14-də Şuşa şəhərinə gələn Heydər Əliyev ilk növbədə M.P.Vaqifin yerli mərmərdən tikilmiş 20 metr hündürlüyündə olan əzəmətli məqbərəsinin açılışında iştirak etmişdir. Bu zaman Respublikamızın 400-dən çox ədəbiyyat, incəsənət və elm xadimi də həmin abidənin açılışında iştirak etmişdilər. Həmin vaxt Heydər Əliyev “Baş plan”da nəzərdə tutulmuş və bərpa edilmiş tarixi mədəniyyət abidələrinə baxış keçirmişdir [17, s.56].

Elmə, sənətə və sənətkara qiymət verən dahi insan Heydər Əliyev həmin ildə ikinci dəfə 1982-ci il iyulun 28-də ailə üzvləri ilə birlikdə Şuşa şəhərinə gəlmiş, bir sıra mədəniyyət abidələrinin və obyektlərin açılışında iştirak etmişdir. Heydər Əliyev M.P.Vaqifin poeziya bayramında iştirak etmiş, şairin dərs dediyi mədrəsəni, şəkil qalereyasını, Ü.Hacıbəyovun ev muzeyini, məscidləri, X.B.Natəvanın büstünü ziyarət edərək görülən işlərdən razı qaldığını bildirmişdir. Dövlət başçısı qarşıda görüləcək işlər barədə öz tapşırıqlarını vermiş, konkret vəzifələr, təşkilati tədbirlər müəyyənləşdirmişdir [18, s.29].

Beləliklə, ulu öndərimiz Heydər Əliyevin böyük uzaqgörənliklə həyata keçirdiyi tədbirlər nəticəsində Şuşa şəhərinin tarixi abidələri bərpa olunmuş, böyük mehmanxana, çoxmərtəbəli yaşayış binaları, inzibati binalar tikilmiş, Şuşa Ümumittifaq səviyyəli kurort şəhərinə çevrilmişdir. Lakin çox təəssüflər olsun ki, Azərbaycanın cənnət məkanı, qədim Oğuz-Türk diyarımız Şuşa şəhəri 1992-ci ildə erməni vandalları tərəfindən ələ keçirilmiş, qədim tarixi abidələrimiz dağıdılmış və yandırılmışdır [15, s.3].

Çox təəssüflər olsun ki, Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ilə bağlı qədim abidələr diyarı olan Şuşa 1992-ci il mayın 8-də erməni vandalları tərəfindən ələ keçirildi. Bu zaman Şuşanın 27 sənaye və tikinti müəssisəsi, 103 mədəni-maarif ocağı, 31 kənd və qəsəbəsi, 249 tarixi abidəsi və

muzeyi erməni quldurlarının əlinə keçdi. Ümumilikdə isə Qarabağ savaşı zamanı Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizi işğal edildi [10, s.2]. İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi, 6000 istehsal obyekti, ümumi sahəsi 9 min kvadrat metr olan 180 min yaşayış binası, 1010 təlim-tərbiyə müəssisəsi, 4545 mədəni-maarif ocağı, 667 tibb müəssisəsi, 927 kitabxana, 464 tarixi abidə və muzey, 40 mindən artıq muzey eksponatı, 100-dən artıq arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası erməni vandalları tərəfindən dağıdıldı [22, s.194].

Tarixi şəxsiyyətlərin böyüklüyü ondadır ki, onlar hər şeyin əvvəlini bildikləri kimi, sonunu da görür və dərk edirlər. Heydər Əliyev də məhz belə dahilərdən idi. Heydər Əliyevin son qərarı əslində Azərbaycana son borcu və xidməti idi. Bu qərardan Azərbaycan dövlətinin taleyi asılı idi. Heydər Əliyev bu son borcunu da şərəflə yerinə yetirdi. Onun 2003-cü il 1 oktyabr tarixində doğma xalqına ünvanlandığı son müraciəti Vətənə ləyaqətlə xidmətin son nümunəsi oldu. Ulu Öndər tarixi müraciətinin sonunda xalqa müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı da göstərirdi: "Üzümü sizə – həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" [22, s 72].

Ulu öndərin bu tarixi müraciətindən keçən on səkkiz il onun dediklərinin reallıqla dərindən uzlaşdığını və söylədiyi fikirlərin yüksək dərəcədə həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində dörd dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə apardığını sübut etdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məqsədyönlü siyasət və dərin islahatlar nəticəsində əldə edilən çoxsaylı uğurlar sırasında ən uca zirvədə 2020-ci ilin 27 sentyabr – 10 noyabr tarixinə kimi davam edən 44 günlük Vətən müharibəsində Müzəffər Azərbaycan Ordusunun Ermənistan üzərində qazandığı parlaq qələbə dayanır [15, s.16]. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan bu qələbə Azərbaycanın dövlətçilik tarixinə qızıl hərflərlə yazıldı. Çünki bu qələbə ölkəmizin ərazi

bütövlüyünü təmin etdi, Ermənistanın uzun sürən işğalçılıq siyasətinə son qoydu və Azərbaycan Respublikası vətəndaşlarının və dünya azərbaycanlılarının qürurunu özünə qaytardı.

Hazırda işğaldan azad olunmuş əzəli Azərbaycan ərazilərinə "Böyük Qayıdış"la əlaqədar ölkəmiz tamamilə yeni bir dövrə qədəm qoyur. Bu mərhələdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müəyyən etdiyi strateji vəzifə həmin ərazilərin ölkə iqtisadiyyatına sürətli reinteqrasiyasını təmin etməkdən ibarətdir. Bu məqsədlə Prezident İlham Əliyevin tapşırıqlarına uyğun olaraq işğaldan azad olunan ərazilərin minalardan təmizlənərək bərpa və yenidənqurma işlərinə başlamaq, o cümlədən sosial-iqtisadi, enerji, kommunal, nəqliyyat infrastrukturunun yaradılması, rasional məskunlaşma siyasətinin həyata keçirilməsi və bununla da doğma yurduna qayıdan vətəndaşlarımıza layiqli yaşayış və işgüzar fəaliyyət üçün hərtərəfli şəraitin yaradılması nəzərdə tutulur. Artıq bu istiqamətdə Prezident İlham Əliyevin nəzarəti altında konkret işlər görülür və bu ilin sonuna kimi bir çox obyektlərin istifadəyə verilməsi təmin ediləcəkdir. Bu günlərdə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirakı ilə Zəngilan rayonunda ilk "ağıllı" kənd layihəsinin və aeroportun tikintisinin təməli qoyuldu və bununla da "Böyük Qayıdış"ın ilk addımları atıldı. Şübhəsiz ki, bu ərazilərdə aparılan bərpa və yenidənqurma işləri ölkəmizdə iqtisadiyyatın, xüsusilə aqrar sektorun, turizmin və digər sahələrin inkişafına güclü təkan verəcək, respublikamızın daha qüdrətli bir diyara çevrilməsinə öz töhfəsini verəcəkdir.

Səkkiz noyabr 2020-ci ildə dövlət başçımızın, şanlı ordumuzun, xalqımızın sarsılmaz iradəsi – birliyi və qardaş Türkiyənin böyük mənəvi dəstəyi ilə Möhtəşəm Şuşa Qalası işğaldan azad edildi [6, s. 91]. Müqəddəs yurd yerimiz Şuşanın işğaldan azad edən cəsarətli sərkərdə, Ali Baş Komandan İlham Əliyev Ata vəsiyyətinə əməl etdi. Şuşaya canlı bir varlıq kimi səsləndi: "Əziz Şuşa, Sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa Bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!". Qarabağ Zəfəri Prezidentin qətiyyətini, müdrikliyini, cəsarətini, etibarlığını nümayiş etdirdi. Bu gün Şuşa şəhərində uğurla böyük quruculuq, bərpa işləri həyata keçirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 may 2021-ci il tarixli sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir. Həmin sərəncamda deyilir: "Şuşa şəhəri tarixən Azərbaycanın tarixi-mədəni, ictimai-siyasi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. 1977-ci ildə xalqımızın Ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə "Şuşa şəhərinin tarixi hissəsini tarix-memarlıq qoruğu elan etmək haqqında" qərar qəbul edilmişdir. Həmin qərar nəticəsində Şuşada abidələrin qorunması, görkəmli mədəniyyət və incəsənət xadimlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində əhəmiyyətli addımlar atılmışdır. Azərbaycana qarşı başladığı

hərbi təcavüz nəticəsində Ermənistan Respublikası 1992-ci il mayın 8-də Şuşa şəhərini işğal etmiş və şəhərdə xalqımızın tarixi-mədəni irsinin məhv edilməsi siyasətini həyata keçirmişdir. Ordumuzun qətiyyətli mübarizəsi ilə tarixi ədalət bərpa edilmiş və 2020-ci il noyabrın 8-də Şuşa şəhəri işğaldan azad olunmuşdur. Şəhərə, onun tarixi-mədəni irsinə və təbiətinə vurulmuş zərərin təxirə salınmadan inventarizasiyası aparılmış, bərpa işlərinə başlanılmışdır. Bərpa-quruculuq işlərinin təşkilində çevikliyi və səmərəliliyi təmin etmək üçün Şuşada dövlət idarəetməsinə də böyük diqqət yetirilmişdir. Azərbaycan Respublikası Prezidentinin işğaldan azad olunmuş ərazilərdə ilk xüsusi nümayəndəsi məhz Şuşa rayonuna təyin edilmişdir.

Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. Bu baxımdan Şuşada dövlət idarəetməsinin və hüquqi tənzimləmənin daha da təkmilləşdirilməsi şəhərdə tarixi-mədəni irsin bərpasına və qorunub saxlanmasına xidmət etməklə yanaşı, onun daim inkişafına şərait yaradacaqdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Şuşa şəhərinin tarixi görkəminin bərpası, əvvəlki şöhrətinin özünə qaytarılması və ənənəvi dolğun mədəni həyatına qovuşması, eləcə də Azərbaycanın çoxəsrlik zəngin mədəniyyətinin, memarlıq və şəhərsalma sənətinin parlaq incisi kimi beynəlxalq aləmdə təbliği məqsədilə **qərara alıram**:

1. Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin" [6, s.18].

Bütün bunlarla yanaşı, dövlətin və xalqın maraqlarını daim uca tutan Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2022-ci ilin "Şuşa İli" elan edilməsi haqqında sərəncam imzalayıb. Həmin sərəncamda deyilir: "Qarabağın tacı olan Şuşa xalqımız üçün müqəddəs və əziz məkandır. Şuşa sevgisi hər bir azərbaycanlının mənəvi varlığının ayrılmaz parçasıdır... Şuşa şəhərinin ötən əsrin 70-ci illərində sürətli inkişafı Ümummilli liderimiz Heydər Əliyevin adı ilə sıx bağlıdır. Şəhərin inkişafına dair xüsusi qərarlar məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilmişdir. Həmin vaxtdan Şuşada quruculuq işləri geniş vüsət almış, mədəniyyət xadimlərimizin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atılmışdır... Şuşa zəfərindən dərhal sonra şəhərdə infrastrukturun qurulması ilə yanaşı, tarix və mədəniyyət abidələrinin bərpasına başlanılmış, quruculuq işlərinin təşkilində çevikliyin, səmərəliliyin təmin olunması üçün burada dövlət idarəetməsinə böyük diqqət yetirilmiş, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi yaradılmışdır. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşada bu gün şəhərin əsl tarixi simasının bərpası yönündə nəhəng layihələr gerçəkləşdirilir. Qısa müddətdə Şuşanın Baş planının hazırlanması, qüdrətli şair Molla Pənah Vaqifin büstünün və muzey-məqbərə kompleksinin

öz ilkin görkəminə qaytarılması, Bülbülün ev-muzeyinin və Üzeyir Hacıbəylinin heykəlinin açılışları, habelə buradakı tarixi, dini və memarlıq abidələrinin bərpası prosesi ölkəmizin mədəniyyət paytaxtındakı kompleks işlərin tərkib hissəsidir. Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının və Vaqifin möhtəşəm məqbərəsi önündə Vaqif Poeziya Günlərinin təşkili ənənəsinin bərpası da göstərir ki, Şuşa sürətlə dirçələrək əvvəlki dolğun mədəni həyatına qovuşmaq yolundadır".

Prezidenti İlham Əliyevin apardığı quruculuq işləri və həyata keçirdiyi uzaqgörən siyasət sayəsində əldə olunan nailiyyətlər bir daha təsdiq edir ki, Ulu öndər Heydər Əliyevin ideyaları yaşayır və zəfər çalır. Biz hamımız inanırıq ki, İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Respublikası Heydər Əliyev ideyalarına uyğun olaraq gündən-günə inkişaf edən, böyük iqtisadi potensiala malik və demokratik bir ölkə kimi öz suverenliyini, ərazi bütövlüyünü və liderliyini daim saxlayacaqdır!

## ƏDƏBİYYAT

1. ARDTA, f.349, s.44, i.68, v.649
2. *Adıgözəlov M.* Qarabağnamə. Bakı, 1950, 418 s.
3. Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə, X c., Bakı, 1987, 968 s.
4. Azərbaycan tarixi: 7 cilddə, VII c. Bakı: Elm, 2003, 626 s.
5. *Axundov P.* Yadigar qorunmalıdır: Şuşa abidələrlə də məşhur şəhərdir / "Ədəbiyyat və incəsənət" qəz., 1990, 12 oktyabr
6. *Cahangir Hüseyn Əfşar.* Qarabağ Azərbaycandır! Qarabağnamə. Bakı, 2021, 300 s.
7. *Çingizoğlu Ə.* Şuşa şəhəri (1750-1850). Bakı: Şuşa, 2009, 248 s.
8. *Dəlili H.* Şuşanın tarixi // Elm və həyat, 1977, №7, s.32-33
9. *Əliyev H.* Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında / "Respublika" qəz., Bakı, 2000, 20 dekabr
10. *Əliyev H.Ə.* Şuşa və Laçın xəyanətlərini xalqımız heç vaxt bağışlamayacaq / "Azərbaycan" qəz., Bakı, 1996, 15 may
11. *Əkbərzadə Ş.* Şuşam mənim / "Azərbaycan gəncləri" qəz., Bakı, 1983, 13 yanvar
12. *Əliyev T.* Şuşa daha da abadlaşır / "Sovet kəndi" qəz., Bakı, 1977, 1 noyabr
13. *Fərzəli Ə.* Şuşa – işıq səhər. "Azərbaycan gəncləri" qəz., Bakı, 1989, 2 sentyabr
14. *Hüseynov Y.* Şuşa və şuşalılar. Bakı: Şuşa, 2015, 152 s.
15. *İmanov C.* Vətən müharibəsi: 44 günlük Zəfər tarixi. Bakı, 2021, 80 s.
16. *Kərimli K.* Hələ Şuşalıykən. Bakı: Azərbaycan, 1995, 134 s.
17. *Kərimli K.* Ürəyimin şüşəsi Şuşa. Bakı: Azərbaycan, 1993, 198 s.
18. *Quliyev V.* Şuşadakı memarlıq abidələri // "Mədəni-maarif işi", 1985, №3, s.28-29.
19. *Quliyev Z.* Şuşanın işğalından 5 il keçir / "Azərbaycan" qəz., 1997, 8 may
20. *Mahmudov Y., Mustafayev C.* "Şuşa-Pənahabad". Bakı: Təhsil, 2012, 152 s.

21. *Məmmədov N.R.* Şuşanın qədim tarixi / “Kredo” qəz., Bakı, 2020, 6 noyabr, №40, s.2
22. *Məmmədov N.R.* Azərbaycan Respublikası Şuşa şəhərinin tarixi. Bakı: Avropa, 2016, 960 s.
23. *Məmmədov N.R.* Şuşa şəhərində muzeylərin inkişafı (1970-1985) // Milli Azərbaycan tarixi, Bakı, 2008, s.274-283
24. *Məmmədov N.R.* Heydər Əliyevin milli-mədəni dirçəliş siyasəti və Şuşa şəhərində maddi mədəniyyətin dinamik inkişafı // AMEA Naxçıvan bölməsi “Xəbərlər”, 2008, s.42-48
25. *Məmmədov N.R.* Şuşa və şuşalılar. Bakı, 2004, 129 s.
26. *Məmmədov N.R.* Azərbaycanın Şuşa qəzası 1900-1917-ci illərdə. Bakı, 2005, 290 s.
27. *Məmmədov N.R.* Şuşa Qarabağın mərkəzi, mədəniyyət ocağıdır // ADPU-nun Xəbərləri, Bakı, 1998, s.92-93.
28. *Məmmədov B.* Şuşanın dünəni, bu günü, sabahı // “Azərbaycan”, 1988, №12, s.155-162
29. *Məmmədov P.* Daşaltı (Şuşa qayalığı) / “Azərbaycan gəncləri” qəz., Bakı, 1997, 2 avqust
30. *Nuriyev S.* Şuşanın axşamları // Təşviqatçı, 1986, №9, s.43-45
31. *Veysəlli N.* Qartal qanadlı şəhər (Şuşa) // “Azərbaycan”, 1985, №6, s.121-130

Redaksiyaya daxil olub 11.02.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №1, s. 78-84
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №1, pp. 78-84

*UOT 39*

***S.X.Musayeva***
*AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu*
*aliyarbeyova.s@mail.ru*

# SAXURLARDA "QIZBƏYƏNMƏ" ADƏTİ

***Açar sözlər:*** *saxurlar, toyaqədərki mərhələ, qızbəyənmə, araçı, ailə-məişət*

Məqalədə Azərbaycanın Şəki-Zaqatala bölgəsində yaşayan saxurların evliliyin toyaqədərki mərhələsində əsas yer tutan "qızbəyənmə" adəti etnoqrafik aspektdən müqayisəli şəkildə araşdırılmışdır. Qızbəyənmə zamanı qızın axtarışı, oğlanın qızı görməsi, oğlanın bəyəndiyi qızın ona münasibətinin müəyyənləşdirilməsi, araçılar vasitəsilə həm oğlan, həm də qız tərəfin hərtərəfli öyrənilməsi, bəyənilən qızın sınaqlardan keçirilməsi tədqiqata cəlb edilmişdir. Bu işin baş tutmasında yəni "ara düzəltmə" işində araçıların böyük rolu olur. Bu şəxslər oğlan və qız tərəfə geniş məlumatlar verir, razılığa gəlmə prosesində mühüm rol oynayırlar. Araçıların qız evindən razılıq aldıqdan sonra oğlan evinin elçiliyə hazırlanması diqqətə çatdırılmışdır. Məqalədə bu adətin digər azsaylı xalqlar, o cümlədən azərbaycanlılarla oxşar və fərqli xüsusiyyətləri verilmişdir.

***С.Х.Мусаева***

## ОБЫЧАЙ ВЫБОР ДЕВУШКИ – "ГЫЗБЕЙЕНМЕ" У ЦАХУРОВ

***Ключевые слова:*** *цахуры, предсвадебный этап, выбор девушки – "гызбейенме", посредник, семейный быт*

В статье в этнографическом аспекте в сравнении исследуется обычай выбор девушки – "гызбейенме", занимающий особое место в добрачным этапе брака у цахуров, проживающих в Шеки-Загатальском районе Азербайджана,

Вовлечены в исследование поиск девушки при "гызбейенме", встреча юноши с девушкой, определение отношения понравившейся ему девушки к нему, тщательное изучение как парня, так и девушки через посредников, проверка понравившейся девушки. В этом процессе важная роль отводилась посредникам, Они предоставляли обширную информацию семье юноши и девушки, играют важную роль в процессе согласия. Рассказывается о подготовке семьи юноши к сватовству после того как посредники получают согласие со стороны семьи девушки. В статье приводятся сходные и различные черты этого обычая у других меньшинств, в том числе у азербайджанцев.

**S.Kh.Musaeva**

# CUSTOM OF CHOOSING A GIRL – "GİZBEYENME" OF THE TSAKHURS

***Keywords:*** *tsakhurs, pre-marriage stage, "gizbeyenme", intermediary, family life*

The article comparatively examines the ethnographic custom of the pre-marriage stage of the Tsakhurs, "gizbeyenme", living in Sheki – Zagatala region of Azerbaijan. "Gizbeyenme" – included the search for the girl, the acquaintance of the guy with the girl, the determination of the relationship with the girl he liked, the careful study of the guy and the girl through intermediaries, testing the girl he liked. These people provided extensive information to the family of a guy and a girl. After the intermediaries received permission from the girl's house the guy's family was preparing for the matchmaking. The article gives similar and different features of this custom among other minorities, including Azerbaijanis.

Azərbaycan etnoqrafiya elminin qarşısında duran ən mühüm məsələlərdən biri də respublikanın müxtəlif bölgələrində yaşayan etnik azlıqları öyrənməkdən ibarətdir. Xüsusilə ailə məişətinin ayrıca tədqiqatına ehtiyac duyulur. Etnoqrafların evlilik mərasimlərinə marağı onunla izah olunur ki, ailə həyatında etnik spesifiklik hələ də qorunub saxlanılır, bundan əlavə ailə kollektivi etnik qrupun çoxalmasının ən mühüm sahəsi, onun məişətinin, ənənələrinin daşıyıcısı və davamçısı olaraq qalır. Ona görə də keçmişdə və indi ailə-məişət münasibətlərinin bir çox məsələlərinin öyrənilməsi müasir milli-etnik prosesləri dərk etmək üçün olduqca vacibdir.

Aydındır ki, ailə məişətində ən zəruri yerlərdən birini toy mərasimi tutur. Etnoqraf tədqiqatçılar Azərbaycan türkləri, eləcə də ölkədə məskunlaşan digər xalqlar arasında toy mərasiminə qədər bir neçə mərhələnin olduğunu yazırlar. Məsələn, qızbəyənmə, elçilik, nişan bu qəbildəndir. Ən axırda isə toy mərasimi icra edilir. Tarix boyu saxurlar məskunlaşdıqları ərazilərdə qonşu xalqlarla – avarlar, azərbaycanlılar, rutullar, ləzgilər, gürcülər, ingiloylarla və başqaları ilə ünsiyyət qurmuşlar. Onlar əsrlər boyu vahid ərazidə və oxşar ailə-məişət xüsusiyyətlərinin təsiri altında yaşamışlar. Belə millətlərarası əməkdaşlıq bu sahədə qarşılıqlı zənginləşməyə gətirib çıxarmışdır.

Biz burada tədqiqat obyekti olaraq seçdiyimiz Azərbaycan türkləri ilə iç-içə yaşayan saxurların ailə məişətində xüsusi yerə malik "qızbəyənmə" adəti haqqında məlumat verəcəyik.

Azərbaycanın müxtəlif etnoqrafik bölgələrində olduğu kimi, XIX-XX əsrin əvvəllərində saxurlar arasında "qızbəyənmə" adəti də eynilik təşkil edirdi. Topladığımız etnoqrafik materiallar göstərir ki, saxurlar oğul evləndirərkən yaxın həndəvərdə qız "axtarışına" başlayardılar. Saxurlarda ailə qurmaq üçün əvvəlcə gələcək həyat yoldaşı olacaq qız seçilməli və bəyənilməli idi. Elmi

ədəbiyyatda saxurlarda bir oğlanın qız bəyənməsi özünəməxsus xüsusiyyətlərlə fərqlənir. Qızın axtarışı zamanı oğlan yaxın bildiyi adamlara – qohumlarına və ya dostlarına hansı qızla evlənəcəyini bildirirdi. Oğlanın qızı görməsi bulaq başında, şənliklərdə, mərasimlərdə, toylarda baş verirdi. Oğlan bəyəndiyi qızın ona münasibətini "su istəmə", qız isə "dəsmal atma" vasitəsilə müəyyənləşdirirdi. Qız bəyənildikdən sonra hər iki ailə bir-biri haqqında məlumat toplayırdı. Oğlan ailəsi gələcək həyat yoldaşı seçərkən o, bir qızın, ən əsası, tənbəl olmamasını, zümrə bərabərliyi, yəni sinfi təbəqə bərabərliyi, qızın sağlam olmasını əsas götürürdülər. Çünki evin qadını bütün ev işlərini görə bilməli, yəni evdə, tarlada, bağda və s. işləməyi bacarmalı idi. Burada reallıq ondan ibarətdir ki, gələcək evin sahibəsi hər şeyin öhdəsindən uğurla gəlməli, çoxsaylı ev işləri görməyi bacarmalıdır. Bununla belə, həm saxur oğlanı, həm də onların valideynləri uşaqların doğulmadığı və ya zəif, xəstə doğulduğu, fiziki qüsurlu və s. bir nəsildən qız bəyənmirdi. Gənc qızlar valideynlərin təkidi ilə ərə gedər, gənclər evlənə bilərdilər.

Saxurlarda yaz bayramında – Novruz ərəfəsində hər nəsil öz məhəlləsində bir yerə yığışar, baharın gəlişi münasibətilə müxtəlif mərasim ayinləri icra edərdilər. "Bu zaman gənclər qız bəyənmək, ürəklərini aça bilmək üçün fürsət tapar, dəf çalıb mahnı oxuyar, birlikdə rəqs edərdilər. Qızlar növbə ilə "Pərizadə" mahnısını oxuyardılar. Onların yanına bəzən oğlanlar da gələr, gənclər deyişərdilər" [4, s.123]. Beləliklə, saxurlarda da oğlanların qızları seçmələri, qızların isə oğlanları görmələri üçün ən əlverişli məkan şənlik mərasimləri idi.

Gəlinin seçimində təşəbbüs, bir qayda olaraq, bəyin valideynlərinə məxsus idi" [7, c.182]. Qohumdan, heç olmasa yaxşı ailədən gəlin seçməyə çalışırdılar. Gəlin seçərkən çalışqanlıq və fiziki sağlamlıq xüsusi əhəmiyyət kəsb edirdi ki, bu da onun gələcək ailədəki mövqeyi ilə bağlıdır. Gəlin tərəfindən bəyə oxşar tələblər qoyulurdu. Qız tərəfi də oğlan və onun ailəsi haqqında ətraflı məlumat toplayardı. "Qız tərəfi üçün önəmli cəhətlər: oğlanın peşəsi, pis vərdişlərin olub-olmaması, içkiyə meyilliliyi, ev şəraiti, ailənin gəlinə münasibəti, xüsusən oğlanın anasının necə insan olması idi. Çünki gəlin ailədə daha çox qayınanası ilə münasibətdə olurdu" [3, s.67]. Bununla da qız tərəfi də gələcək ailənin təməllərini möhkəmləndirən amillərə diqqət yetirirdi.

Qız seçildikdən sonra oğlan evi elçiliyə hazırlaşardı. Lakin rəsmi elçilikdən əvvəl bəy tərəfindən gəlin evinə "araçı" adlanan vasitəçi göndərilirdi. Onlar qızın iş bacarığını, qabiliyyətini, fiziki sağlamlığını, valideynlərinin kimliyini xüsusi şərt olaraq qəbul edirdilər. Çalışırdılar ki, el-oba, nəsil, tayfa içərisində hörmət-izzət sahibi olan kişilərin, qoçaq və bacarıqlı qadınların qızlarını seçsinlər. Saxurlarda qızbəyənmə zamanı qızın anasına xüsusi diqqət yetirilirdi. Ona görə də saxurlarda belə bir atalar sözü geniş yayılmışdır: "Anasına bax qızını, atasına bax oğlunu seç" [10, c.245]. Bu xüsusda etnoqraf

H.Q.Qədirzadə yazır ki, qız seçimi zamanı əsasən qızın anasının kimliyinə diqqət yönəldərdilər [3, s.45]. Xalq arasında dolaşan "Anası gəzən ağacı balası budaq-budaq gəzər", "Qırağına bax bezini al, anasına bax qızını al" kimi məsəllər də bununla əlaqədar yaranmışdır. Azərbaycan türklərinin işlətdikləri bu ifadələr saxurlar, həmçinin qonşu Gürcüstan Respublikasında yaşayan azərbaycanlılar içərisində də yayılmışdır [2, s.40].

Etnoqrafik materiallara əsasən saxurlarda hər valideyn öz ailəsinə münasib uyğun qız seçməyə təşəbbüs göstərərdi. Varlı varlının, kasıb isə kasıbın qızına "müştəri" gözü ilə baxardı. Varlı ilə kasıbın bir-birindən qız seçməsi mümkün olan iş deyildi. Bu haqda yaşlı adamlar indi də danışırlar.

Məlumatçımızın verdiyi məlumata görə, evin gələcək sahibəsi hər şeyin öhdəsindən uğurla gəlməyi və çoxsaylı ev işlərini görməyi bacarmalı idi [11]. Bununla belə, həm saxur oğlanı, həm də onların valideynləri uşaq doğulmayan və ya zəif, xəstə, fiziki cəhətdən qüsurlu doğulan ailələrdən qız bəyənməz, seçməzdilər. Etnoqraf Ş.Bünyadova yazır ki, "gələcək ailə həyatının qurulmasında əsas məsələlərdən biri məhz gəlinliyə namizədin seçilməsidir. Bu, vacib məsələ kimi ailənin evlilik planlarında hər bir dövr üçün əhəmiyyətli yer tutmuşdur. Belə ki, hər bir ailə öz daxili qaydalarına uyğunlaşa biləcək, evin tələblərinə uyğun şəkildə davranacaq və əsli, nəsli öz səviyyələrinə müvafiq olan bir qızı özlərinə gəlin seçməyi əsas şərt hesab etmişdir. Eyni zamanda gəlin seçilən qızın sağlamlığı, təsərrüfatda yaxşı işləyə bilməsi, zirək olması, əməksevərliyi də əksər ailələr üçün vacib şərt sayılmışdır" [1, s.21].

Məlumatçılarımızın dediyinə görə, qızın seçilməsi, bəyənilməsi zamanı təkcə onun iş qabiliyyətinə deyil, ağıllı, dərrakəli, həyalı olmasına da xüsusi diqqət yetirilərdi. Gənclər qızbəyənmə zamanı məhz qızın davranışını, sevgisini, ağıllı və digər keyfiyyətlərini nəzərə alırdı. Həmin keyfiyyətlərə malik qızlar gələcək ailə nikahlarına sadiqlikləriIə fərqlənərək bir tərəfdən ailə büdcəsinin artırılmasına, digər tərəfdən icma münasibətlərinin bütövlükdə nəsil üzvləri arasındakı əlaqələrin güclənməsinə səbəb olur. Mövcud yanaşmaya XIII əsrin böyük mütəfəkkir alimi Nəsirəddin Tusinin əsərində də rast gəlirik. O, yazır ki, qızın "özü gözəl, əsli nəcib, ailəsi dövlətli isə, bütün məziyyətlər bir yerə toplanmış olar, üstünə əlavəyə heç bir ehtiyac qalmaz. Bu xüsusiyyətlərin bəzisi olmasa da, ağıl, iffət (ismət) və həya mütləq vacibdir. Yerdə qalan üç xüsusiyyəti: gözəllik, sərvət, əsil-nəcabəti o birilərindən üstün tutmaq, din və dünya işlərinə xələl gətirib fəlakət və həlakətə səbəb ola bilər" [5, s.152]. Göründüyü kimi, N.Tusi qızda ağlın, ismətin və həyanın olmasını vacib şərt kimi irəli sürmüşdür.

Yeri gəlmişkən deyək ki, "bahar bayramında yelləncəkdə yellənmək ənənəsi bir çox türk xalqları, o cümlədən Orta Asiya xalqları üçün də xarakterik idi. Bəzən yelləncək mərasimində təkcə gənclər deyil, yaşlı-cavan hər kəs

iştirak edirdi. Belə ki, inama görə yelləncəkdə yellənənin günahları yel kimi sovrulub dağılardı” [8, s.32].

Verilən məlumatlara görə, keçmişdə saxurlar Bahar bayramı zamanı əhalinin yığışdığı yerə alma, qoz, rəngli yumurtalarla bəzədilmiş şax da gətirərdilər. Gənclər şaxdakı bu nemətlərdən götürməyə can atardılar. Bəlkə də “bu, gənclərin öz qismətlərinə tezliklə qovuşması arzusunu ifadə edirdi [7, s.182]. Onu da deyək ki, almanın rəmzi mənası vardır. Məsələn, qırmızı alma qismət, tale, həmçinin xoş gün, sevinc rəmzi kimi düşünülürdü. Ona görə də toy sinilərinə həmişə qırmızı alma qoyardılar. Azərbaycanlılar arasında qırmızı alma ilə bağlı bayatılar da mövcuddur:

*Əzizinəm, dənə ver,*
*Dur say dənə, dənə ver.*
*Ağ almanı özün ye,*
*Qırmızını mənə ver.*

Saxurlar yaşayan müxtəlif kəndlərdən topladığımız etnoqrafik materiallara əsasən deyə bilərik ki, uzun illər öncə nəinki digər kəndə, hətta başqa tayfaya və nəslə qız verilməzdi. Bu fikri saxurların adət-ənənəsinə yaxşı bələd olan məlumatçımız danışır ki, qabaqlar bizim kəndlərdə obalar var idi. Məsələn, Yarakoba, Talaoba, Kələkoba və s. Bu obalar kənddəki nəslin, tayfanın adlarını bildirirdi. Bir obadan olanlar digər obanın oğlanlarına qız verməzdilər [12]. Etnoqraf alim S.Hacıyeva yazır ki, “Qızların başqa cəmiyyətlərə, hətta daha çox başqa etnik qruplara verilməsi nadir hadisə idi. Bu qayda şifahi xalq yaradıcılığında da öz əksini tapmışdır. Bir atalar sözündə deyildiyi kimi: “Saf qızıl çayda üzməz, yaxşı qız kənddən getməz” [6, s.147]. Hazırda bu cür adətlər aradan götürülmüşdür. Oğlanlar istədikləri nəsildən, tayfadan, kənddən özlərinə münasib qızlar seçirlər.

Onu da deyək ki, saxurlar məskunlaşan bəzi kəndlərdə, o cümlədən Suvagildə qızları bulaqdan su gətirən zaman və ya nişanda, toyda bəyənib seçərdilər. Bu xüsusda Naxçıvanın ailə-məişətinin tədqiqatçısı Hacı Qadirin fikri da maraqlıdır. O, yazır ki, “maraqlı məsələlərdən biri oğlanın qızı harada görməsidir, yəni ilk tanışlığıdır. Naxçıvan ərazisindən toplanmış materiallara əsasən oğlanlar qızları bulaq başında (bulaq üstündə) görərdilər. Qızlar bulaq başına gəlib səhəngini doldurar və söhbət edərdilər. Bu vaxt qız bəyənəcək oğlanlar su içmək bəhanəsi ilə bulaq başına gələrdilər. Oğlan könlünü bildirmək istədiyi qızdan içmək üçün su istərdi. Qız mehribançılıq göstərib su verirdisə, deməli, ilkin razılıq almışdır. Əksinə, qız razı olmadıqda oğlana deyərdi ki, get, bulaqdan su iç. Bu, bir tərəfdən “qızbəyənmə” ilə bağlıdırsa, digər tərəfdən qızın həddi-buluğa çatmasını göstərir” [3, s.44].

Saxurlarda fərqli "qızbəyənmə" adəti ondan ibarətdir ki, araçılar qız evindən razılıq aldıqdan sonra bəyin yaxın qohumlarından ata-ana, əmi və bibilərlə gəlinin evinə getməyə hazırlaşırlar. Bununla belə, razılıq adətən üçüncü cəhddə verilir. Saxurlar arasında gəlin evindən araçılar razılıq alardılar. "Təklifi qəbul edəndən sonra bəy tərəfdən ən hörmətli qohumlardan bir neçəsi yekun razılıq əldə etmək üçün gəlinin evinə gedərdilər. Həmin gün gəlinin evinə beh-əmanət gətirilirdi, onun əsas tərkib hissəsi "gül yaylığa" bükülmüş gümüş pul olardı. Gümüş pulun təqdim edilməsi bütün etnik qruplar üçün xarakterik idi. Puldan əlavə bir-iki qoyun (çox zaman qara rəngdə olardı), bir təndir çörəyi, xırda qoz və eyni sayda şabalıd, yumurta, meyvə və bir neçə xörək halvası da gətirərdilər" [9, c.130]. Saxurlar arasında yuxarıdakılardan əlavə böyük bir xörək plov da olardı. Qızbəyənmədən sonra elçiliyin vaxtı barədə razılığa gələrdilər və bunun üçün həftənin uğurlu günlərini seçərdilər. Xalq arasında qız istəmə – elçilik mərasiminin gününün, saatının seçilməsinə diqqət edilirdi

Onu da deyək ki, istər Zaqatalanın Suvargil, istərsə də Azərbaycanın digər bölgələrindən fərqli olaraq Axaxdərədə vəziyyət tamam başqa cür idi. Belə ki, bu kəndin adətinə görə, yaz aylarında subay qızlar bir evə yığışar və əyləndikləri otağın pəncərəsini açıq qoyardılar. Evlənmək istəyən oğlanlar açıq pəncərədən içəri papaq atardılar. Papağı tutan qız pəncərənin önünə yaxınlaşıb papağın yiyəsini görərdi. Əgər qız oğlanı bəyənərdisə, onda papağı özündə saxlayardı. Əks təqdirdə, o, papağı sahibinə qaytarırdı.

Apardığımız araşdırmadan məlum olur ki, əvvəllər Axaxdərədə mövcud olan bu adətə saxurlar yaşayan digər kəndlərdə, eləcə də respublikamızın digər bölgələrində rast gəlinməmişdir.

Beləliklə, saxurlar arasında mövcud olan "qızbəyənmə" adəti ilə bağlı apardığımız tarixi-etnoqrafik tədqiqatdan bəlli olur ki, sözügedən adət Azərbaycanın digər bölgələrində olduğu kimi idi. Bununla belə, bəzi fərqlərdə özünü göstərməkdədir. Belə ki, Axaxdərə kəndində icra olunan "qızbəyənmə" adəti nəinki respublikamızın bu və ya digər kəndlərində, eləcə də saxurların yaşadığı digər kəndlərdə də mövcud olmamışdır. Əgər olmuşdusa da, görünür, yaddaşlardan silinib getmişdir. Eyni zamanda əvvəllər "qızbəyənmə"də olan qadağalar (başqa nəsildən, kənddən qız bəyənməmək, seçməmək və s.) aradan qaldırılmışdır.

## ƏDƏBİYYAT


1. *Bünyadova Ş.* Orta əsrlərdə ailə. Bakı: Elm, 2012, 384 s.
2. *Əliyev Ə.* XIX-XX əsrin əvvəllərində Gürcüstan azərbaycanlılarının ailə-məişəti (tarixi-etnoqrafik tədqiqat). Bakı: Elm və təhsil, 2012, 156 s.

3. *Qədirzadə Q.* Ailə və məişətlə bağlı adətlər inamlar, etnogenetik əlaqələr. Bakı: Elm, 2003, 368 s.
4. *Paşayeva M.* Azərbaycanlıların ailə mərasimlərində etnik ənənələr (XIX-XX əsrin əvvəlləri. Şəki-Zaqatala bölgəsinin materialları üzrə). Bakı: Azərnəşr, 2008, 308 s.
5. *Tusi Nəsrəddin Xacə.* Əxlaqi-Nasiri (Farscadan tərcümə edəni Rəhim Sultanov). Bakı: Lider, 2005, 280 s.
6. *Гаджиева С.Ш.* Семья и брак у народов Дагестана в XIX – нач. XX в. Москва: Наука, 1985, 359 с.
7. *Ихилов М.М.* Народности лезгинской группы (С древнейших времен до начала XIX века). Махачкала, 1967, 262 с.
8. *Кисляков Н.А.* Очерки по истории семьи и брака у народов Средней Азии и Казахстана. Ленинград: Ленинград, 1969, 241с.
9. *Летифова Э.М.* О свадебных обрядах населения Илисуйсого султанства // Bakı Universitetinin Xəbərləri. Humanitar elmlər seriyası, 2005, № 3, с.130-137
10. *Мусаев Г.М.* Цахуры в XVIII-XIX вв.: историко-этнографическое исследование XVIII-XIX вв. Махачкала: ИД "Эпоха", 2009, 320 с.


Məlumatçılar

1. Musayev Ramiz Əhməd oğlu - Qax rayonunun Güllük kənd sakini, təvəllüdü-1949-cu il
2. Turacov Turac Musa oğlu - Zaqatala rayonunun Suvagil kənd sakini, təvəllüdü -1961-ci il, milliyyəti – saxur

Redaksiyaya daxil olub 05.01.2022

# Pedaqoji-psixoloji elmlər

*UOT 37*

***Ş.Q.Əliyeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*aliyevashaxla@mail.ru*

## TƏBİƏTLƏ TANIŞLIQ PROSESİNDƏ ÜMUMİ NİTQ İNKİŞAFINDA LƏNGİMƏ OLAN UŞAQLARIN SAVAD TƏLİMİ ÜÇÜN OPTİMAL ŞƏRAİTİN YARADILMASI

***Açar sözlər:*** ətraf aləm haqqında təsəvvürlər, canlı təbiət, böyük yaşlı məktəblilər, ümumi nitq inkişaf ləngiməsi olan uşaqlar, savad təliminə zəmin, yazılı nitq, oxu və yazı pozulmaları

Məqalədə ətraf aləm haqqında təsəvvürlərin səviyyəsinin öyrənilməsinə yönəlmiş empirik tədqiqatın nəticələri və ümumi nitq inkişafsızlığı olan böyük məktəbəqədər yaşlı uşaqlarda savad təliminə ehtiyacın olmasına zəmin yaradılması təqdim olunur. Tədqiqatımızda kəmiyyət və keyfiyyət təhlili əsasında aşkar edilmiş xarakterik xüsusiyyətlər öz əksini tapır. Nəticədə biz ümumi nitq inkişafı ləngiməsinə malik olan böyük məktəbəqədər yaşlı uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin formalaşmasının səviyyələrini fərqləndirə bildik. Məqalədə həmçinin ümumi nitq inkişafsızlığı olan böyük məktəbəqədər yaşlı uşaqlarda savad təliminə zəminin formalaşdırılması istiqamətində təsdiqedici eksperimentin nəticələri və şərti norma təqdim olunur. Oxu və yazının mənimsənilməsini təmin edən funksional bazisin inkişafı şifahi nitqin və koqnitiv proseslərin inkişafını nəzərdə tutur. Savad təliminə hazırlıq sağlamlıq imkanları məhdud olan uşaqlarla işləmək üçün vacib bir pillədir.

***Ш.Г.Алиева***

## СОЗДАНИЕ ОПТИМАЛЬНЫХ УСЛОВИЙ ДЛЯ ОБУЧЕНИЯ ДЕТЕЙ С ОБЩЕЙ РЕЧЕВОЙ ЗАДЕРЖКОЙ В ПРОЦЕССЕ ЗНАКОМСТВА С ПРИРОДОЙ

***Ключевые слова:*** *представления об окружающем мире, живая природа, старшие дошкольники, дети с общей задержкой речи, основы грамотности, письменная речь, нарушения чтения и письма*

В статье представлены результаты эмпирического исследования, направленного на изучение уровня восприятия окружающего и создание базы для обучения грамоте детей старшего дошкольного возраста с общим недостатком речевого развития. В нашем исследовании представлены

характерные черты, выявленные на основе количественного и качественного анализа. В результате удалось дифференцировать уровни сформированности представлений об окружающем мире у старших дошкольников с общей задержкой речевого развития. Также в статье представлены результаты подтверждающего эксперимента и условная норма для формирования базы обучения грамоте старших дошкольников с общим речевым развитием. Развитие функциональной основы, обеспечивающей овладение чтением и письмом, предполагает развитие устной речи и познавательных процессов. Обучение грамоте является важным шагом в работе с детьми с ограниченными возможностями.

***Sh.G.Aliyeva***

## CREATING OPTIMAL CONDITIONS FOR TEACHING CHILDREN WITH GENERAL SPEECH DELAY TO LITERACY IN THE PROCESS OF DISCOVERING NATURE

***Keywords:*** *perceptions of the world around them, wildlife, older schoolchildren, children with general speech retardation, the basis of literacy, written speech, reading and writing disorders*

The article presents the results of empirical research aimed at studying the level of perceptions of the environment and the creation of a basis for literacy training in older preschool children with a general lack of speech development. In our study, the characteristic features revealed on the basis of quantitative and qualitative analysis are presented. As a result, we were able to differentiate the levels of formation of perceptions of the world around older preschool children with general speech developmental delays. The article also presents the results of a confirmatory experiment and a conditional norm to form the basis for literacy training in older preschool children with general speech development. The development of a functional framework that ensures the mastery of reading and writing implies the development of oral speech and cognitive processes. Literacy training is an important step in working with children with disabilities.

Nitq insanın inkişafında vacib rol oynayır. Natamam nitq inkişafı uşağın bütün fəaliyyət sferalarına neqativ təsir edir: idrak proseslərinin formalaşmasında çətinliklər yaranır, yadda saxlamanın məhsuldarlığı azalır, məntiqi və semantik hafizə pozulur, uşaqlar fikri əməliyyatları çətinliklə mənimsəyirlər, bütün ünsiyyət formaları və şəxsiyyətlərarası münasibətlər pozulur. Bu cür pozulmalar ümumi psixi inkişafda aparıcı rol oynayan oyun fəaliyyətinin inkişafını ləngidir.

Lüğət nitq inkişafının vacib komponentidir. Bu nöqteyi-nəzərdən leksik tərəfin tədqiqi uşaq nitqinin inkişafı sahəsinin prioritet istiqamətidir. Nitqin leksik tərəfinin əsas tərkib hissəsi feildir.

Ümumi nitq inkişafı ləngiməsi olan uşaqlarda lüğətin formalaşması xüsusiyyətlərinin tədqiqi ilə N.Y.Boryakova, T.A.Matrosova [1], N.V.Zorina, R.İ.Lalayeva, N.V.Serebryakova [2], L.A.Tişina [3], T.V.Tumanova, T.B.Filiçeva [5] və başqaları kimi müəlliflər məşğul olmuşlar.

Ətraf aləm haqqında biliklərin və təsəvvürlərin inkişafı böyük məktəbəqədər yaşlı uşaqların feili lüğətlərinin zənginləşməsi üçün əsas vasitədir. Bu məqam ümumi nitq inkişafı ləngiməsi olan uşaqların korreksiya işində böyük mahiyyət daşıyır.

Məktəbəqədər yaş dövründə uşağın lüğətinin aktivləşdirilməsi və genişləndirilməsi məktəbdə müvəffəqiyyətli təhsil almaq üçün çox əhəmiyyətlidir. Tədqiqatın aktuallığı ümumi nitqində inkişaf ləngiməsi olan böyük məktəbəqədər yaşlı uşaqların feili lüğətinin effektiv mənimsənilməsinə və ətraf aləm haqqında təsəvvürlərin inkişafına kömək edən korreksiya-inkişafetdirici təlimin üsul və yollarının axtarılması ilə şərtlənir.

Ətraf aləm və canlı təbiət hadisələri ilə tanışlıq prosesində böyük məktəbəqədər yaşlı uşaqlarda şifahi lüğətin formalaşmasının xüsusiyyətlərini öyrənmək məqsədi ilə Azərbaycan Respublikası Xırdalan şəhəri 24 saylı məktəbəqədər təhsil müəssisəsinin bazasında 2 istiqamətdə (ümumi nitq inkişaf ləngiməsi olan böyük məktəbəqədər yaşlı uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin inkişaf səviyyəsinin eksperimental tədqiqi və fonematik qavramanın və səs-heca təhlili, eləcə də qeyri-nitq proseslərinin öyrənilməsi ) müvafiq eksperiment keçirilmişdir.

Eksperimentin ümumi nitq inkişafı ləngiməsi olan (III səviyyə) beş-altı yaşlı 20 uşaq iştirak etmişdir: 10 uşaq eksperimental qrupu və digər 10 uşaq isə kontrol qrupu təşkil etmişdi.

Ümumi nitq inkişaf ləngiməsi olan böyük məktəbəqədər yaşlı uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin inkişaf səviyyəsinin eksperimental tədqiqi üçün əsas baza kimi L.M.Manevsevanın, S.N.Nikolayevanın adaptiv metodikalarından istifadə olunmuşdur. Tədqiqat çərçivəsində tərəfimizdən ətraf aləm haqqında təsəvvürlərin bir komponenti, daha dəqiq desək, canlı təbiət haqqında təsəvvürlər tədqiq olunurdu. [5]

Diaqnostik material məktəbəqədər yaşlıların yaş və nitq xüsusiyyətləri, eləcə də məktəbəqədər müəssisənin proqramı nəzərə alınmaqla seçilmişdir.

Kəmiyyət və keyfiyyət təhlilinin nəticələri göstərir ki, hər iki qrupda (həm eksperimental, həm də kontrol) olan uşaqların ətraf aləm haqqında təsəvvürləri yetərincə formalaşmamışdır.

Bitkilərin müxtəlifliyi haqqında təsəvvürlərin araşdırılması üçün verilmiş nümunələrdən biri ilə, onların böyüdülməsi yeri haqqında tapşırığın öhdəsindən iştirakçılardan heç biri gələ bilmədi. Bitkilərin hissələri və

onların funksiyaları haqqında təsəvvürlərin tədqiqində stimullaşdırıcı yardım tələb olundu. Eyni çətinliklər bitkilərin böyümə mərhələləri haqqında təsəvvürləri öyrənməyə yönəlmiş bir tapşırıqda ortaya çıxdı. Bütün vəzifələri yerinə yetirərkən uşaqlar tez-tez istifadə edilən (yeyir, içir, yatır, böyüyür) düzgün feilin seçilməsində çətinlik çəkirdilər. Məktəbəqədər yaşlı uşaqlar canlı təbiət obyektlərinin xüsusiyyətlərini təsvir etmək üçün qeyri-verbal yollardan istifadə edirdilər. Birinci blokun tapşırıqlarının yerinə yetirilmə keyfiyyətinin müqayisəli xarakteristikasının nəticələri 1 saylı cədvəldə təqdim olunur.

Cədvəl 1

*Tapşırıqların yerinə yetirilməsi keyfiyyətinin müqayisəli xarakteristikası (%-lə)*

| № | Qruplar Nümunələr | Eksperimental qrup | | Kontrol qrup | |
|---|---|---|---|---|---|
| | | Bal miqdarı | % | Bal miqdarı | % |
| 1 | Canlıların əlamətləri haqqında uşaqların təsəvvürlərinin tədqiqi | 27 | 90 | 25 | 83 |
| 2 | Bitkilərin müxtəlifliyi və onların böyümə yerləri haqqında uşaqların təsəvvürlərinin tədqiqi | 10 | 33 | 10 | 33 |
| 3 | Bitkilərin hissələri və funksiyaları haqqında təsəvvürlərin tədqiqi | 19 | 63 | 16 | 53 |
| 4 | Bitkilərin inkişaf mərhələləri haqqında təsəvvürlərin tədqiqi | 18 | 60 | 22 | 73 |
| 5 | Heyvanların müxtəlifliyi və yaşadığı yerlər haqqında uşaqların təsəvvürlərinin tədqiqi | 23 | 77 | 22 | 73 |

Əldə olunmuş fərdi nəticələr tədqiq olunan məktəbəqədər yaşlıların qruplarında ətraf aləm haqqında təsəvvürlərin formalaşma səviyyələrini ayırd etmək imkanını verdi:

Yüksək səviyyə (13-15 bal). Uşaq canlı və cansız təbiətin əlamətlərini

tanıyır və fərqləndirir. Canlı orqanizmlərin ehtiyacları, onların həyatı üçün lazım olan şərtlər haqqında fikirlərə malikdir. Heyvanat aləminin nümayəndələrini tanıyır, onları növlərə (heyvanlar, quşlar, həşəratlar) ayırır, onları uyğun yaşayış sahələri ilə əlaqələndirir. Onların xarakterik əlamətlərini sadalaya bilir.

Bitkilərin müxtəlifliyi, onların yetişdiyi yerlər haqqında təsəvvürə malikdir. Bitkilərin hissələrini (kök, gövdə, yarpaqlar, meyvə) göstərir, onların funksiyalarını, xarakterik əlamətlərini sadalayır. Bitkilərin inkişaf mərhələləri haqqında təsəvvürləri var. Uşaq öz cavablarına dəlillər gətirir, tapşırıqları düzgün və müstəqil yerinə yetirir. Tapşırıqlara maraq göstərir və canlı təbiətə münasibətini emosional şəkildə ifadə edir. İnsan fəaliyyəti ilə heyvanların, bitkilərin həyatı arasındakı əlaqəni başa düşür. Bu səviyyəyə müayinə edilən məktəbəqədər yaşlı uşaqların heç biri aid edilməmişdir.

Orta səviyyə (8-12 bal). Uşaq əsasən canlı və cansız təbiətin əlamətlərini bilir, onları fərqləndirir. Canlı orqanizmlərin ehtiyacları, onların həyatı üçün lazım olan şərtlər haqqında bəzi təsəvvürlərə malikdir. Cavablar həmişə dəqiq deyil, səhvlər müşahidə olunur. Əsasən heyvanlar aləminin nümayəndələrini tanıyır və onları növlərə ayırır, yaşayış mühitinə aid edir. Bir sıra hallarda onların xarakterik əlamətlərini sadalaya bilmir.

Əsasən bitkilərin müxtəlifliyi, onların yetişdiyi yerlər haqqında təsəvvürlərə malikdir. Bitkilərin bəzi hissələrini düzgün göstərmir, funksiyalarını müəyyən etməkdə çətinlik çəkir. Bitkinin böyümə mərhələlərini müstəqil olaraq müəyyən edə bilmir. Bəzən onların xarakterik əlamətlərini sadalaya bilmir.

Uşaq öz cavablarını bəzən sübut edə bilmir, dəlillər gətirmir, səhvlərə yol verir, bir sıra tapşırıqları ancaq pedaqoqunköməyi ilə yerinə yetirə bilir. Canlı təbiətə marağı var və öz münasibətini emosional olaraq ifadə edə bilir. İnsan fəaliyyəti ilə heyvan və bitkilərin həyatı arasında əlaqəni hər zaman başa düşə bilmir. Bu səviyyəyə tərəfimizdən tədqiq olunan məktəbəqədər yaşlı uşaqların 19 nəfəri müvafiq oldu.

Aşağı səviyyə (5-7 bal). Uşaq canlı və cansız təbiətin əlamətlərini bilmir, onları fərqləndirmir. Canlı orqanizmlərin ehtiyaclarını, onların həyatı üçün zəruri olan şərtləri müəyyənləşdirməkdə nəzərəçarpacaq səhvlər edir. Heyvanların adlarında tez-tez səhvlər edir, onların növlərini ayırd edə bilmir. Heyvanları yaşayış sahəsi ilə əlaqələndirmir. Onların xarakterik əlamətlərini sadalamaqda çətinlik çəkir.

Bitkilərin müxtəlifliyi, onların yetişdiyi yerlər haqqında təsəvvürlər formalaşdırılmayıb. Bitki hissələrinin müəyyənləşdirilməsində kobud səhvlər edir, hətta mütəxəssisin köməyi ilə olsa da, çətinlik çəkir. Bitkilərin inkişaf mərhələləri haqqında heç bir fikirləri formalaşmayıb, onların xarakterik əlamətlərini sadalamır.

Uşaq öz cavablarını əsaslandıra bilmir. Mütəxəssisin köməyindən sonra da tapşırıqların öhdəsindən gələ bilmir. Canlı təbiətə marağı və emosional münasibət zəifdir. İnsan fəaliyyəti ilə heyvanların, bitkilərin həyatı arasında qarşılıqlı əlaqəni müəyyənləşdirməkdə çətinlik çəkir. Bu səviyyəyə araşdırdığımız qruplardan 1 uşaq müvafiq oldu.

Tədqiqatın təhlilinə əsaslanaraq aşağıdakı nəticələri əldə etdik:

* Birincisi, tədqiq olunan ümumi nitq inkişaf ləngiməsi olan böyük məktəbəqədər yaşlılarda ətraf aləm haqqında təsəvvürlərin formalaşma səviyyəsi yaş normasına uyğun gəlmir, orta səviyyədədir;

* İkincisi, tədqiqi olunan məktəbəqədər yaşlı uşaqların tapşırıqları yerinə yetirərkən zəruri feilin seçilməsində, onun uyğun şəkildə istifadəsində çətinlikləri müşahidə olunur [4].

Yekun olaraq qeyd etmək lazımdır ki, ümumi nitq inkişafı olan böyük məktəbəqədər yaşlı uşaqlarda ətraf aləm haqqında təsəvvürlərin formalaşması prosesinin spesifikasına yalnız idrak proseslərinin xüsusiyyətlərini deyil, həm də lüğətin inkişafını da aid etmək lazımdır.

Yazı prosesi nitq fəaliyyətinin mürəkkəb formasıdır. Oxu və yazı bacarıqları bir çox amillərdən asılıdır. Şifahi nitqin və ali psixi funksiyaların formalaşmasının kifayət qədər yetkin səviyyəsi savad təlimində mühüm rol oynayır.

Şifahi nitqin komponentləri fonetik-fonematik və leksik-qrammatik nitq quruluşu, nitqin heca strukturu və əlaqəli nitqdir. Yazılı nitqin müvəffəqiyyətlə mənimsənilməsi üçün iradi diqqət, proqramlaşdırma və fəaliyyətə nəzarət etmək lazımdır.

Hal-hazırda nitq pozulmaları olan uşaqların sayının artması müşahidə olunur ki, bu da məktəb təlim zamanı risk faktoru olaraq oxu və yazı vərdişlərinə yiyələnməkdə ciddi çətinliklər yarada bilər [2; 3]. Ümumi nitq inkişafı ləngiməsi olan uşaqlarda (ÜNİL) şifahi nitqin bütün komponentləri pozulub, idrak, sensor və emosional-iradi sferanın inkişaf etmədiyi qeyd edilir.

Eksperimentin ikinci hissəsi təlimin mənimsənilməsi prosesini təmin edən sahələrin öyrənilməsi məqsədi ilə müqayisə xarakteri daşıyır. Diaqnostika proqramı Q.A.Kaşe, T.A.Tkaçenko [4], T.B.Filiçeva [5], Q.V.Çirkina tərəfindən metodik materiallar əsasında tərtib edilmişdir.

Bu mərhələdə araşdırmada 30 nəfər 6 yaşlı uşaqlar iştirak edirdi. Onlardan 15 nəfərində heç bir nitq pozulması qeydə alınmamış, 15 nəfəri isə III səviyyəli ümumi nitq inkişaf ləngiməsi olan uşaqlar idi.

Təsdiqedici eksperimentin proqramı üç mərhələni təşkil edirdi: hazırlıq, diaqnostika və son mərhələ. Diaqnostik mərhələ iki blokdan ibarət idi: fonematik qavramanın və səs-heca təhlili, eləcə də qeyri-nitq proseslərinin öyrənilməsi.

Uşaqları diaqnostik nəticələrinin kəmiyyət və keyfiyyət təhlili ilə nitq və qeyri-nitq proseslərinin inkişaf səviyyəsinə görə dörd qrupda fərqləndirə bilərik.

I səviyyə – uşaqlar təklif olunan tapşırıqları düzgün yerinə yetirdilər, kiçik səhvlər buraxdılar, səs-heca analizində və məkan təsəvvürlərində qeyri-dəqiqliklər qeyd edildi. Bu qrupa nitq inkişafı norma daxilində olan 6 nəfər uşaq daxil edilmişdir. Nitq patologiyası olan uşaqlar arasında isə bu səviyyəyə uyğun uşaq diaqnozlaşdırılmamışdı.

II səviyyə – uşaqlar səhvlər yol verir, lakin tez aradan qaldırır, bəzən kömək üçün müraciət edirdilər. Əsasən səhvlər səs və səs-heca təhlili üçün tapşırıqların yerinə yetirilməsi, həmçinin məkan təsəvvürlərinin və ritmik strukturun formalaşdırılması ilə bağlı idi. Bu qrupu normal nitq inkişafı olan məktəbəqədər yaşlılardan 8 nəfəri və nitqin ümumi inkişaf ləngiməsi olan 6 uşaq təşkil edib.

III səviyyə – bu qrupda olan fonematik qavrama, səs və səs-heca təhlili, məkan bələdləşməsi, ritmik struktur və qrafomotor bacarıqların formalaşmasında çoxsaylı səhvlərə rast gəlinir. Bəzi tapşırıqlar mütəxəssisin köməyi ilə qismən düzgün yerinə yetirilmişdir. Bu qrupa ümumi nitq inkişafı ləngiməsilə 8 uşaq və nitq patologiyası olmayan 1 uşaq daxildir.

IV səviyyə – tapşırıqların yerinə yetirilməsi zamanı təlimin mənimsənilməsinə zəmin yaradan bütün komponentlərin kifayət qədər inkişaf etmədiyi qeyd edilmişdir. Bu səviyyədə tapşırıqların yerinə yetirilməsinin nəticələrinə görə ümumi nitq inkişafı ləngiməsi olan bir uşaq qeyd edildi. Ümumi nitq inkişafı ləngiməsi olan uşaqların əksəriyyəti fonematik proseslərin formalaşmasının qeyri-qənaətbəxş səviyyədə olduğunu göstərdi: səs-heca təhlili üzrə tapşırıq ən çətin idi. Onlarda "səs" və "heca" anlayışlarının fərqləndirilməsi formalaşmamışdır və əsas çətinlik birinci səsin müəyyənləşdirilməsində idi. Fonematik eşitmədə səhv fitli və fışıltılı, eləcə də cingiltili və kar səslərin fərqləndirilməsi ilə əlaqəli idi.

Nitqində pozulmalar olmayan uşaqlarda əsasən fonematik qavramanın formalaşma səviyyəsi norma daxilində idi. Bəzi uşaqlar səs-heca təhlilində, xüsusilə də konkret hecanın müəyyənləşdirilməsində çox da ciddi olmayan çətinliklərlə üzləşdilər.

Ümumi nitq inkişafının ləngiməsi olan uşaqlarda qeyri-nitq proseslərinin müayinəsi zamanı məkan təsəvvürlərinin, ritmik strukturun və qrafomotor bacarıqların formalaşmasının pozulması aşkar edilib [4].

Əldə edilmiş təhlil əsas nəticələrin formalaşdırılmasına imkan vermişdir:

- Təlimə hazırlıq məktəbəqədər müəssisənin hazırlıq qrupunda ümumi nitq inkişafı ləngiməsi olan uşaqlar ilə işləməkdə mühüm mərhələdir. Oxu və yazı proseslərinin müvəffəqiyyətlə mənimsənilməsi üçün nitq

fəaliyyətinin bütün tərəflərinin kifayət qədər formalaşma səviyyəsi lazımdır, həmçinin savad təliminə hazırlıq prosesində bazanı təşkil edən qeyri-nitq prosesləridir.

- Ümumi nitq inkişafı ləngiməsi olan uşaqlarla loqopedik iş planlaşdırarkən nitqin inkişaf səviyyəsini və qeyri-nitq proseslərinin vəziyyətini nəzərə almaq lazımdır.

Hər bir uşaq üçün iki böyük blokdan ibarət olan fərdi istiqamətli korreksiya-loqopedik iş müəyyən edilir:

- Əsas iş istiqamətləri nitq inkişafının ilkin şərtlərinin inkişafıdır: eşitmə diqqətinin və eşitmə yaddaşının inkişafı; səs baxımından oxşar olan bir sıra sözləri təqdim edərkən sözün düzgün tələffüzünü eşitmə ilə müəyyən etmək; eşitmə ilə qəbul edilən səslərin və ya sözlərin müxtəlif birləşmələrinin təkrarlanması; müəyyən səsi ehtiva edən sözlərin seçilməsi; sözün səsli təhlili bacarıqlarının formalaşdırılması.

- Qeyri-nitq şərtlərinin inkişafı. Uşaqların qarşılaşdıqları çətinliklərdən asılı olaraq iş istiqamətləri aşağıdakı kimi olacaq: ritm hissi məkan təsəvvürlərinin formalaşması; qrafomotor bacarıqların formalaşması.

## ƏDƏBİYYAT


1. *Борякова Н.Ю., Матросова Т.А.* Изучение и коррекция лексико-грамматического строя речи у детей с недостатками познавательного и речевого развития. Москва, 2010, 199 с.
2. *Каше Г.А.* Подготовка к школе детей с недостатками речи. М.: Е-Фактория, 2012, 207 с.
3. *Корнев А.Н.* Подготовка к обучению грамоте детей с нарушениями речи. М.: Просвещение, 2006, 181 с.
4. *Лалаева Р.И., Серебрякова Н.В., Зорина С.В.* Нарушения речи и их коррекция у детей с задержкой психического развития. Москва: Владос, 2004, 303 с.
5. *Тишина Л.А.* Овладение учебной лексикой школьниками с нарушениями речи в процессе работы с текстом (на уроках природоведения): Дис. ...канд. пед. наук. Москва, 2005, 196 с.
6. *Ткаченко Т.А.* В школу без дефектов речи. Система коррекции общего недоразвития речи у детей 6 лет. ФГОС ДО. М.: Эксмо-Пресс, 2017, 128 с.
7. *Филичева Т.Б., Туманова Т.В.* Дети с общим недоразвитием речи. Воспитание и обучение: Учебно-методическое пособие. М.: «Издательство ГНОМ и Д», 2000, 128 с.


Redaksiyaya daxil olub 05.02.2022

***UOT 37:001***

***M.İ.İlyasov***
*Azrbaycan Dövlət Pedaqoji Universiteti*
*museyibilyas@gmail.com*

# ŞƏXSİYYƏTİN TƏRBİYƏLİLİK SƏVİYYƏSİNİN TƏBİİ İMKANLARLA ŞƏRTLƏNMƏSİNƏ DAİR

***Açar sözlər**: şəxsiyyət, tərbiyə, təbii amillər, imkan, inkişaf, formalaşma*

Şəxsiyyətin inkişafı və formalaşması olduqca çətin və mürəkkəb prosesdir. Bu prosesə müxtəlif görünən və görünməyən, obyektiv və subyektiv olan yüzlərlə amillərin təsir etməsi onu daha da mürəkkəbləşdirir və çətinləşdirir. Klassik pedaqogikanın ümumi şəkildə qəbul etdiyi irsiyyət, mühit və tərbiyənin birliyi şəxsiyyətin inkişaf və formalaşmasının tamlığını təmin edir. Mühit və tərbiyə ilə yanaşı, təbii amillərin – irsi xüsusiyyətlərin də bu prosesdə rolu olduqca böyükdür və bu amil şəxsiyyətin inkişafına, onun sosiallaşmasına, cəmiyyətdə öz yerini tapmasına və tərbiyəlilik səviyyəsinə olduqca əhəmiyyətli dərəcədə təsir göstərir. Həyat göstərir ki, insanların xarakterində, hərəkət və davranışında bir sıra elə xüsusiyyətlər və keyfiyyətlər özünü göstərir ki, bunlar təkcə tərbiyə və mühitdən deyil, irsiyyətdən irəli gəlir və şəxsiyyətin inkişafında bu və ya digər səviyyədə öz izini qoyur. Bacarıq, qabiliyyət, istedad kimi psixoloji keyfiyyətlərlə yanaşı, bu amillər şəxsiyyətin tərbiyəlilik səviyyəsində də özünü əks etdirir. Təqdim edilən məqalədə klassik irsə və müasir gen mühəndisliyi elminə istinad edilməklə təbii imkanların şəxsiyyətin tərbiyəlilik səviyyəsinə təsir imkanlarının üzə çıxarılmasına çalışmışıq.

***М.И.Ильясов***

# ОБ ОБУСЛАВЛИВАНИИ ПРИРОДНЫМИ ВОЗМОЖНОСТЯМИ ОПРЕДЕЛЕНИЯ УРОВНЯ ВОСПИТАННОСТИ ЛИЧНОСТИ

***Ключевые слова:*** *личность, воспитание,* природные *факторы, возможность, развитие, формирование*

Развитие и становление личности – очень трудный и сложный процесс. Влияние на этот процесс сотен различных факторов – видимых и невидимых, объективных и субъективных – еще больше усложняет его. Общепринятое классической педагогикой единство наследственности, среды и воспитания обеспечивает полноту развития и становления личности. Наряду с окружающей средой и воспитанием в этом процессе очень важна роль природных факторов – наследственных черт, которые существенно влияют на развитие человека, его социализацию, его место в обществе и уровень образования. Жизнь показывает, что в характере, поступках и поведении людей проявляется ряд черт и качеств, которые происходят не только от воспитания и окружающей среды, но и от наследственности, и в той или иной степени накладывают свой отпечаток на

развитие личности. Наряду с психологическими качествами, такими как способность, талант, эти факторы также отражаются на уровне образованности личности. В представленной статье, обращаясь к классическому наследию и современной науке генетики, мы попытались выявить возможности влияния природных ресурсов на уровень воспитанности личности.

***M.I.Ilyasov***

**ON CONDITIONING THE LEVEL OF EDUCATION OF THE PERSONALITY BY NATURAL POSSIBILITIES**

***Keywords:*** *identity, education, natural factors, opportunity, development, formation*

The development and formation of personality is a very difficult and complex process. The influence of hundreds of different factors on this process - visible and invisible, objective and subjective - further complicates and complicates it. The unity of heredity, environment and upbringing, generally accepted by classical pedagogy, ensures the completeness of the development and formation of personality. Along with the environment and upbringing, the role of natural factors - hereditary traits - is very important in this process, and this factor has a significant impact on the development of the individual, his socialization, his place in society and the level of upbringing. Life shows that a number of traits and qualities are manifested in the character, actions and behavior of people, which come not only from upbringing and environment, but also from heredity, and leave their mark on the development of personality to one degree or another. Along with psychological qualities such as ability, ability, talent, these factors are also reflected in the level of education of the personality. In the presented article, referring to the classical heritage and modern science of genetic engineering, we have tried to reveal the possibilities of the influence of natural resources on the level of education of the individual.

Şəxsiyyətin inkişafı və formalaşması mürəkkəb proses olub, ona çoxlu sayda amillər təsir edir. Şəxsiyyətin formalaşması haqqında nəzəriyyələrdə bu amillərin nisbəti haqqında çoxlu fikir ayrılıqları mövcuddur. Bəzi tədqiqatçılar bioloji, bəziləri isə sosial amillərə üstünlük verirlər. Amerika alimləri E.Torndayk, C.Dyui və b. bildirirlər ki, insan, onun qabiliyyəti, maraq və tələbatları irsi xarakter daşıyır və irsiliklə şərtlənir. E.Torndayk qeyd edir ki, insanın fiziki və əqli keyfiyyətlərini onun orqanizmindəki genlər müəyyən edir. İngilis filosofu və pedaqoqu C.Lokk, fransız maarifçiləri və pedaqoqları J.J.Russo, K.A.Helvetsi və b. belə hesab edirlər ki, şəxsiyyətin inkişafı yalnız sosial amillərin təsiri altında baş verir. Görkəmli rus pedaqoqu K.D.Uşinski isə haqlı olaraq qeyd edirdi ki, insan təkcə irsiyyət, mühit və tərbiyənin təsiri ilə deyil, həmçinin öz fəaliyyəti vasitəsilə şəxsiyyətə çevrilir.

Qədim Yunan filosofu Platon (b.e.ə.460-370) "Qanun" əsərində yazırdı: *"İnsanı həqiqətən tərbiyə etsək, o, ən sakit və ilahi məxluq olar, əgər onu tərbiyə etməsələr və yanlış tərbiyə versələr, onda o, kürreyi-ərzdə olan heyvanların ən vəhşisi olar".* Plutarx (45-127) da bu fikri təsdiq edir və qeyd edirdi ki, *uşaqların düzgün tərbiyəsi sayəsində yaxşı olmaları bizdən (tərbiyəverənlərdən - M.İ.) asılıdır.* Klassik irsə, görkəmli mütəfəkkirlərin fikirlərinə nəzər salsaq, görərik ki, onların demək olar ki, hamısı tərbiyyəyə bu cür böyük əhəmiyyət vermiş və insan mənəviyyatının formalaşmasında onun əsas yer tutduğunu qeyd etmişlər. Həzrət Əli (598-661) deyirdi ki, *adamın könlü heç nə əkilməmiş sahəyə bənzər, nə əksən, bitər, boy atar.* Görkəmli Şərq mütəfəkkiri İbn Sina da (980-1037) *əxlaqın, tərbiyənin insanda anadangəlmə olmadığını* qeyd edirdi.

Görkəmli Şərq mütəfəkkiri Əl-Fərabi (870-950) yazıdırdı ki, *bütün mənəvi keyfiyyətlər - həm gözəl, həm də pis keyfiyyətlər qazanılır. Tərbiyənin vəzifəsi insandakı mənfi keyfiyyətləri cilovlamaq, onda müsbət keyfiyyətlərin inkişafına imkan yaratmaqdır* [7, s.203-204]. İmam Qəzali (1058-1111) bu fikri özünəməxsus tərzdə belə ifdə edirdi: *"Tərbiyə - məhsulunun yaxşı yetişməsi və kamil bir hala gəlməsi üçün bağbanın əkdiyi bitkilərin arasından çücərən yabanı və zəhərli otları, tikanları çıxarıb atmasına bənzəyir* [2, s.27].

Şərqin böyük şairi Sədi Şirazi (1184 -1291) də uşaqlara hələ kiçik olduqları zaman "yaş çubuq" kimi möhkəmlənməmiş, elastikliyə malik olduğu dövrdə tərbiyə vermək lazımdır. Tərbiyə insanlara uşaq yaşlarında verilməlidir. O, yazırdı:

*Kiçik ikən hər uşaq edilməzsə tərbiyət,*
*Böyüyəndə görünməz onda ədəb, nəzakət.*
*Yaş çubuğu istəsən hər şəklə salarsan*
*Od qurudub düzəldər oçubuğu nəhayət* [8, s.191].

Sədi burada tərbiyənin böyük gücə malik olduğunu göstərir və tərbiyə vasitəsilə insanlarda ədəb və nəzakətin formalaşdığını qeyd edir.

Görkəmli şairimiz, maarifpərvər M.Ə.Sabir (1862-1911) də yazırdı ki, "insanın rəhnüması tərbiyədir".

Belə misallardan və nümunələrdən yüzlərlə-minlərlə göstərmək mümkündür ki, bu mütəfəkkirlər şəxsiyyətin formalaşmasında tərbiyəyə çox böyük yer vermiş və tərbiyə olmadan şəxsiyyətin formalaşmasını qeyri-mümkün hesab etmişlər. Həqiqətən də bunlar təkzibedilməz fikirlərdir: *insan tərbiyə vasitəsilə fərddən şəxsiyyətə çevrilir, inkişaf edir, formalaşır.*

Yaxşı keyfiyyət də, pis keyfiyyət də tərbiyənin və mühitin təsirilə meydana gəlir, inkişaf edir. Həzrət Əli deyirdi ki, cavan adamın könlü heç nə əkilməmiş sahəyə bənzər – nə əksən bitər, boy atar. İngilis filosofu və pedaqoqu C.Lokk da (1632-1704) özünün "İnsan əqli haqqında təcrübə" əsərində

göstərirdi ki, insanın şüurunda və təsəvvüründə heç bir fitri ideyalar yoxdur. Uşaqlar dünyaya gələrkən onların ruhu "ağ lövhə" kimi təmiz olur.

Görkəmli Ukrayna pedaqoqu V.A.Suxomlinski (1918-1970) bunu belə izah edir: *"Yeniyetmələrin əxlaqi simasının insanın uşaqlıq illərində necə tərbiyə olunmasından, anadan olandan 10-11 yaşına kimi* (qeyd edək ki, A.S.Makarenko (1888-1939) bunun 5 yaşa qədər formalaşdığını qeyd edirdi) *onun qəlbinə nə qoyulduğundan asılıdır... yeniyetmə obrazlı deyilərsə, bir çiçəkdir, onun gözəlliyi bitkiyə qulluq edilməsindən asılıdır. Çiçəyin gözəlliyi üçün o, açılmağa başlamazdan əvvəl ona qayği göstərmək lazımdır"* [9, s.11-12].

Buradan bir sıra suallar meydana çıxır:

*1) Tərbiyə verilməsə, insan niyə məhz mənfi istiqamətdə formalaşır? Onun təbiətində nə var ki, tərbiyə verilməsə, bunlar onu yalnız mənfi istiqamətə yönəltsin?*

*2) Həqiqətənmi tərbiyə verilməzsə, nə mənəviyyat, nə də əxlaq formalaşa bilər?*

*3) İnsan genetikasında həqiqətənmi tərbiyəlilik, yaxud onun əksi olan heç bir keyfiyyət imkanları olmur?*

Suallar çoxdur və onları çox vaxt birmənalı şəkildə cavablandırmaq da mümkün olmur. Lakin bu da bir həqiqətdir ki, şəxsiyyətin inkişafı və formalaşmasında, bir qədər də dar çərçivədə götürsək, onun *mənəvi-əxlaqi tərbiyəsində irsiyyətin rolu* heç də az deyildir.

Şəxsiyyətin inkişafında təbii imkanların müəyyən rol oynaması reallığı təkzibedilməz faktordur və bunu psixologiya, fiziologiya və genetika elmləri artıq çoxdan sübut etmişlər. Həyati faktlar da bunu təsdiq edir. Şəxsiyyətin malik olduğu genetik imkanlar, fitri qabiliyyətlər, bəzi insanlarda başqalarında və heç kimdə olmayan fərdi istedadlar onu göstərir ki, insanlar doğularkən müəyyən fərdi imkanlarla həyata gəlirlər ki, bunlar da onların sonrakı inkişaflarında müəyyən rol oynayır. Mühit və tərbiyə əlverişli olduqda, ünsiyyət və fəaliyyət prosesi düzgün təşkil edildikdə bu imkanlar reallaşaraq özünü bacarıq, qabiliyyət, istedad kimi göstərir. Lakin belə bir sual yaranır: *Şəxsiyyətin malik olduğu tərbiyəvi keyfiyyətlər necə, bunlar da irsən keçə bilirmi?*

Görkəmli İsveç pedaqoqu İ.H.Pestalossi (1746-1827) qeyd edirdi ki, tərbiyə adamların ictimai mövqeyini dəyişdirmir, kəndli uşağını yaxşı kəndli, sənətkar uşağını yaxşı sənətkar, dvoryan uşağını təhsilli edir. Lakin o bunu da qeyd edirdi ki, hər bir vətəndaş tərbiyə almalıdır. İnsandakı bütün yaxşı rüşeymlər inkişaf etdirilməlidir. Təbiət insana qüvvələr vermişdir, onları inkişaf etdirmək, möhkəmləndirmək, istiqamətləndirmək və inkişafın təbii gedişini pozan zərərli təsirləri rədd etmək lazımdır.

Özünün bir çox orijinal fikirləri ilə pedaqogika tarixində xüsusi yeri olan görkəmli alman pedaqoqu E.Meyman təlimdə spesifik qanunların olduğunu göstərməklə, əsaslandırdığı qanunlar içərisində "Fərdin inkişafının əsasən təbii imkanlarla şərtləndiyi qanunauyğunluğu"nu da göstərmişdir. Bununla o, hər bir fərdin inkişafının onların əvvəldən, irsən gətirdiyi və ya ona ötürülən təbii imkanlarla bilavasitə əlaqələndiyi və onlarla şərtləndiyi fikrini əsaslandlrmağa çalışmışdır. Yenə də suallar meydana çıxır: Bu, həqiqətənmi belədir, fərdi inkişaf təbii imkanlardan asılıdırmı, yoxsa burada əsas yeri tərbiyə və mühit, yaxud əmək və fəaliyyət tutur? Yoxsa digər amillərdən asılıdır?

Bu suallara müəyyən və daha dolğun cavab tapmaq üçün tarixə müraciət etmək və aparılmış bir sıra tədqiqatları nəzərdən keçirmək lazım gəlir.

XIX əsrin ikinci yarısından başlayaraq inkişaf etməyə başlayan genetika elmi XX əsrdə insan genetikası (antropogenetika), tibbi genetika və s. sahələrdə böyük müvəffəqiyyət qazanmışdır. İlk əvvəllər bitki və heyvanlar üzərində aparılan təcrübələr və tədqiqatlar irsiyyətin inkişafda roluna dair bir sıra elmi fikirlərin formalaşmasına səbəb olmuşdur. Ç.Darvinin (1859) irsiyyət və dəyişkənliyi təkamülün əsas hərəkətverici qüvvəsi hesab etməsi, İ.G.Kelreyterin (1733-1806) hibrid bitkilərin öz valideynlərinə nisbətən qüvvətli və davamlı olmasını əsaslandırması, G.Mendelin (1822-1884) bitki əlamətlərinin irsən keçməsinin elmi əsaslarını, qanunauyğunluqlarını işləyib hazırlaması, bu sahəyə diqqətin artmasına və yeni-yeni tədqiqatçıların və tədqiqatların meydana çıxmasına səbəb oldu. T.Morqan (1861-1845) və onun şagirdləri tərfindən yaradılan xromosom nəzəriyyəsi, amerikan alimlrləri M.Nirenberq və S.Oçaonun müəyyən etdikləri DNT nəzəriyyəsi sübut etdi ki, irsi əlamətlər xromosomlarda cəmlənmişdir və DNT hər bir növə məxsus olan spesifik irsi informasiyanı özündə saxlayır. Bunun təkcə bitkilərdə deyil, insanlarda da belə olduğunu genetika elmi artıq çoxdan sübut etmişdir. Bir sıra keyfiyyətlər, xüsusi qabiliyyətlər, xarici oxşarlıq, müəyyən xəstəliklər, psixi çatışmazlıqlar insanlara irsən ötürülür və yeni nəsillərdə onların əlamətləri özünü saxlayır. Deməli, dünyaya yeni gələn insanlar həm də irsi daşıyıcılar rolunu oynayır.

Bunlar onu göstərdi ki, uşaq anadan olarkən onların beyni heç də ağ lövhə kimi təmiz olmur və onlar nəslin həm də irsi əlamətlərinin daşıyıcısı kimi müəyyən genetik kodları özləri ilə gətirirlər.

XX əsrin sonlarında hətta bir qrup Amerikan alimlərinin insanların nəinki bəzi qabiliyyət və bacarıqlarının, həm də tərbiyəlilik keyfiyyətlərinin də irsən keçməsi ideyasını irəli sürmüşlər. Bu, həqiqətənmi belədir?

Uşağın inkişafında və formalaşmasında tərbiyəni əsas amil hesab edən görkəmli Azərbaycan mütəfəkkiri N.Tusi (1201-1274) də irsiyyəti, irsi amilləri nəzərdən qaçırmır və tərbiyə ilə yanaşı, onun da rolunun nəzərə alınmasını zəruri hesab edirdi. N.Tusi yazırdı: "...heyvan növlərinin hər sinfində, bəlkə də bitki və cansız əşya siniflərində də bir-birinin arasında açıq-aydın fərq olduğu

kimi.... insanlar arasında da fərq var, bəlkə bir az da artıq, heç bir varlığın növləri arasında bu növ arasında olan fərq qədər ixtilaf və fərq yoxdur" [5, s.81]. Bu fərq nədir və onu yaradan nələrdir? Əlbəttə, böyük mütəfəkkir bunu irsiyyətlə, irsi amillərlə əlaqələndirir və insanlar arasında fərqin irsi amillərdən asılılığını əsaslandırır. Oynaq ərəb atı ilə tənbəl yük atını, parlaq hind qılıncı ilə yumşaq, paslanmış dəmir qılıncı bir araya qoymaq mümkün olmadığı kimi, insanların da hamısının eyni qabiliyyətə, eyni xarakterə malik olmadığını göstərir. "İnsanlar hamısı eyni qabiliyyətdə olub, kamilliyin eyni dərəcəsinə yüksələ bilməzlər" [5, s.81].

N.Tusi qeyd edirdi ki, "Təbiətlərində həddindən artıq şər olan adamlar tərbiyə ilə də islah edilməzlər, islah oluna bilənlər ilk anlarından fəzilət sahibləri və xeyir xidmətləri olan insanlarla bir yerdə olsalar, yaxşı olarlar, əks təqdirdə öz əsl təbiətlərində qalacaqlar". Tusi burada sosial mühitin, tərbiyəvi təsirin də imkanlarını nəzərdən qaçırmır və belə adamların xeyirxah insanlar arasında olması ilə onların yaxşılaşa biləcəyini göstərir [5, s.78].

İrsiyyət valideynlərdən müəyyən keyfiyyətlərin yeni doğulanlar tərəfindən gətirilməsidir. Genetika elminin son nailiyyətləri belə bir fikri təsdiq edir ki, insan orqanizmi onun haqqında bütün məlumatları saxlayan və ötürən genetik kodla şifrə edilmişdir. İrsiyyət insanı insan edən ümumi keyfiyyətləri və insanları bir-birindən fərqləndirən xüsusi keyfiyyətləri şərtləndirən əsas amildir. İrsiyyətin əsas ötürücüsü valideynlərdir. Valideynlərdən irsi yolla uşaqlara bir çox xüsusiyyətlər və keyfiyyətlər keçə bilir. Bu keyfiyyətlər aşağıdakılardan ibarətdir:

- insana məxsus olan, onun növ əlamətini əks etdirən *anatomik-fizioloji struktur* (iki ayaq üstə yerimə, təfəkkür, əmək fəaliyyəti və s.);
- *fiziki göstəricilər:* xarici irsi əlamətlər, bədən quruluşu, sifətin əlamətləri, saçın, gözün, dərinin rəngi;
- *fizioloji xüsusiyyətlər:* maddələr mübadiləsi, arterial təzyiq, qan qurupu, rezus amili və s.;
- *sinir sisteminin xüsusiyyətləri:* baş beyin qabığı və onun periferik aparatının (görmə, eşitmə, dadbilmə və s.) quruluşu;
- *orqanizmin inkişafında anomaliyalar*: daltonizm (qismən rəng korluğu), "dovşan dodaq" və s.
- *bəzi irsi xəstəliklərə meyillilik:* hemofiliya (qan xəstəliyi), şəkərli diabet, şizofreniya və s.

İnsanda anadangəlmə olan xüsusiyyətlər sonradan yaranmış və əlverişsiz həyat şəraitinin nəticəsində meydana gələn xüsusiyyətlərdən fərqlidir. Sonradan qazanılmış xüsusiyyətlər irsən keçmir.

Elmi araşdırmalar nəticəsində sübut olunmuşdur ki, uşaqlara hazır qabiliyyətlər deyil, qabiliyyətlərin inkişafı üçün ilkin şərt olan təbii imkanlar

irsən keçir. Bu imkanlar inkişaf etdirildikcə insanın bu və ya digər fəaliyyətə meyilliliyini təmin edə bilir.

Qabiliyyətlər hər bir insanın özünəməxsus fərdi psixoloji xüsusiyyətidir. Bilik, bacarıq və vərdişlərə yiyələnmək prosesində müvəffəqiyyət məhz qabiliyyətlərdən asılı olaraq baş verir. Lakin qabiliyyətlər nə bilik, bacarıq, vərdişlərdir, nə də onların olmasından ibarət deyildir. Qabiliyyətlər hər hansı bir fəalliyyət zamanı bilik və bacarıqların tez, hərtərəfli, asan və yüksək peşəkarlıqla icra olunmasında özünü göstərir.

Qabiliyyətlərin anadangəlmə olduğu fikrində olan alimlər də az deyildir. Onlar insanda olan xüsusi qabiliyyərləri əsas götürərək qabiliyyətlərin fitri olduğunu iddia edirlər.

Bir çox alimlər-pedaqoqlar, psixoloqlar və fizioloqlar qabiliyyətlərin insanın həyat fəaliyyəti və tərbiyəsi nəticəsində formalaşan fərdi-psixoloji xüsusiyyətlər olduğunu göstərirlər. Onlar irsən qabiliyyətlərin deyil, bu qabiliyyətlərin formalaşmasında zəmin ola biləcək imkanların ötürüldüyünü qeyd edirlər.

Bəzi alimlər belə hesab edirlər ki, bütün insanlar təbiətdən öz əqli, idrakı və intellektual qüvvələrinin inkişafı üçün təbiətdən yüksək potensial imkanlar alır və qeyri-məhdud mənəvi inkişafa qabildirlər. Bununla yanaşı, onlar etiraf edirlər ki, intellektual qabiliyyətlərin inkişafına mənfi təsirlər də ola bilər. Məsələn, ABŞ-ın Harvard Universitetinin professoru H.Qardner bütün insanlarda 1) verbal-linqvistik; 2) məntiqi-riyazi; 3) vizual-fəza; 4) bədən-kinestetik; 5) musiqi-ritmik; 6) şəxsiyyətlərarası; 7) şəxsiyyətdaxili; 8) təbiət; 9) mənəvi və s. çoxşaxəli qabiliyyətlərin olduğunu bildirmiş və onları sistemləşdirmişdir. Qardner göstərir ki, hər bir şəxs ruhlandırıldıqda, dəstək və düzgün təlimat aldıqda bu qabiliyyətləri lazımi səviyyədə inkişaf etdirə bilərlər. H.Qardner sübut etməyə çalışır ki, hər bir şəxs bu qabiliyyətlərin təkrarolunmaz kombinasiyasına malikdir. Bəzi insanlarda bu qabiliyyətlər çox yüksək səviyyədə inkişaf etmiş olur. Çox az insanlarda qabiliyyətlərin hamısı aşağı səviyyədə olur. Əksər insanlar isə orta səviyyədə yerləşərək onların az sayda qabiliyyətləri yaxşı, çox qabiliyyətləri orta, bir-iki qabiliyyəti isə zəif inkişaf etmiş olur.

Bir sıra alim isə insanların irsi baxımdan intellektual qabiliyyətlərinin qeyri-bərabər olduğunu göstərir və bununla iddia edir ki, intellektual qabiliyyətlər dəyişməz və sabit olaraq qalır.

Lakin belə bir məsələ xüsusi əhəmiyyət kəsb edir ki, təbii imkanlar heç də hamıda eyni səviyyədə deyildir. Təlim və tərbiyənin qarşısında duran başlıca vəzifələrdən biri hər bir şagirdin mövcud təbii imkanlarının inkişafı üçün müvafiq şəraitin yaradılmasından ibarətdir.

Musiqi, bədii, riyazi, linqvistik, idman və s. kimi fəaliyyət növlərinə olan təbii imkanlar vardır ki, bunlar xüsusi təbii imkanlar adlanır və irsi

xarakter daşıyır. Məlumdur ki, görkəmli musiqiçilər olan Baxlar ailəsinin beş nəslində on səkkiz, Ü.Hacıbəyovlar nəslində onlarla görkəmli musiqiçilər olmuşlar.

Bu fərqilik təlim prosesində özünü qabarıq şəkildə göstərir və istər genetika elmi, istər psixologiya elmi, istərsə də pedaqogika elmi bunu inkar etmir və təlim prosesində uşaqlar arasında olan fərdi fərqlərin nəzərə alınmasının zəruri olduğunu qeyd edirlər.

Əxlaqi keyfiyyətlərin də irsən keçməsi haqqında maraqlı fikirlər vardır. Bəzi alimlər (M.Montessori, P.K.Anoxin, N.M.Amosov və b.) iddia edirlər ki, insanın genetik proqramında sosial davranış haqqında informasiyalar vardır. Əxlaqi keyfiyyətlər nəsildən-nəslə ötürülür və sosial davranış genetik xarakter daşıyır. Lakin bunu da nəzərdən qaçırmaq olmaz ki, əxlaqi keyfiyyətlərin formalaşmasında insanın bütün həyatı boyu, onların yaşadığı sosial mühitin və aldığı tərbiyənin də böyük təsiri vardır.

İnsanların tərbiyəlilik keyfiyyətində fərdi fərqlər az deyildir. Davranışı, hərəkəti, danışığı, ünsiyyət tərzi, ətraf sosial və təbii mühitə, insanlara, o cümlədən tabeliyi olan və özünün tabeliyində olan insanlarla mühasibətləri ilə fərqlənən insanlar minlərlədir, milyonlarladır. Başqa sözlə, insanlar həm də tərbiyəlilik keyfiyyətlərinə görə bir-birlərindən fərqlənirlər. Bunların içərisində "maskalı olanlar" da var, maskasızlar da. Apardığımız bəzi müşahidələr, həyati faktlar və nümunələr göstərir ki, insanlar arasında bu fərqliliklərin hamısının onların yalnız aldıqları tərbiyənin nəticəsi olması fikri heç də doğru deyildir. Burada irsi amillərin rolu və təsiri inkaredilməzdir. Çəkinmədən demək olar ki, insanlarda olan tərbiyəlilik keyfiyyətlərinin tamamilə olmasa da, müəyyən qismi irsən gətirilir və davam etdirilir. Bacarıqda, qabiliyyətdə, mənimsəmə səviyyəsində, temperamentdə, xarakterdə və ümumiyyətlə götürüldükdə, bütün fərdi keyfiyyətlərdə olan fərqli xüsusiyyətlərin formalaşmasında irsi amillərin rolu olduğu kimi, tərbiyəlilik keyfiyyətinin də formalaşmasında irsiyyətin rolu inkaredilməzdir. İnsanların tərbiyəlilik keyfiyyətlərində olan fərdi fərqlərin hamısının yalnız sonradan qazanılmasının, yəni tərbiyə və mühitin təsirindən deyil, məhz irsən gətirdikləri imkanların da təsiri ilə formalaşdığını inkar etmək doğru deyildir.

Hələ eramızdan əvvəl qədim yunan filosofları Platon və Aristotel şəxsiyyətin formalaşmasının, insanlardakı xarakter müxtəlifliyinin və təhsildəki bərabərsizliyin səbəblərini irsiyyətlə əlaqələndirmiş və irsi amillərdə görmüşlər.

IX-X əsrlərdə yaşamış görkəmli türk mütəfəkkiri Əl-Fərabi, bütün dövrlərin mütəfəkkiri N.Gəncəvi, XIII əsrdə yaşamış Şərqin böyük əxlaq nəzəriyyəçisi N.Tusi, görkəmli şərq mütəfəkkiri S.Şirazi, XVI əsrdə yaşamış görkəmli Azərbaycan şairi M.Füzuli, XIX əsrdə yaşamış görkəmli İsveç pedaqoqu İ.H.Pestalossi, ingilis alimi F.Halton, XX əsrdə yaşamış pedaqoqlar: C.Dyui, C.Qrey, X.Ayzek, H.Qardner və başqaları bu problemə xüsusi diqqət

yetirmiş və təlim-tərbiyə prosesində irsiyyətin, irsi amillərin rolunun mühüm olduğunu qeyd etmişlər.

Nizami Gəncəvi (1141-1209) tərbiyəyə, insanın insan olması üçün ona tərbiyə verilməsinə nə qədər yüksək əhəmiyyət verirdisə, irsiyyətə, nəsil-nəcabətə də o qədər əhəmiyyət verir, irsiyyəti, zatı, nəsli insanın hərəkət və davranışı üçün əsas mənbə hesab edirdi. Onun irsindən onlarla-yüzlərlə nümunələr göstərmək olar ki, Nizami irsiyyətə böyük əhəmiyyət vermiş, insanların xarakterində olan bir çox müsbət və ya mənfi keyfiyyətləri irsiyyətlə əlaqələndirmiş və bu xüsusiyyətlərin olmasında irsi amillərin mühüm rol oynadığını qeyd etmişdir. "Xosrov və Şirin" poemasında Nizami yazırdı:

*Əvvəl əyri bitən bir cavan budaq,*
*Zənn etmə qocalsa düzgün olacaq* [6, s.105].

Görkəmli mütəfəkkir qeyd edirdi ki, valideyn yaxşıdırsa, onun övladı da yaxşı olacaq, pis olmayacaqdır. Hər göyərən budaq öz tumuna bənzəyər. Kim yaxşı və ya yaman – pis iş tutarsa, bununla öz zatını, nəslini büruzə verər. Bir kəsin zatında qurd xisləti varsa, o da qurd olacaq, qarşısındakı ceyranın qanını içəcəkdir. Övladın sənə nə edəcəksə, öz övladından onu da görəcəkdir.

Görkəmli şərq mütəfəkkiri Sədi Şirazi də irsiyyətə mühüm əhəmiyyət verir və irsiyyətində nöqsanlar olan kəslərin tərbiyə yolu ilə düzələcəyinə inanmır. İnsanın genində nə varsa, o da olacaqdır, - deyir.

*Heç seyqəl götürməz zatı pis dəmir,*
*Nə qədər çalışsan bədgövhər olar* [8, s.189].

Və ya:

*Yağışla sulansa bağ da şoran da,*
*Bağda lalə bitər, şoranda tikan, – deyirdi* [8, s.38].

Tərbiyə də belədir, yəni yaxşı qulluq kimidir. Mükəmməl olarsa uşağın, insanın genində olan imkanları üzə çıxaracaq, onları inkişaf etdirəcəkdir. Misi qızıla çevirmək mümkün olmadığı kimi, yaxşı tərbiyə ilə zatı qırıq olanları yaxşı insan etmək də mümkün olmayacaqdır. Bu "qırıqlıq" nə vaxtsa, haradasa özünü büruzə verəcək, özünü göstərəcəkdir.

Azərbaycan aşıq ədəbiyyatının görkəmli nümayəndəsi Xəstə Qasım belə halda:

*Ot kökü üstə bitər, əsli nə isə,*
*Yovşan bəsləməklə çəmənzar olmaz,* – deyir [10, s.39].

Başqa bir beytində isə:

*Vəfalıya əmək çəksən itirməz,*
*Bədəsil nəsihət, öyüd götürməz,*
*Qabaq tağı tər şamama yetirməz ,*
*Göy söyüddə heyva olmaz, nar olmaz* – deyərək" [10, s.39] quyuya su tökməklə sulu olmaz" – atalar sözünü, yəni irsiyyətin böyük

rola malik olduğunu təsdiq edir. Aşıq Hüseyn Bozalqanlı isə bunu belə ifadə edirdi:

*Ölənədək nişanını itirməz,*
*Yaxşı əsil, yaxşı nəsil, yaxşı zat* [10, s.46].

Opponentlərimiz qeyd edə bilərlər ki, bu nümunələrin bir qismi orta əsrlərdə, əslin, zatın, nəsl-nəcabətin əsas götürüldüyü, mənsəbin, titulun, vəzifələrin irsən, nəsildən-nəslə ötürüldüyü bir dövrdə meydana gəlmiş fikirlərdir. Lakin müasir genetika və psixologiya elminin bu fikirləri təsdiq edən faktları da az deyildir.

İrsiyyət təkcə xarici görkəmin, valideynlərə oxşarlığın, xüsusi istedadın, müəyən xəstəliklərin daşınması, yeni nəslə verilməsi, ötürülməsi deyildir. İrsiyyət həm də çəkinmədən demək olar ki, müəyyən xarakterik xüsusiyyətlərin, tərbiyəlilik keyfiyyətinin də daşıyıcısıdır, "ot kökü üstə bitər" kəlamının doğruluğunun sübutudur.

Amerikan alimi R.Daqdel başlanğıcını Caks soyadlı şəxsdən götürən bir neçə ailənin əsil-nəcabətini öyrənmiş və müəyyən etmişdir ki, Caksın nəslindəki 709 nəfərin 76-sı məhbus 128-i pozğun həyat tərzi keçirən, 200-ü diləncçi və s. olmuşdur [3, s.25]. Bunu bəlkə də mühitlə əlaqələndirənlər çox ola bilər. Lakin burada genlərin daşıdığı irsi keyfiyyətlərin heç də az rol oynamadığı şübhəsizdir. Məsələn, tarixdən məlumdur ki, 54-68-ci illərdə Roma imperiyasını idarə etmiş Neron (37-68) bu illərdə xeyli insanların öldürülməsi haqqında hökmlər vermiş, hətta öz anasını da öldürtdürmüşdür. Tarixçi Suctoniusun yazdığına görə, onun atası da qatil olmuş və vətənə xəyanətdə günahlandırılmışdır.

Müasir dövrdə də onlarla, yüzlərlə buna bənzər nümunələr, misallar göstərmək mümkündür ki, xarakterində mərdiməzarlıq, xəbislik, pislik etmək, "quyu qazmaq", riyakarlıq, satqınlıq etmək, nifaq salmaq, başqası haqqında pis danışmaq, ikiüzlülük və s. kimi ünsürlər olan insanların keçmişində, əsilində, nəslində, nəcabətində də bu keyfiyyətlər bu və ya digər dərəcədə olmuş və özünü büruzə vermişdir.

Müşahidələr və bəzi faktlar da onu göstərir ki, hətta uşaqlıqdan bəzi insanlarda xeyirxahlıq, yaxşılıq etmək, mədəni rəftar və ya onun əksi olan bədxahlıq, pisliyə meyillilik özünü göstərir. Bunların hamısının tərbiyə ilə, yaxud mühitlə əlaqələndirmək heç də inandırıcı görünmür. Ailə tərbiyə verir, uşaq bağçası və məktəb bunu davam etdirir, lakin yenə də bir sıra hallarda naqislik özünü göstərir. Niyə belə olur? Məncə, heç də inkar etmək olmaz ki, yeni doğulmuş uşağın beyninin genetik xüsusiyyətləri onun valideynlərinin beyninin genetik xüsusiyyətlərini özündə əks etdirmir.

Lakin xeyli sayda, yüzlərlə müsbət nümunələr də göstərmək olar ki, bunlar həqiqətən də bir çox müsbət keyfiyyətlərin nəsildən-nəslə ötürülməsini sübut edən gözəl nümunələrdir. Yaxşılıq etməyi bacarmaq, səmimi olmaq,

ədalətli olmaq, mədəni davranmaq, böyük-kiçik yeri bilmək, əxlaqlı olmaq, doğruçuluq, düzgünlük, halallıq, millətini, xalqını və vətənini sevmək, səbrli, təmkinli olmaq, təvazökarlıq və s. kimi keyfiyyətlər belə keyfiyyətlərdir.

Üzeyir Hacıbəylilər nəslində Ceyhun Hacıbəyli, Soltan Hacıbəyli, Niyazi və b. musiqi istedadının yüksək olmasından və bu keyfiyyətlərin nəsildən-nəslə ötürülməsi haqqında çox danışılıb, çox yazılıb. Burada mikro mühitin də müəyyən rol oynadığını inkar etmək olmaz. Lakin bu nəslin başqa xüsusiyyətlərinə nəzər salanda orada xeyirxahlıq, vətənpərvərlik, istedadlıların əlindən tutmaq, onlara kömək etmək, Vətən üçün mümkün olanları etmək kimi keyfiyyətlərin də olduğunu aydın görürük. Məncə, burada tərbiyə, mühitlə yanaşı, irsiyyətin böyük rol oynadığını da inkar etmək olmaz. Yəqin ki, Hacıbəyovlar nəslində, əslində bu keyfiyyətlər varmış ki, Üzeyir bəy neçə-neçə istedadların əlindən tutmuş, onlara kömək etmiş və təmənnasız yardım etmişdir.

Görkəmli mesenat Hacı Zeynalabdin Tağıyev təhsil almamışdı. Lakin Azərbaycan balalarının təhsilinə milyonlarla pul xərclədi. Məktəblər açdı, teatr binası tikdirdi, xalqın maarifinə, mədəniyyətinin inkişafına misilsiz xidmətlər göstərdi. İnanmaq çətindir ki, bunları o, özünün ad-sanı, tarixdə qalması və ya əlavə qazanc əldə etməsi üçün etmiş olsun. Bunlar xalq üçün, millət üçün edilənlər idi və bunları heç kim ondan tələb etmirdi. Bu istəklər, amallar onun nəslindən, kökündən gələn keyfiyyətlər idi ki, onları Hacı reallaşdıra bildi.

Heç də hər bir istedad sahibi vətənpərvər olmur, vətənini canından artıq sevmir və ya cəmiyyətdə nümunəvi davranış nümayiş etdirmir, yaxud yaxşılıq etməyi, əl tutmağı özünün həyat qayəsi hesab etmir. Həyat göstərir ki, istedadını, bacarıq və qabiliyyətini yaxşı işlərə deyil, pisliklərə, kimlərəsə "quyu qazmağa" sərf edənlər də az deyildir. Təkcə aldığı tərbiyə nəticəsində deyil, irsiyyətində, genində olan mənfi keyfiyyət daşıyıcılarının təsiri ilə həyatını pisliklərə həsr edənlər də yox deyildir. Halallıq, qəlbən təmizlik, yüksək nədəniyyət və mərifət sahibi olmaq yalnız tərbiyə və mühitin nəticəsi deyildir. Aşıq Ələsgərin dediyi kimi:

*Nütfədən pak olan özü pak olar,*
*Namərddən törəyən bil, napak olar [9, s.41].*

İnstitutda oxuduğum illərdə bu epizodu çox təəssüflər ki, adını unutduğum bir tarix müəllimimiz nəql elədi: *"Pedaqoji institutda oxuyanda görkəmli filosof, böyük şəxsiyyət Heydər Hüseynov bizə dərs deyirdi. Qrupumuzda çox yaxşı oxuyan bir oğlan var idi. Kasıbçılıq idi. Bu oğlan da çox kasıb bir ailədən idi. Bir gün dərsə gələndə onu təzə kostyum, köynək və ayaqqabıda gördük. Yoldaşımız marağımıza cavab olaraq özü danışdı: "Heydər müəllim dərsdən sonra onu gözləməyimi tapşırdı. Gözlədim. Universitetdən çıxanda "mənimlə gedək",- dedi. Getdik. Yolda dedi ki, oğluma paltar almalıyam, elə sən boydadır. Gedək onu alaq. Univermağa getdik. Bir neçə kostyumu, ayaqqabı və köynəyi geyinib baxdıq. Mənim də, özünün də*

*bəyəndiyini aldıq və satıcıdan büküb verməsini xahiş etdi. Pulunu verib mağazadan çıxdıq. Paltarları mən götürmüşdüm. Onların evlərinə çatanda paltarları ona vermək istədim, götürmədi, "onları sənə almışam, universitetə geyinərsən, - dedi. Mən etiraz etmək istəyəndə xudahafizləşib getdi...*"

Belə faktlar özünü digər formalarda xalqımızın rəşadət, qəhrəmanlıq tarixi olan 44 günlük Vətən müharibəsində də bariz şəkildə nümayiş etdirdi. Bu müharibədə yüzlərlə şəhidlərimiz, qazilərimiz oldu ki, onlar komandirlərindən heç bir əmr almadan, məcbur edilmədən müharibə meydanında, güllə altında yaralı yoldaşlarını xilas edərkən, onları döyüş meydanından çıxararkən düşmən gülləsinə tuş gəldilər və mərdliklə həlak oldular, yaralandılar. Bunu yalnız belə insanlar, "mayası yaxşılıqla yoğrulmuş", mərd, qəhrəman, əsil-nəcabətində insanlara yaxşılıq etmək, yardıma ehtiyacı olanlara kömək etmək kimi keyfiyyətləri olan şəxslər, şəxsiyyətlər edə bilərdilər və etdilər də!

Tərbiyə böyük gücə, lakin K.A.Helvetsinin dediyi kimi, "hər şeyə qadir" yox, "çox şeyə qadirdir" (D.Didro). İnamla demək olar ki, şəxsiyyətin xarakterində, hərəkət və davranışında formalaşan keyfiyyətlərin heç də hamısı sonradan qazanılmışların, yəni tərbiyə və mühitin nəticəsi deyildir. Burada irsən gətirilənlər də az deyildir. Azərbaycan atalar sözündə deyildiyi kimi: "Naməmərd gəlib mərd olmaz, mərd olmasa atası".

Sədi Şirazi məşhur "Gülüstan" əsərində yazırdı: *"Cəvahir toz-torpağa batsa da, yenə qiymətini itirməz, toz-torpaq göyə qalxsa da, yenə qiymətə minməz. Tərbiyəsiz istedad heyifdir, istedadsız tərbiyə isə mümkün deyildir. Kül oddan əmələ gəldiyi üçün ali əsli-nəcabəti vardır, lakin özlərində hünər olmadığından torpağa bərabərdir; şəkərin qiyməti qamışdan əmələ gəldiyi üçün deyil, təbiətində şirinlik olduğu üçündür"* [8, s.227]. Aydın məsələdir ki, bu təbiət irsiyyətdir və irsi daşıyıcıdır.

Lakin elmə məlum olan mauqlilərin həyatı sübut edir ki, insan nə qədər yüksək, ali irsə mənsub olsa da, mükəmməl tərbiyə almasa, əlverişli mühitdə böyüməsə, irsən gətirdiklərinin heç biri onu şəxsiyyət səviyyəsinə qaldıra bilmir. Şəxsiyyətin formalaşması üçün əlverişli mühit və tərbiyə lazımdır. Lakin bu da həqiqətdir ki, irsiyyətində, genində müəyyən imkanlar yoxdursa, nə tərbiyə, nə də əlverişli mühit onu ali səviyyəyə yüksəltmək gücündə olmayacaqdır, fərd elə fərd səviyyəsində qalacaqdır.

Beləliklə, dediklərimizi ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, şəxsiyyətin inkişafı və formalaşması həm çətin, həm də mürəkkəb proses olmaqla irsiyyət, mühit və tərbiyənin birliyindən doğan bir hadisədir. Burada nə təkcə irsiyyət, nə mühit, nə də tərbiyə həlledici rol oynaya bilir. Lakin bacarıq və qabiliyyətlər kimi tərbiyəlilik də fərdlə hazır şəkildə doğulmasa da, bu sahədə imkanların olduğunu da inkar etmək olmaz. Şəxsiyyətin formalaşmasında tərbiyəlilik keyfiyyətləri sahəsində də təbii imkanlar vardır və bunlar şəxsiyyətin inkişafı və formalaşması prosesinə öz təsirini göstərir. Başqa

sözlə desək, uşaq doğularkən başqa təbii imkanlarla yanaşı, onda tərbiyəlilik (yaxud bunun əksi olan) keyfiyyətlərinə məxsus imkanlar da həyata gəlir ki, bunlar da şəxsiyyətin sonrakı inkişafına heç də az təsir etməyən öz izlərini qoyur və onların şəxsiyyətinin bu və ya digər parametrlərini müəyyən edir.

## ƏDƏBİYYAT


1. *Həsənov S.Q. və b.* Genetika: Dərs vəsaiti. Bakı, 2014, 245 s.
2. *İmam Qəzali.* Ey oğul. Bakı: Nurlar, 2007, 46 s.
3. *Kazımov N.M.* Tərbiyənin elmi pedaqoji əsasları. Bakı: Maarif, 1983, 204 s.
4. *Makarenko A.S.* Seçilmiş pedaqoji əsərləri, II c., Bakı, 1988, 328 s.
5. *Nəsirəddin Tusi.* Əxlaqi-Nasiri. Bakı: Elm, 1989, 256 s.
6. Nizaminin hikmət və nəsihətləri. Bakı: Yazıçı, 198, 149 s.
7. *Rüstəmov F.A.* Pedaqogika tarixi. Bakı: Nurlan, 2007, 750 s.
8. *Sədi Şirazi*. Gülüstan. Bakı, 2001, 254 s.
9. *Suxomlinski V.A.*Vətəndaşın doğulması. Bakı: Maarif, 1975, 362 s.
10. Ustadnamələr (Toplayanı və tərtib edəni S.Mehdiyeva). Bakı: ADPU, 2006, 391 s.


Redaksiyaya daxil olub 06.01.2022

*UOT 37*

***E.Ə.Mollayeva***
*Bakı Dövlət Universiteti*
*elzamollayeva@rambler.ru*

# AZƏRBAYCAN AİLƏSİNDƏ GENDER MÜNAQİŞƏLƏRİNİN TƏRBİYƏ PROSESİNƏ TƏSİRİ

***Açar sözlər:*** *gender bərabərsizliyi, gender stereotipləri, ailədaxili münasibətlər, gender təhsili, gender indeksi*

Azərbaycan ailə dəyərləri özündə Şərq xalqlarına aid milli-mənəvi dəyərləri qoruyub saxlayır və Qərb ailə dəyərləri sisteminə də müəyyən qədər inteqrasiya edir. Müasir dövrdə gedən sürətli iqtisadi-sosial dəyişikliklər əsasında avtoritar ailə idarəetməsindən eqalitar ailə münasibətlərinə keçid ailə institutlarına da cəmiyyətin digər sosial təsisatları kimi yenidən yanaşmanı zəruri edir. Dünyanın bir sıra ölkələri kimi Azərbaycanda da ailə tərbiyəsində, ailə münasibətlərində müəyyən böhranlar özünü göstərməkdədir. Bütün təsisatlar kimi ailə də uzun zaman gender təhlilindən kənarda qalmış, ailənin gender aspektləri çox az tədqiq edilmişdir. Azərbaycan ailəsinin milli-mənəvi dəyərlərinin gender kontekstində araşdırılması mövcud sosial-pedaqoji çətinliklərin aradan qaldırılmasına öz töhfəsini verə bilər.

***Э.А.Моллаева***

# ВЛИЯНИЕ ГЕНДЕРНЫХ КОНФЛИКТОВ НА ВОСПИТАТЕЛЬНЫЙ ПРОЦЕСС В АЗЕРБАЙДЖАНСКОЙ СЕМЬЕ

***Ключевые слова:*** *гендерное неравенство, гендерные стереотипы, внутрисемейные отношения, гендерное образование, гендерный индекс*

Азербайджан сохраняет семейные ценности, национальные и моральные ценности народов Востока и в определенной степени интегрирует их в систему семейных ценностей Запада. Переход от авторитарного семейного управления к эгалитарным семейным отношениям на основе быстрых экономических и социальных изменений в наше время заставляет пересмотреть семейные институты как другие социальные институты общества. Как и ряд стран мира, Азербайджан переживает определенные кризисы в семейном воспитании и семейных отношениях. Как и все институты, семья давно исключена из гендерного анализа, а гендерные аспекты семьи мало изучены. Изучение национально-нравственных ценностей азербайджанской семьи в гендерном контексте может способствовать преодолению существующих социально-педагогических трудностей.

***E.A.Mollayeva***

## THE IMPAKT OF GENDER CONFLICTS ON THE EDUCATIONAL PROCESS IN THE AZERBAIJANI FAMILY

***Keywords:*** *gender inequality, gender stereotypes, family relations, gender education, gender index*

Azerbaijan preserves family values, national and moral values of the peoples of the East, and to some extent integrates them into the system of family values of the West. The transition from authoritarian family management to egalitarian family relations on the basis of rapid economic and social changes in modern times makes it necessary to reconsider family institutions as other social institutions of society. Like a number of countries in the world, Azerbaijan is experiencing certain crises in family upbringing and family relations. Like all institutions, the family has long been excluded from gender analysis, and the gender aspects of the family have been little studied. The study of the national and moral values of the Azerbaijani family in the gender context can contribute to overcoming the existing socio-pedagogical difficulties.

İnsan həyatında önəmli rol oynayan ailə insanın düşdüyü ilk sosial mikroqrupdur və həm şəxsiyyət, həm də cəmiyyət üçün ümumbəşəri dəyər, mədəni irsdir. Ailə qadın və kişinin qarşılıqlı istəyi ilə yaranan ittifaq olmaqla, sosial-mənəvi və bioloji mahiyyətə malikdir. O, cəmiyyət üçün biososial törəmə rolu oynayır və bəşəriyyətin inkişafının müəyyən ictimai-iqtisadi formasiyalarında həmin funksiyanı yerinə yetirən sosial institut statusunu qazanmışdır. Ailə dövlətin kiçik modelidir və mühitdə gedən dəyişikliklərə öz münasibətini bildirməklə bərabər, özü də bu dəyişikliklər fonunda dəyişir. «Ailə anlayışı sosiallaşma, təhsil, siyasət, hüquq, əmək, mədəniyyət və digər sahələrin öyrənilməsi üçün vacibdir və sosial nəzarət, sosial nizamsızlıq, sosial mobillik, miqrasiya, demoqrafik dəyişikliklər prosesini dərk etmək üçün vasitədir» [3, s.97]

Azərbaycan ailə dəyərləri özündə Şərqə məxsus milli-mənəvi dəyərləri qoruyub saxlamaqla bərabər, Qərb ailə dəyərləri sisteminə də müəyyən qədər inteqrasiya edir. Uzun əsrlər boyu «patriarxal» yanaşmaya əsaslanan ailədə müasir dövrdə gedən sürətli iqtisadi-sosial dəyişikliklər fonunda avtoritar ailə idarəetməsindən eqalitar ailə münasibətlərinə keçid ailə institutlarına cəmiyyətin digər sosial təsisatları kimi yenidən yanaşmanı zəruri edir.

Müasir qloballaşma şəraitində cəmiyyətin strukturları özünəməxsus şəkildə böhran mərhələsini keçirir və bu, ailədən də yan keçmir. Ailədaxili münasibətlər sistemində ziddiyyətlər, qadın-kişi rollarının sosial mahiyyətinin getdikcə dəyişməsi, cinsi azlıqlara tolerant münasibət, iqtisadi çətinliklər, təbii kataklizmlər və digər bu kimi çətinliklər ailə institutlarının böhranını şərtləndirir.

Şərq və Qərb ailə dəyərləri bu böhrana davamlılıq müstəvisində sanki sınaqdan keçir. Qərbin kosmopolit, ifrat azadlıq ideyaları ilə Şərqin mühafizəkar, ənənəvi tərbiyə sistemi arasındakı qarşıdurma XXI əsrdəki qədər amansız və uzun sürən olmamışdır. Qərb insan psixologiyasına təsiri maddi dəyərlər, Şərq isə mənəvi dəyərlər üzərində qurur. Texnoloji inkişafın ən yüksək mərhələsinə çatmaqda olan bəşəriyyət Şərq ailə dəyərlərinin, ümumiyyətlə, Şərq tərbiyə fəlsəfəsinin düzgünlüyünü, ona qayıdışın yeganə çıxış yolu olmasını getdikcə daha çox dərk edir. Belə bir şəraitdə ailənin qorunub saxlanılması bütün dövlətlərin ümumi vəzifəsinə çevrilir. Çünki sabit və möhkəm ailə güclü dövlətin sütunlarından birini təşkil edir.

Ailə problemləri ümumi tərbiyə sisteminə güclü təsir edən amildir və onun aradan qaldırılması bu sahədəki tədqiqatlarda yeni istiqamətlərin yaranması zərurətini yaradır. Bu istiqamətlərdən biri ailədaxili münasibətləri gərginləşdirən və müasir dövrdə daha aktual olan gender münaqişələridir. Amerika sosioloqu K.M.Shocley və b. görə, gender münaqişələri müasir dövrdə çox az tədqiq edilmişdir [8]. Ancaq buna baxmayaraq, tədqiqatçılardan Pleck Joseph, K.M.Shockley, W.Shen, M.M.DeNinzio, M.L.Arvan gender münaqişələrinin yaranma səbəbləri və onların fəsadları haqqında bir sıra tədqiqatlar aparmışlar.

Ailə tərbiyəsinə ciddi təsir göstərən gender münaqişələri necə yaranır və onun mahiyyəti nədən ibarətdir? Gender münaqişələrinin yaranmasında qadın və kişilərin real rollarının gender stereotipləri ilə üst-üstə düşməməsi əsaslı rol oynayır. Problemlə bağlı Bakı Dövlət Universitetinin Sosial elmlər və psixologiya fakültəsinin tələbələri ilə müsahibə və anket sorğuları keçirilmişdir. Aparılan tədqiqatdan aydın olmuşdur ki, onların 55%-i gender münaqişələrinin neqativ təsirini müxtəlif şəkildə hiss edirlər:

- Tələbəlik illərindən ailə qurmuş insanlarda xroniki yorğunluğun olması (ailə qurmuş həm oğlan, həm də qız tələbələr eyni vaxtda həm yaxşı ata, ana, həm də yaxşı tələbə olmaqda çətinlik çəkirlər);
- Ənənəvi gender stereotiplərinə uyğun olmamaqda özünü günahkar hesab etmək ( məsələn, «yaxşı ana öz uşağının tərbiyəsini dayəyə etibar etməməlidir» və ya «Yaxşı ər ailəni hərtərəfli təmin etməlidir»);
- Qadın və kişi rolları haqqında ənənəvi gender rollarına riayət etməyən insanlara qarşı aqressiyanın olması;
- Əks cinsə qarşı yüksək tələblərin qoyulması (kişilərin qadınlar, qadınların isə kişilərdən tələbləri) və s.

Tədqiqatçıların fikrincə (Pleck Joseph, K.M.Shockley, W.Shen, M.M.De Ninzio, M.L.Arvan), gender münaqişələrinin bioloji, psixoloji və sosial mənbələri mövcuddur:

- Gender münaqişələrinin bioloji mənbəyinə qadın və kişilərin anatomik-fizioloji, reproduktiv xüsusiyyətlərindəki fərqlər daxildir.

- Gender münaqişələrinin psixoloji əsasında qadın və kişilərin psixoloji fərqləri durur, məsələn eqalitar tipli ailədən çıxan qadın ilə ənənəvi-patriarxal ailədən çıxan kişinin qurduğu ailədə cinsi-rol istiqamətində münaqişələr özünü tez-tez göstərir.

- Sosial mahiyyətə malik olan gender münaqişələrinə ailədaxili funksiyaların bölüşdürülməsi, ailədə liderlik, yüksək maaşlı və perspektivli işlə təmin olunma, hakimiyyət strukturlarında iştirak və s. kimi amillər daxildir.

Sosial tərkibli gender münaqişələri gender bərabərliyi səviyyəsindən asılı olmayaraq bütün ölkələrdə mövcuddur. Ancaq K.Shockleyə görə, gender bərabərsizliyinin geniş yayıldığı Yaxın Şərq ölkələrində qadınların işləməsinə ailə üzvlərinin müdaxiləsi kişilərə nisbətən daha çoxdur. Eyni zamanda qadınların ənənəvi rolları (ana, həyat yoldaşı, gəlin) haqqında stereotiplərin güclü olması qadınlarda «ailəyə daha az diqqət ayırmaq» sindromu ilə müşayiət olunan günahkarlıq hissini yaradır. Onlara elə gəlir ki, onlar özlərini ailəyə, həyat yoldaşlarına və uşaqlarına lazımi səviyyədə həsr edə bilmirlər [8].

K.Shockleyin fikrincə, ABŞ hökuməti gender münaqişələrinin qarşısının alınması üçün ailə ilə iş həyatı arasında tarazlığın saxlanılması məqsədilə həm kişilər, həm də qadınlar üçün çevik iş qrafiki, hər iki valideyn üçün məzuniyyətin verilməsini təmin etməlidir [8]. Onun bu ideyası bütün ölkələr kimi, Azərbaycan üçün də aktualdır.

Müasir dövrdə mədəniyyətlərin bir-birinə inteqrasiyası şəraitində ailəni kənar təsirlərin təcavüzündən qorumaq getdikcə çətinləşir. Məhz bu inteqrasiya ilə şərtlənmiş dəyişikliklər ailəyə Qərb və Şərq ailə modellərindən götürülmüş mütərəqqi cəhətlərin tətbiqini zəruri edir. İqtisadi inkişafında Qərbə və ümumdünya iqtisadi məkana inteqrasiyanı əsas götürən Azərbaycan, iqtisadi inkişaf sürətinin artması ilə yanaşı, cəmiyyətin mənəvi-əxlaqi səviyyəsinin göstəricilərindən biri olan ailənin həm sosial, həm hüquqi, həm də mənəvi cəhətdən tənzimlənməsinin qeydinə qalır. Azərbaycan cəmiyyəti nə qədər müasirləşsə də, həyatın bir çox sahələrinə yeni texnologiyalar tətbiq edilsə də, ailə öz müqəddəs qanunlarını, sabitliyini qoruyub saxlamağa çalışır. Çünki Azərbaycan ailəsi özündə müəyyən mütərəqqi adət-ənənələri, yaxşı mənada ailədaxili münasibətlərin orijinallığını saxlayan mənəvi dəyərdir. Azərbaycan xalqı üçün ailə onun qoruya biləcəyi son istehkamlarından biridir və bu istehkamın qorunması üçün yaşlı nəsil sosial təcrübəsini estafet kimi gənc nəslə ötürür.

Dünyada gedən qloballaşma prosesləri ailədən də yan keçmir və yeni ailə modelinin yaranması ənənəvi ailə dəyərləri sisteminə güclü təsir göstərir. Bəzi sosioloqlar artıq XXI əsrdə ailənin əvvəlki funksiyalarını itirməklə onun sosial institutu kimi getdikcə aradan çıxmasını qeyd edirlər. Amma digər qrup alimlər, xüsusilə T.Parsons qeyd edir ki, «ailənin qalan funksiyaları daha da məxsusiləşir və cəmiyyət üçün xüsusi əhəmiyyət kəsb etməyə başlayır» [2, s.352]. T. Parsons

qadının ailədəki mövqeyini ilk növbədə tərbiyə ilə əlaqəli «ekspressiv liderlik» rolu ilə, kişi rolunu isə arvadını və uşaqlarını təmin etməyi nəzərdə tutan «instrumental liderlik» rolu ilə müəyyənləşdirmişdir» [5, s.614-616].

Müasir dövrdə uşaqların sosial-pedaqoji istiqamətdə inkişafında onların aid olduqları ailələrin tipi, funksional quruluşu önəmli rola malikdir. Belə ailələrdən bəzilərini nəzərdən keçirək:

Uşaqların ahəngdar inkişafında funksional (normal) və disfunksional (qeyri-normal) ailə tiplərinin rolu elmi-pedaqoji ədəbiyyatda geniş verilir. Funksional-normal ailə tipində vəzifələr diferensial şəkildə, məsuliyyətlə həyata keçirilir, onun üzvlərinin hamısının tələbatları məqbul səviyyədə ödənilir. Belə ailə tipində valideynlər arasında güclü həmrəylik, yaşlı və gənc nəsillər arasında isə varislik orada uşaqlar üçün rahat sosiallaşma mühiti yaradır. Funksional ailələr üçün çevik iyerarxik ailə quruluşu və eqalitarlıq xarakterik olur.

Disfunksional-qeyri-normal ailələr öz funksiyalarını yerinə yetirə bilmir, burada böyüyən uşaqların fiziki-psixoloji inkişafına daimi qorxu və əsəb gərginliyi mane olur.

Ailədaxili gender münaqişələrinin yaranmasında ailədaxili vəzifələrin bölgüsünün hansı ailə tipinə aid olması da öz təsirini göstərir. Bu baxımdan təsnifat da maraqlıdır:

-Patriarxal-ənənəvi və asimmetrik ailə. Belə ailələrdə həlledici söz sahibi ailənin ağsaqqalı və ya ər olur. Bu ailə özündə ən azı üç nəslin nümayəndəsini birləşdirir. Qadının ərindən iqtisadi asılılığı, kişinin üstünlüyünün qeyd-şərtsiz qəbul edilməsi bu ailə tipi üçün səciyyəvidir.

-Neopatriarxal və ya ənənəyə əsaslanan müasir ailə. Burada kişinin liderliyi saxlanılsa da, qadının iqtisadi asılılığı bir qədər yüngülləşir. Amma həm patriarxal, həm də neopatriarxal ailə tiplərində qadınların məişət qayğıları ilə yüklənməsi özünü qabarıq göstərir və bunu alimlər qadının "ikiqat yüklənməsi" kimi ifadə edirlər. Çünki qadınlar həm ictimai əməkdə iştirak edir, həm də ailə təsərrüfatında da daha çox işin öhdəsindən gəlməyə məcbur olurlar.

-Eqalitar ailə və ya ailədə funksiyaların bərabər bölüşdürülməsi. Son illərdə belə ailə tipinə daha çox rast gəlinir və belə ailələr ailə üzvləri arasında vəzifələrin ədalətli bölgüsü, qərarlarda həm qadın, həm də kişinin həlledici səsə malik olması, problemlərin bərabər müzakirəsi, münasibətlərin emosional çalar müxtəlifliyi ilə səciyyələnir.

Ailə münasibətlərinin gender aspektini tədqiq edən alimlər burada ər ilə arvadın ailədəki davranışlarına, cəmiyyət tərəfindən qəbul edilmiş rollarına, nikah münasibətlərindəki formal və qeyri-formal normalara diqqət ayırırlar.

Dünyanın bir sıra ölkələri kimi, Azərbaycanda da ailə tərbiyəsində, ailə münasibətlərində və ümumilikdə ailə təsisatlarında müəyyən böhranlar özünü göstərməkdədir. «Sivilizasiyalı ölkələrdə yaşayan kişilər və qadınlar arasındakı

münasibətlərdə bu qaydalar pozulmuşdur. Onun yerinə xaos, hərc-mərclik və narazılıqlar hökm sürməyə başlamışdır» [6, s.26].

Ailə münaqişələri bütün ailə üzvlərinin həyatına bu və ya digər mənada mənfi təsir göstərməklə onun funksiyalarını zərbə altında qoyur. «İdeal ailə» arzusunda olan kişilərin bir çoxu hesab edirlər ki, qadının işləməsi onun yaxşı ana və yaxşı həyat yoldaşı olmasına kölgə salmamalıdır. Burada işləyən qadının ailə qayğıları ilə ikiqat yüklənməsi də böyük rola malikdir. J.Pleckə görə, kişi ilə bərabər, yüksək maaşlı işdə çalışan qadınların ev işləri ilə məşğul olmaq ehtimalları çox aşağıdır: «Qadının işçi rolunun ailə tələblərinə qarşı olması qadın işçilər haqqında mənfi stereotiplərin əsas hissəsidir. İşləyən qadınlar üçün stress ailə vəzifələri ilə ziddiyyət təşkil edir» [7, s.423].

Bu günümüzə qədər də Azərbaycan ailələrində ənənəvi əmək bölgüsü mövcuddur və bu bölgüyə əsasən ər pul qazanır, qadın isə təsərrüfatın idarə edilməsi, ailə büdcəsindən səmərəli istifadə etməklə onun bəlli zaman daxilində maddi təminatının həyata keçirilməsi ilə məşğul olur. Ailə təsərrüfatının təşkilində və uşaqların təlim-tərbiyə prosesində kişilərin rolu son illərdə azalmışdır ki, bu da ailədə tələblərdə vahidlik prinsipinin pozulması, gərginliyin və sonda münaqişələrin yaranması ilə nəticələnir. Ailə münaqişələrinə ailələrin 80-85 faizində rast gəlinir və bu münaqişələr ailənin bütün üzvlərinin, xüsusilə uşaqların psixi, emosional vəziyyətlərinə, təlim-tərbiyə prosesinə xüsusi təsir edir. «Ailə münaqişələri bir-birinə qarşı qoyulmuş meyillər və görüşlərin toqquşması əsasında ailə üzvləri arasında olan münaqişələr deməkdir» [4, s.355].

Ailə münaqişələrinə təsir göstərən mikrofaktorlar özünü daha qabarıq göstərir ki, buraya da ailənin maddi durumunun getdikcə pisləşməsi, ailə qayğılarının ər və ya arvadın üzərinə daha çox yüklənməsi və digər amilləri daxil etmək olar. Ailə münaqişələri çox vaxt ağır sosial nəticələrlə bitir və belə vəziyyəti xüsusilə uşaqlar ağır keçirirlər. «Valideynləri boşanan və ya ailədaxili münasibətlərin gərginləşməsi üzündən mənəvi zədələrə məruz qalan övlad cəmiyyətə heç də həmişə sağlam insan olaraq qarışa bilmir. Bir çox hallarda onların aldıqları mənəvi zədələr digər cəmiyyət üzvlərinə qarşı aqressiya olaraq ötürülür. Beləliklə, ailə problemləri üzərindən kiçik və ya yeniyetməlik yaşında müəyyən travmalar almış insan nəinki sonralar özünü doğrulda bilmir, üstəlik, başqalarına da zərər vermək riski daşıyır» [9].

Əgər ailə münaqişələri sonda boşanmalarla bitərsə, bu, ailə üzvlərinin həyatına ciddi təsir etməklə ata və ananın üzərinə uşaqların qayğısı, təlim-tərbiyəsi ilə bağlı yeni vəzifələr qoyur. Bəzən uşaqlar ana ilə qalır və bu da atanı müəyyən məsuliyyətdən uzaqlaşdırır, uşaqların maddi və mənəvi yükünü ana tək çəkməli olur. Hətta boşandıqdan sonra aliment verməyən ata müəyyən vaxtdan sonra uşaqları ilə demək olar ki, maraqlanmır. Təəssüf ki, Azərbaycanda ailə münaqişələri nəticəsində boşanan ailələrin sayı artan xətlə inkişaf edir və boşanma cəmiyyətə sürətlə artan natamam ailə qazandırır. Boşanmaların neqativ

təsiri ilə bu gün boşanmanın ağır mənəvi yükünü daşıya bilməyən uşaqlar arasında, xüsusilə yeniyetmələr arasında cinayətkarlığın, narkomaniyaya meyilliliyin və deviant davranışın formalaşmasına şərait yaradır.

Cədvəl 1

**Rəsmi orqanlar tərəfindən qeydə alınmış nikah və boşanmalar**

| İllər | Nikahlar | Boşanmalar | Əhalinin hər 1000 nəfərinə | |
|---|---|---|---|---|
| | | | Nikahlar | Boşanmalar |
| 2000 | 39611 | 5478 | 5,0 | 0,7 |
| 2001 | 41861 | 5382 | 5,2 | 0,7 |
| 2002 | 41661 | 5738 | 5,2 | 0,7 |
| 2003 | 56091 | 6671 | 6,9 | 0,8 |
| 2004 | 62177 | 6914 | 7,6 | 0,8 |
| 2005 | 71643 | 8895 | 8,7 | 1,1 |
| 2006 | 79443 | 7817 | 9,5 | 0,9 |
| 2007 | 81758 | 8340 | 9,7 | 1,0 |
| 2008 | 79964 | 7933 | 9,3 | 0,9 |
| 2009 | 78072 | 7784 | 8,8 | 0,9 |
| 2010 | 79172 | 9061 | 8,9 | 1,0 |
| 2011 | 88145 | 10747 | 9,7 | 1,2 |
| 2012 | 79065 | 11087 | 8,6 | 1,2 |
| 2013 | 86852 | 11730 | 9,3 | 1,3 |
| 2014 | 84912 | 12088 | 9,0 | 1,3 |
| 2015 | 68773 | 12764 | 7,2 | 1,3 |
| 2016 | 66771 | 13114 | 6,9 | 1,4 |
| 2017 | 62923 | 14514 | 6,5 | 1,5 |
| 2018 | 62484 | 14857 | 6,4 | 1,5 |
| 2019 | 63869 | 17148 | 6,4 | 1,7 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Cədvəldən də aydın görünür ki, son 2019-cu ilin boşanmalar üzrə göstəricisi əvvəlki illərə nisbətən çoxdur.

Çox vaxt boşanma ilə nəticələnən ailə münaqişələrinin tərkibində ərlə arvad arasında şəxsi münasibətlərdən qaynaqlanan gender münaqişələri dominant olur. Bu münaqişələr qadının və kişinin həm iş həyatını, həm də ailədaxili əmək bölgüsündəki yerini, rolunu əhatə edir. Xüsusilə rolların bölgüsündə rol davranışları ilə bağlı özlərinin həyata keçməyən arzuları bu münaqişələrin əsasında durur və burada cinslərin müxtəlif yanaşması özünü göstərir. Kişilər ailə daxilində qadınları ənənəvi rolda görməyi (ailə qayğıları ilə daha çox məşğul olmağı) arzu edirlərsə, qadınlar rol bölgüsündə eqalitar ailəyə daha çox üstünlük verirlər. Gender münaqişələrinin əsasında qadının daha çox yüklənməsi də durur və onlar ailədə fəaliyyətlərinin alternativi kimi ictimai sferaya üz tuturlar. Təəssüf ki, bu gün Azərbaycan qadınlarının ikiqat yüklənməsinə birbaşa təsir göstərən faktorlar hələ də qalmaqdadır və buraya məişət xidməti sahəsinin qadınlara köməyinin lazımi səviyyədə olmaması (bu, xüsusilə bölgələrdə özünü daha qabarıq göstərir), ər-arvad arasında ailə rollarının eqalitar prinsip üzrə deyil, kişinin mənəvi avtoritarlığı və qadının əmək bölgüsündə daha çox işləri üstlənməsini ehtiva edən təsərrüfat rollarının qeyri-bərabər bölgüsü, milli düşüncə tərzində, mental baxışlarda qadınların sosial statuslarına münasibətdə patriarxal çalarların olması daxildir. Tədqiqatçı alim N.Çələbiyev yazır: «Müasir dövrdə kişilərlə qadınlar arasında ziddiyyətlərin get-gedə dərinləşməsinin əsas səbəbi onlar arasında min illər boyu mövcud olmuş təbii əmək bölgüsünün get-gedə zəifləməsi, onun əvəzinə ictimai əmək bölgüsünün dərinləşməsidir» [1, s.48].

Müəyyən tarixi yol keçmiş boşanmalar ümumilikdə ailə dəyərlərinin aşılanmasını sürətləndirir və o, yalnız tərəflərdən birinin marağını, müstəqillik arzularını həyata keçirsə də, digər tərəf, həmin ailədə böyüyən uşaq üçün ağır psixi-emosional şərait yaradır. Amerika sosioloqu P.Boxannan boşanmanı belə ifadə edir: «Bu mürəkkəb sosial fenomen olmaqla, eyni zamanda mürəkkəb bir dərddir» [2, s.157].

Bəzi tədqiqatçılar boşanmaların alternativi kimi qarşılıqlı anlaşma və dinləmə şəraitində mövcud problemin aradan qaldırılması üçün səylərin birləşdirilməsini əsas götürürlər. Amerikalı alim Karl Vitaker bu mənada qeyd edir ki, boşanma ümumiyyətlə mənasızdır. Sadəcə olaraq (bu heç də asan deyildir) həmişə münasibətləri tənzimləmək lazımdır, bu onları çıxılmaz vəziyyətdən çıxarır, münaqişələr enerjini hər iki tərəfi qarşılıqlı günahlandırma və boşanmaya deyil, şəxsi inkişafa yönəldir [2, s.156].

Tədqiqatlara əsaslanaraq bu nəticəyə gəlirik ki, Azərbaycanda bütün təsisatlar kimi ailə də uzun zaman gender təhlilindən kənarda qalmış, ailənin gender aspektləri çox az tədqiq edilmişdir. Azərbaycan ailəsinin özünəməxsus yazılmış və yazılmamış qanunlarının məhz gender kontekstində araşdırılması

bu gün ailələrin üzləşdikləri sosial-pedaqoji çətinliklərin aradan qaldırılmasına öz töhfəsini verə bilər. Məqalədə ailə ilə bağlı gender problemləri, bu problemlərin aradan qaldırılması yollarının müəyyənləşdirilməsi öz əksini tapmışdır. Sosial pedaqogik, Ailə pedaqogikası, Sosiologiya fənlərinin tədrisində, habelə ortaya çıxan ailə problemlərinin aradan qaldırılmasında ondan istifadə məqsədəuyğundur.

Son dövrlərdə uğurlu ailələrin yaranmasında, ailə təsərrüfatının idarə edilməsində eqalitar ailə tipinə daha çox üstünlük verilir və ailə funksiyalarının bərabər bölünməsinə əsaslanan bu ailə tipi həm qadın, həm də kişinin həddindən artıq yüklənməsinin qarşısını alır. Avtoritar idarəetmədən eqalitar idarəetməyə keçid uğursuz ailələrin yaranmasının qarşısını ala bilər və eyni zamanda demokratik dəyərlərin ailə daxilində təşəkkülünə də münbit şərait yaradar. Məhz bu şərait ailənin bir tam kimi mövcudluğunu şərtləndirir. Ərlə-arvadın, yəni iki ayrı dünyanın qovuşmasından yaranan birlik xoşbəxtlik, bərabərlik, inam və etiqad birliyidir. Bu birlik qorunmuşsa, uğursuz ailə sözünü lüğətimizdən silə bilərik.

Bu gün Azərbaycan ailələrində gender əsaslı münaqişələrin aradan qaldırılması və dövlət tərəfindən gender bərabərliyinin həm ailə, həm də cəmiyyətdə bərqərar olması üçün xüsusi mexanizmin yaradılması əsas prioritetlərdən biri olmalıdır.

## ƏDƏBİYYAT


1. *Çələbiyev N.* Gender konsepsiyasının psixoloji aspektləri / «Gender problemi və Müasir Azərbaycan» II Respublika elmi konfransının materialları. Bakı, Azərbaycan Universiteti, 2018, 23 noyabr, s.47-50
2. Gender elminə giriş. Bakı, 2005, 475 s.
3. Sosial Reabilitasiya üçün Kompas: Dərs vəsaiti. Bakı, 2017, 270 s.
4. *Курбатов В.И.* Конфликтология: Учеб.пособие для студентов вузов. Ростов-на-Дону: Феникс, 2005, 401 с.
5. *Парсонс Т.* Новый аналитический подход к теории социальной стратификации / Парсонс Т. О структуре социального действия. М.: Академический проект, 2000, с.614-616
6. Пиз А., Пиз В. Язык взаимоотнощений мужчина-женщина. Москва: Эксмо, 2013, 400 с.
7. *Pleck Joseph H.* The Work-Family Role system // Sosial Problems, 1977, pp.417-427
8. Shockley K.M., Shen W., DeNinzio M.M., Arvan M.L. Disentangling the Relationship Between Gender and Work-Family Conflict: An Inteqration of Theoretical zperspectives Using Meta-Analytic Methods // Journal of Applied Psychology, 2017, Vol.102/ 12/ pp.1601-1635
9. https://kaspi.az/az/natamam-aile.


Redaksiyaya daxil olub 14.02.2022

*UOT 372.8:78*

***S.H.Musayeva***
*Naxçıvan Dövlət Universiteti*
*sevamusali73@gmail.com*

# MUSİQİ MÜƏLLİMİNİN PEŞƏKAR HAZIRLIĞINDA İNTEQRATİV YANAŞMANIN ROLU

***Açar sözlər:*** *inteqrasiya, texnoloji tərəqqi, innovasiyalar, biliyin kompleks tətbiqi*

Məqalədə musiqi müəlliminin peşəkar, kompleksli və hərtərəfli hazırlığında inteqrativ yanaşmanın rolundan bəhs edilir.

Təhsilin müasir inkişaf prosesini izlədikdə bir daha şahidi oluruq ki, innovasiya və innovativ texnologiyaların sürətlə inkişafı gələcək musiqi müəllimlərini daim və davamlı olaraq öz bilik və bacarıqlarını təkmilləşdirməyə, yaradıcı axtarışda olmağa istiqamətləndirir. Bütün bunlar isə elmi-idraki qabiliyyətlərin artırılması, hərtərəfli şəxsiyyətin inkişafına müsbət təsir göstərir.

***С.Х.Мусаева***

## РОЛЬ ИНТЕГРАТИВНОГО ПОДХОДА В ПРОФЕССИОНАЛЬНОЙ ПОДГОТОВКЕ УЧИТЕЛЯ МУЗЫКИ

***Ключевые слова:*** *интеграция, технологический прогрес, инновации, комплексное применение знаний*

В статье рассматривается роль интегративного подхода в профессиональной, комплексной и всесторонней подготовке учителя музыки.

Следя за современным развитием образования, мы еще раз видим, что бурное развитие инноваций и инновационных технологий ориентирует будущих учителей музыки на постоянное и непрерывное совершенствование своих знаний и навыков, на творчество. Все это положительно влияет на повышение научных и познавательных способностей, развитие всесторонней личности.

***S.H.Musayeva***

## THE ROLE OF AN INTEGRATIVE APPROACH IN THE PROFESSIONAL TRAININQ OF A MUSIC TEACHER

***Keywords:*** *integration**,** technological progress, innovations, complex application of knowledge*

The artikle discusses the role of an inteqrative approach in the professional, comprehensive and comprehensive traininq of a music teacher.

Following the modern development of education, we see once again that the rapid development of innovation and innovation technologies directs future music teachers to constantly and continuously improve their knowledge and skills, to be creative. All this has a positive effect on the development of scientivic and cognitive abilities, the development of a comprehensive personality.

Bu gün musiqi təhsili sistemi yeni texnologiyaların yaradılmasına və təhsilin formalarının yenidən işlənməsinə yönəldilmişdir. Tədris prosesində inteqrativ yanaşmadan istifadə musiqi müəllimini kompleksli və hərtərəfli hazırlamağa imkan verir.

İnnovasiyalar və müxtəlif yanaşmalardan istifadə etmək müəllimləri daim və davamlı olaraq öz bilik və bacarıqlarını təkmilləşdirməyə, dəyişən şəraitə hazır olmağa, yaradıcı axtarışda olmağa istiqamətləndirir.

Təhsilin müasir inkişaf tempinə nəzər saldıqda, ali təhsilin qarşısında duran vəzifələrdən biri olan tədris prosesində tələbələrin peşə fəaliyyətini formalaşdıran informasiya və innovativ texnologiyalar sahəsinin aktuallığını getdikcə daha çox başa düşürsən. "İnteqrasiya" termini bir-birindən fərqlənən hissə və elementlərin bütövlükdə birləşməsilə əlaqələndirilən yeni keyfiyyətə malik bir inkişaf prosesidir. Musiqi təhsilində inteqrasiya bir fəndən digərinə bələdçi rolunu oynayır. Bütün musiqi fənlərinin bir ümumi cəhəti var. Bu da musiqidə müntəzəmlik adlanır. Musiqidə müntəzəmlik musiqi quruluşunu, sistemini əmələ gətirir və musiqi tarixini mənimsəməyə kömək edir. "İnteqrasiya" anlayışı XX əsrin sonlarında subyektlərarası əlaqələr sistemində meydana çıxdı. Bütün təhsil prosesi bir-birinə uyğun, oxşar və qohum olan fənlərin kompleksindən ibarət idi və İ.F.İsayev, V.A.Slastenina və başqaları kimi alimlər öz işlərində bu fənləri təkmilləşdirmiş və sistemləşdirmişlər. İnteqrasiya, fənlərarası əlaqələrin nümunəsi kimi fəaliyyət göstərir və elmlər arasında əlaqələr yaradaraq tədris prosesini yeni səviyyədə öyrənməyə kömək edir. İki inteqrasiyanın iki mənasını nəzərdən keçirək. Birinci mənada inteqrasiya, dünyanın vahid şəklinin, ətraf mühitin və təlimatların həssaslığı kimi fəaliyyət göstərir. İkinci mənada isə müxtəlif sahələrdə biliklərin birliyi, təlimatların öyrənmə vasitələridir. Bir neçə onilliklər ərzində inteqrasiya təhsildə strateji əhəmiyyətli bir istiqamət kimi görünür. İnteqrasiya sayəsində geniş miqyaslı informasiyalar, biliklər almaq, daha çox məlumat əldə etmək mümkündür. Dünya pedaqogikasında inteqrasiya ümumiləşdirmə vəziyyəti hesab olunur. İnteqrasiya yeni metodologiya və təhsil sistemində yeni bir nəticə yaradır. İnteqrasiya yenilənmə üsuludur, əldə olunan biliklərin artmasıdır. Eyni zamanda bu elmi biliklərin bir sistem şəklində birləşməsi kimi fəaliyyət göstərir. İnteqrasiyada ən vacib olan sistemli yanaşmadır ki, bu da şəxsiyyətin inkişafında və təhsildə obyektin mərhələli öyrənilməsini tələb edir.

90-cı illərdə inteqrasiya təkamül edərək "Fənlərarası əlaqə" terminindən "Fənlərarası rabitə" termini ilə əvəz olundu.

Tədqiqat və elmi yanaşmaların təhlili inteqrasiyanı fənlərarası yanaşma sistemi kimi müəyyən etməyə imkan verir ki, bu da ümumi təhlildə təhsil prosesində problemli situasiyaların həlli üçün zəmin yaradır. İnteqrasiya elm və incəsənət arasındakı əlaqəyə əsaslanaraq pedaqoji sistemin xüsusiyyətlərini müəyyən edir, pedaqoji problemləri pedaqoji məlumatların ardıcıllığı və bütövlüyü, tərbiyəedici və didaktik sistemlərə inteqrasiya etmək əsasında həll oluna biləcəyini göstərir.

Son illərdə inteqrasiya müasir pedaqogikanın özünəməxsus məqsədləri, fərqləndirici xüsusiyyətləri, inteqrativ xüsusiyyətlərin formalaşma yolları olan əsas kateqoriyalarından birinə çevrilmişdir. Alimlərin fikrincə, inteqrasiya gələcəyə hesablanmış xarakter daşıyır ki, bu da təhsildə müasir vasitələrin və ən son texnologiyaların sürətli inkişafı kimi özünü göstərir, təhsilin təkmilləşdirilməsində perspektivli istiqamətdir.

İnteqrasiya bir proses kimi kompleks biliklərin formalaşdırılması məqsədi ilə bir sıra fənlərin məzmununun vahidliyini, bütövlüyünü özündə cəmləşdirir. Nəticə etibarı ilə ən qısa zamanda təhsil sistemini dərindən dərk etmək olur. Amma bunun üçün gələcək ixtisasçı mobil təfəkkürə yiyələnməlidir. Bura analiz, sintez, müqayisə, müşahidə, deduksiya, eksperiment və s. daxildir. Bu halda fənlərarası əlaqə izlənəcək, biliklərin inteqrasiyasında yekunlaşacaq. A.S.Bezrukovanın təsdiq etdiyi kimi, inteqrasiya ayrı-ayrı komponentlərə xas olmayan yeni xassələrə malik olan əlamətlərin tamlığıdır. Belə hesab olunur ki, inteqrasiya ənənəvi metodlardan fərqli olaraq şagirdlərin dünyagörüşünü sürətləndirir və ən qısa müddətdə effekt verir [6, c.152].

İnteqrasiyada fənlərarası əlaqələr əqli fəaliyyəti aktivləşdirir, təhsilin keyfiyyətini yüksəldir, elmi və idraki qabiliyyətləri formalaşdırır, ümumi mənzərənin qavranılmasını təmin edən müxtəlif fənləri kompleks şəkildə öyrənməyə imkan verir. Bütün bunlar fənlər arasında əlaqənin dərinləşməsinə xidmət edir və təhsilin intensivləşdirilməsinə yönəlir.

Fənlərarası inteqrasiya pedaqoji elmin əsaslarının öyrənilməsində və onun inkişafında, həmçinin gələcək musiqi müəllimlərinin əməli fəaliyyəti üçün mühüm əhəmiyyət kəsb edir. İnteqrasiyanın mahiyyəti vahid başlanğıc axtarışı və yeni məzmunun yaradılmasıdır. Fənlərin məzmununun inteqrativ potensialı müxtəlif istiqamətlərə malikdir: irəli və geri, şaquli və üfüqi, müşayiət olunan və yönəldilmiş. Üfüqi istiqamətlərin özünəməxsus cəhətləri var ki, bu da təkrarlara yol verməmək və tədris zamanı vaxta qənaət etmək məqsədilə eyni elmi biliklər əsasında fənlərarası əlaqələr qurmaqdır.

Şaquli istiqamətlər vahid təfəkkür tipinin (humanitar, musiqili və s.) formalaşması və dünyanın vahid mənzərəsinin yaradılması üçün fənlərarası

əlaqələrin qurulmasına yönəldilmişdir. Gələcək musiqi müəllimlərinin peşə hazırlığında elmi inteqrasiyanın didaktik əsaslarından getdikcə daha çox istifadə olunur ki, bu da tədrisdə inteqrativ yanaşma, fənlər arasında əlaqə yaratmağa əsas verir. Bütün bunlar şagirdlərin təfəkkür dinamizmini, yaradıcılıq fəaliyyətini formalaşdırır, vahid elmi dünyagörüşünün formalaşmasını təmin edir.

İnteqrativ yanaşma təhsil və idrak fəaliyyətinin sistemləşdirilməsinə kömək edir və alimlərin fikrincə, şagirdlərin dünyagörüşünün formalaşmasını, zamana qənaət etməyi sürətləndirir. Fəlsəfi nöqteyi-nəzərdən inteqrasiya bir inkişaf prosesi kimi müxtəlif elementlərin birləşməsi ilə bağlıdır və bu mövcud sistemdə baş verir. Psixologiyada inteqrasiya sistemdaxili proseslərin nizamlılığı, ardıcıllığı kimi üzə çıxır.

Hələ antik fəlsəfədə Aristotel, Platon, Demokrit kimi mütəfəkkirlərin elmi biliklərin vəhdəti ideyaları öz əksini tapmışdır. Bu cür fikirlər Q.Hegel və İ.Kant tərəfindən də öz əsərlərində şərh edilmişdir. İ.Q.Pestalotsinin fikrincə, təlim prosesinin iki tərəfi var, bir tərəfdən ayrı-ayrı fənlər arasında fərqləndirmə, digər tərəfdən aydın anlaşılan oxşar fənlərin birləşdirilməsi. K.D.Uşinski nəzəriyyənin öyrədilməsinin analitik-sintetik metodunu işləyib hazırlamış, burada yazı və oxumanı birləşdirmişdir.

V.Suxomlinski idrak fəaliyyətinin əsas növlərini birləşdirərək inteqrasiya olunmuş dərs nümunələrini işləyib hazırlamış, burada idrak fəaliyyətinin əsas növlərini birləşdirmişdir.

Müasir alimlərdən A.Y.Danilyuk, A.A.Verbitski hesab edirdi ki, inteqrasiyadan daha çox təfəkkür psixologiyası ilə didaktikanın birləşdiyi təlim nəzəriyyəsində istifadə olunur [10, c.32- 41].

Fizioloq alimlər İ.P.Pavlov, İ.M.Seçenov, psixoloqlar N.A.Mençinskaya, A.N.Leontyev və başqalarının fikrincə, inteqrasiyanın fizioloji əsasını ali sinir sisteminin fəaliyyətinin qanunauyğunluğu təşkil edir. Bu fikirlər Y.A.Samarinin nəzəriyyəsində davam etdirilir. Müvəqqəti əlaqələri assosiasiya sistemi hesab edən Samarinə görə, burada inteqrasiya əlaqələrinin əsasını insanın psixi fəaliyyətinin ən yüksək mərhələsi olan sistemlərarası assosiasiyalar təşkil edir.

Müvəqqəti əlaqələr fənnə istənilən prizmadan baxmağa imkan verir ki, bu da onun tam təsvirini verir. Hər bir peşəkar müəllim başa düşür ki, musiqi sənəti insanda müəyyən fizioloji təsir yaradır. İ.M.Dogel və İ.R.Tarxanov musiqinin insan orqanizminə təsirini eksperimental olaraq araşdırmışlar. Onların təcrübələrindən aydın olur ki, musiqi tənəffüs orqanlarına, qan dövranına və digər fizioloji proseslərə təsir göstərir. Bununla da onlar mühüm bir xüsusiyyəti aşkar etmişlər: emosional məzmun baxımından dinləyiciyə yaxın olan musiqi səslərinin və ya melodiyaların ardıcıllığı, fizioloji proseslərə ayrı-ayrı səslərdən qat-qat güclü təsir göstərir. Buradan belə nəticəyə gəlmək

olar ki, orqanizmin melodiya və ya musiqiyə reaksiyası onun fizioloji refleksindən çox emosional-psixoloji təsiri ilə müəyyən edilir.

Gerçəkliyi öyrənən bir çox elmlər müxtəlif üsul və metodlardan istifadə edirdilər. Əgər inteqrasiyanı nəzərə alsaq, görərik ki, fənlər bir-birini tamamlayır, bir-birinə nüfuz edir və qarşılıqlı fəaliyyət göstərirlər. İnteqrasiya təlim zamanı fənlərarası problemləri nəzərdən keçirir və bununla da mövcud proqramların əhatə dairəsini genişləndirir ki, bu da mühazirə və söhbət, müşahidə və təcrübə, təhsilalanların sərbəst işinin izahı və idarə edilməsi kimi tədris metodlarını özündə birləşdirməyə imkan verir.

Musiqi müəllimi musiqi pedaqoji sənətinin əsas qanunlarını bilməli, müxtəlif metodoloji anlayışları təhlil etməyi bacarmalı, musiqi alətində ifanın xüsusiyyətlərini başa düşməlidir. Bundan əlavə müəllim şagirdləri işləmək, musiqi alətində yaradıcı baxımdan ifa etmək həvəsinə, ənənəvi musiqinin mənşəyini öyrənməyə, xalq yaradıcılığının davamçısı olmağa, biliklərindən tədris prosesində istifadə etməyə istiqamətləndirməlidir [12, c.26-29].

Kurrikulum tədris proqramlarında müxtəlif fənlər üzrə eyni bir mövzu müxtəlif vaxtlarda öyrənilir, lakin inteqrasiya bu ziddiyyətlərin aradan qaldırılmasına və tədris vaxtına qənaət etməyə kömək edir. Müasir universitetlərdə mütəxəssislərin hazırlanması sistemində fənlərin inteqrasiyasının əsas ideyası ondan ibarətdir ki, hər bir fəndən ən vacib olanı götürmək və onları bütövlükdə birləşdirib praktikada tətbiq etməkdir. Bu isə tədris fənlərinin öyrənilməsi ardıcıllığına yenidən baxılmasını tələb edir.

İnteqrasiya mahiyyətə, yəni dəyişilməyə yönəlmiş fəaliyyətə nüfuz etməklə başlayır. Əgər inteqrasiyanı bir proses hesab etsək, onda inteqrasiyanın obyektinin (tədris fənlərinin) əsaslarını öyrənmək vacibdir. Bu onunla əlaqədardır ki, hər hansı bir tədris prosesi monosistem kimi təqdim oluna bilər ki, burada uyğun fənlərlə əlaqə olmalıdır. Fənlərin bir-biri ilə əlaqəsi onların məntiqi inkişafına və öyrənilmə ardıcıllığına şərait yaradır.

Yadda saxlamaq lazımdır ki, bütün fənlər semestrlər və tədris illərinə uyğun olaraq inteqrasiya prosesi ilə müəyyən edilmiş bir ardıcıllıqla tərtib olunur: ilk növbədə ümumi anlayışlar və müddəalar nəzərə alınır və təlimin sonrakı mərhələlərində digər fənlərlə əlaqələrə diqqət yetirilir. Bu da təhsil sisteminin keyfiyyətinin yaxşılaşdırılmasına və gələcək peşəkar mütəxəssislərin hazırlanmasına müsbət təsir göstərir.

İnteqrasiya elmi bilikləri obyektiv əks etdirmək, fənlərarası əlaqələri və elmi-tədqiqat metodlarını effektiv göstərmək üçün nəzərdə tutulmuşdur. İnteqrasiya yeni faktların, qənaət, təklif və nəticələrin əldə edilməsinə xidmət edir, eyni zamanda pedaqoji yaradıcılığın və şagirdlərin qabiliyyətinin üzə çıxarılmasına imkan verir.

İnteqrasiya aşağıdakılarla nəticələnə bilər:

- biliyin kompleks tətbiqi, ideyaların bir elmdən digərinə ötürülməsi;

- elmi- idraki qabiliyyətlərin artırılması, hərtərəfli şəxsiyyətin inkişafı;
- əldə edilmiş biliklərin təsnifatı.

Texnoloji tərəqqi əsrində musiqi təhsilində fənlərarası yanaşma biliklərin sintezinə gətirib çıxarır, inteqrasiya edilmiş düşüncəyə, cəmiyyətin proqramların tətbiqinə marağını artırır.

**ƏDƏBİYYAT**


1. *Əliyev A.H.* Ümumtəhsil sistemində təlim texnologiyalarına keçidin vacibliyi haqqında // Azərbaycan məktəbi, Bakı, 2006, №2, s.26-31
2. *İlyasov* M. Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyinin müasir problemləri: Monoqrafiya. Bakı: Elm və təhsil, 2012 s.184-192
3. *Mehrabov A.O.* Azərbaycan təhsilinin müasir problemləri. Bakı: Mütərcim, 2007, s.103-111
4. *Nəzərov A.* Müasir təlim texnologiyaları: Dərs vəsaiti. Bakı, 2012, s.35
5. *Süleymanova A.* Təhsilin əsasları. Bakı, 2014, s.270
6. *Безрукова В.С.* Интеграционные процессы в педагогической теории и практике. Екатеринбург, 1994, 164 с.
7. *Беспалько В.П.* Процесс обучения, управляемый компьютером // Народное образование, 2017, №5, с. 61-71
8. *Бондарева С.К.* Психолого-педагогические проблемы интегрирования образовательного пространства: Избранные труды. 3-е изд., стер. М.: МПСИ, 1999, 352 с.
9. *Вербицкий А.А.* Контекстно-компетентностный подход к модернизации // Высшее образование в России. 2010, № 5, с.32-37
10. *Данилюк А.Я.* Модернизация высшего педагогического образования. /А.Я. Данилюк, В.И. Мареев // Педагогика. 2007, №9, с.32- 41.
11. Интеграция современного научного знания. Киев.: Наукова думка, 1984, 195 с.
12. *Шадриков В.Д.* Новая модель специалиста: инновационная подготовка и компетентностный подход /В.Д. Шадриков // Высшее образование, 2005, № 6, с.26-29


Redaksiyaya daxil olub 24.02.2022

Pedaqoji Universitetin Xəbərləri. Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər seriyası –2022, C.70, №1, s. 121-125
Transactions of Pedagogical University. Series of humanitarian, social, pedagogical and psychological sciences – 2022, V.70, №1, pp. 121-125

*UOT 78.07*

***F.İ.Rzayeva***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
*firangiz-rzayeva@mail.ru*

# MUSİQİ MÜƏLLİMİNİN PROFESSİONAL ƏHƏMİYYƏTLİ VƏ YARADICI KEYFİYYƏTLƏRİNİN İNKİŞAFI

***Açar sözlər:*** *musiqi müəllimi, yaradıcı ziyalı, musiqi sənəti, yaradıcı keyfiyyətlər, maraq, motivasiya*

Məqalədə qeyd olunur ki, ənənəvi təhsil modeli mədəniyyətin bir nəsildən digərinə ötürülməsini təmin edir. Müasir mədəni vəziyyət ənənəvi təhsil paradiqmasına yenidən baxılmasını tələb edir. Təhsilin əsas mənası müxtəlif sahələrdə bəşəriyyət tərəfindən toplanmış biliklərin bir qisminin öyrədilənlər tərəfindən əks olunmasıdır. Müasir psixologiya və pedaqogika üçün fəaliyyətin ən mühüm motivlərindən biri marağın dərk olunmasıdır. Məqalədə xüsusi olaraq musiqi yaradıcılığı zəminində ifaçılıq və pedaqoji motivasiyanın əlaqəsi vurğulanır.

***Ф.И.Рзаева***

## РАЗВИТИЕ ПРОФЕССИОНАЛЬНО ВАЖНЫХ И ТВОРЧЕСКИХ КАЧЕСТВ УЧИТЕЛЯ МУЗЫКИ

***Ключевые слова:*** *преподаватель музыки, творческий интеллектуал, музыкальная специальность, творческие качества, интерес, мотивация*

В статье отмечается, что традиционная модель образования обеспечивает передачу культуры от одного поколения к другому. Современная культурная ситуация требует пересмотра традиционной образовательной парадигмы. Основной смысл образования заключается в том, чтобы часть знаний, накопленных человечеством в различных областях, отражалась на тех, кого обучают. Одним из важнейших мотивов для современной психологии и педагогики является восприятие интереса. В статье выделяется особая связь музыкального исполнения с педагогической мотивацией в сфере музыки.

***F.I.Rzayeva***

## DEVELOPMENT OF PROFESSIONALLY IMPORTANT AND CREATIVE QUALITIES OF MUSIC TEACHER

***Keywords:*** *music teacher, creative intellectual, music art, creative qualities, interest, motivation*

The article notes that the traditional model of education provides for the transmission of culture from one generation to another. The modern cultural situation

requires a reconsideration of the traditional educational paradigm. The main meaning of education is the reflection of some of the knowledge accumulated by mankind in various fields. One of the most important motives for modern psychology and pedagogy is the perception of interest. The article emphasizes the connection between performance and pedagogical motivation, especially in the field of music.

Son illər psixoloqların, pedaqoqların, ziyalıların çıxışlarında, çap olunmuş əsərlərində təhsil problemləri xüsusi aktuallıq kəsb edir. Bunu, sadəcə, təsadüf və ya intellektual dəb kimi qəbul etmək olmaz. Sözsüz ki, bunların arxasında ümumdünya sivilləşmə prosesinin bəzi təmayülləri durur. Təhsil mövzusunda aparılan istənilən mübahisə zamanı həm klassik konsepsiyaların, modellərin, pillələrin və institutların kəskin tənqidinə geniş yer verilir, həm də müasir mədəni şəraitə uyğun üsulların axtarışına xüsusi diqqət yetirilir. Bizə məlum olan ənənəvi təhsil modeli praktiki olaraq həmişə mədəniyyətin bir nəsildən digərinə ötürülməsini təmin edir. Belə təhsilin əsas mənası müxtəlif sahələrdə bəşəriyyət tərəfindən toplanmış biliklərin bir qisminin öyrədilənlər tərəfindən əks olunmasıdır. Burada məqsəd mövcud olan sosial-iqtisadi strukturlara qoşulmağa hazır olan mütəxəssislərin yetişdirilməsidir.

Belə olan halda xüsusi olaraq mədəniyyətləşdirilmiş və tələb olunan istiqamətdə «cilalanmış» mədəni materialın sadəcə «formalaşdırılanların» şüuruna köçürülməsi mümkün və kafi hesab edilir. Əlbəttə, belə təhsildə insan nəinki təhsil prosesinin subyekti deyil, o, hətta fərd, şəxsiyyət kimi də mövcud deyil. O, burada, yalnız təhsil obyektidir.

Müasir mədəni vəziyyət ənənəvi təhsil paradiqmasının yenidən baxılmasını tələb edir. Çünki bunlar müasir dövrdə sivil cəmiyyətin inkişafını təmin edə bilmirlər.

Müasir dünyada mədəniyyətin təkamülü və inkişafı prosesində yaradıcı ziyalılar xüsusi məsuliyyət daşıyırlar. Nəhəng vəzifələrin həllində məhz incəsənət insan sivilizasiyasının qorunması missiyasını həyata keçirməlidir.

Bu, planetimizi təşkil edən bütün insanların yaradıcı əməkdaşlığına istiqamətlənən yeni növ insan münasibətləridir. İncəsənətin müxtəlif növləri sırasında musiqi özünün daxili xüsusiyyətləri, müasir texniki imkanlarına görə bütün bəşəriyyətin əsl beynəlmiləl xəzinəsinə, sərvətinə çevrildi və beləliklə, müxtəlif mədəni cəmiyyətlərin ünsiyyətinin təşkilində kütləvi və universal vasitə oldu.

Ali məktəb qarşısında qoyulan vəzifələr musiqi müəlliminə olan müasir tələblər ətrafında olan polemikaya yeni impuls verdi. Bura pedaqoji yönümlü musiqi müəllimlərində tədris-tərbiyə prosesinin məzmunu, tədris plan və proqramlarının vəziyyəti məsələləri daxildir. Qeyd etməliyik ki, bu məsələlər ənənəvi olaraq sırf professional musiqi ifaçıları hazırlığına istiqamətlənən

konservatoriya üçün də aktualdır. Ümumilikdə maarif və mədəniyyətin müasir vəzifəsi pedaqoq-musiqiçinin hazırlanmasıdır.

Hər il Azərbaycan Dövlət Pedaqoji Universitetində musiqi müəllimi ixtisası üzrə müəyyən sayda yetişdirdiyimiz gənc ixtisasçı məzunlar Respublikamızın ümumtəhsil məktəblərinin musiqi müəllimləri sırasına daxil olurlar. Qeyd etməliyik ki, bəzən onların müstəqil fəaliyyət yolları yüngül və sadə olmur. Çox vaxt gənc müəllimlər müəyyən çətinliklərlə qarşılaşırlar. Məlum olur ki, onların konkret, real, dərkolunmuş məqsədləri olmur və beləliklə, fəaliyyətlərində psixoloji boşluq, vakuum yaranır. Bu hal isə hər birimiz üçün, xüsusilə yeni pedaqoji fəaliyyətə qədəm qoymuş mütəxəssis üçün arzuolunmazdır.

Pedaqoji fəaliyyətimin əsnasında keçmiş məzunlarımla bu mövzuda söhbət etmək mənə nəsib olmuşdur. Onların mənəvi vəziyyətlərini yaxşı dərk edirdim. Məlumdur ki, insanın hər bir fəaliyyət sahəsinin məqsədi olmalıdır. Bu onun daxili aləmi, mənəvi tarazlığı üçün vacibdir. Bu halda məktəbdə fəaliyyətə başlayan musiqi müəlliminin məqsədi nədən ibarət olmalıdır? Kimsə dərslərinin uşaqlar üçün sadəcə canlı və maraqlı olmasını istəyir, digəri əsasən təhsili, bacarıq səviyyəsinin yüksəlməsinə istiqamətlənir, başqası isə gələcəkdə elmi fəaliyyət ilə məşğul olmaq haqqında düşünür.

İnsanın həyatda olan məqsədi onun maraqları, yəni ona nə xoş gəlirsə və daxili hansı istiqamətə yönəlməsi ilə daim əlaqəlidir. Hər bir fəaliyyətə, işə olan maraq bu sahədə əldə olunan uğurlardan və ya uğursuzluqdan asılıdır. İnsan nəyi isə əldə edirsə, ona nail olursa, maraq əhəmiyyətli dərəcədə yüksəlir, artır. Əks halda isə marağın səviyyəsi aşağı düşür. Bəzən gənc musiqi müəlliminin pedaqoji fəaliyyətinin əvvəlində dəstəklənməsi onun gələcək professional işi yolunda bir çox cəhətdən təsdiq olunması və müəyyənləşməsi deməkdir.

Müasir psixologiya və pedaqogika üçün fəaliyyətin ən mühüm motivlərindən biri marağın dərk olunmasıdır. Bununla yanaşı, maraq bütöv şəxsiyyətə xas olan həmin münasibət və tələbatların vahid strukturunda nəzərdən keçirilir.

Alimlərin ümumi rəyinə görə, maraq zövq verən müəyyən fəaliyyətlə məşğul olmaqda şəxsiyyətin tələbatı kimi üzə çıxır. Bütün psixiki proseslər daha səmərəli şəkildə keçdikdə, fəaliyyət isə nəticə etibarı ilə səmərəli olduqda maraq şəxsiyyətin fəallığının törədici səbəbi kimi çıxış edir. Maraq şəxsiyyətin öz qabiliyyətini artırır və çətin qavranılan materialı dərk etmək cəhdi oyadır.

Musiqi müəlliminin motivasiya sferasına tələb olunan diqqətin az olması müxtəlif arzuolunmaz nəticələrə gətirir. Məsələn, müxtəlif profilli pedaqoji kadrların hazırlığında sırf musiqi müəllimi ixtisasına aid olan bacarıq və vərdişlər ilə gənc mütəxəssisin pedaqoji fəaliyyətinin müəyyən növünə olan psixoloji hazırlığı və mənəviyyəti arasında uçurum yaranır.

Pedaqoji kadrların hazırlığına olan müasir yanaşmada gələcək musiqi müəllimlərinin motivasiya sferasının optimal psixoloji-pedaqoji şəraitinin yaranması mühüm istiqaməti təşkil edir. Burada bir neçə əhəmiyyətli aspektləri vurğulamaq olar (3).

Ən əvvəl, musiqi yaradıcılığı zəminində ifaçılıq və pedaqoji motivasiyanın əlaqəsini qeyd etməliyik. Bütün musiqi ixtisaslarını qohumlaşdıran, əlaqələndirən ümumi elementi, yəni musiqi yaradıcılığını vurğulamalıyıq.

Ali təhsil müəssisələrində tələbələrlə keçirilən tədris məşğələsinin məzmununun onların həyati məqsədləri ilə qarşılıqlı əlaqəsini nəzərdə tutmaq vacibdir. Zənnimizcə, musiqi müəllimi ixtisası hazırlayan fakültələrə ümumi pedaqogika və psixologiya fənləri ilə yanaşı, tədris planına musiqi pedaqogikası və musiqi psixologiyası fənlərinin daxil edilməsi məqsədəuyğun olardı.

Gələcək musiqi müəlliminin ən məsuliyyətli və mürəkkəb funksiyalarından birini onun musiqi ifaçısı ampluası təşkil edir. Dəfələrlə bir çox təcrübə müəllimləri və metodistlərin, ali təhsil müəssisələri müəllimlərinin çıxışlarında musiqi müəlliminin bədii-pedaqoji fəaliyyəti fərqləndirilib.

Musiqi müəlliminin ifaçılıq sənəti musiqi-ifaçılığı sinfi məşğələlərində inkişaf edir və təkmilləşir. Bu sıraya ilk növbədə musiqi aləti, həmçinin vokal, xor dirijorluğu dərsləri daxildir.

Pedaqoji təcrübənin təhlili sübut edir ki, musiqi müəllimi hazırlığında fərdi dərslərin imkanları tam şəkildə realizə olunmur. Musiqi müəlliminin xüsusi hazırlığı prosesində şəxsiyyətin emosional-iradi və dərkolunma məsələləri onun diqqətindən kənarda qalır. Bura professional cəhətdən mühüm olan emosional qavrama, məqsədyönlülük, inadkarlıq, diqqət, yaddaş kimi mühüm və vacib keyfiyyətlər daxildir (1).

Musiqi müəlliminə aid olan mühüm məsələlərdən biri onun yaradıcı potensiala malik olmasıdır. Məlumdur ki, müəllim təhsilin əsas, aparıcı qüvvəsidir. Ancaq şəxsiyyətə şəxsiyyəti tərbiyə etmək imkanı verilir. Əfsuslar olsun ki, bir çox musiqi müəllimlərində yeniliyi qəbul etmək hissiyatı kifayət qədər inkişaf etməyib. Onlar pedaqogika elminin daim axtarışlar aparan xüsusiyyətindən uzaqdırlar.

Dünyamızda bir çox dəyişikliklər baş verir, bütün sahələrdə inkişaf gedir. Lakin insanlara qarşı olan xeyirxahlıq, dözümlülük, işinə olan fədakarlıq, mərhəmət alleqoriyaları dəyişməz olaraq qalır. İnsan əqlinin imkanları hüdudsuzdur. Lakin onun yaratdıqlarının bir çoxu ona əks təsir göstərir və insanlığa xidmət etmir. İnsan əqlinə əks olaraq yaratdığı yüksək nailiyyətlər dəyərlərin, zinətlərin məhv olmasına xidmət edir. İnanırıq ki, bu hal əsl incəsənətə aid olmayacaq.

Musiqi müəlliminin əlində olan incəsənət əsərlərinin nəhəng qüvvəsi gənc nəslin daxilində, ürəyində xeyirxahlıq hissi oyadacaq, yaradıcılıqlarını

alovlandıracaq, qarşılarına qoyduqları məqsədlərə çatmaq üçün çətinlikləri dəf etməyi öyrədəcəklər.

Musiqi müəlliminin əlində iki nəhəng qüvvə cəmlənib – musiqi səslərinin sənəti və tərbiyəçinin tərbiyə olunanla ünsiyyət qüvvəsi. Müasir dövrdə zəmanəmizin ziyalısında hansı keyfiyyətlərin olması məsələlərində tez-tez mübahisələrə, müzakirələrə rast gəlirik. Hər bir musiqiçi-pedaqoq özündə və eyni zamanda tələbəsində yüksək professionallığa malik olan ziyalı insan, mənəvi cəhətdən inkişaf etmiş, ictimai həyata geniş və dərin marağı, fəal həyat mövqeyi olan mütəxəssis yetişdirməlidir.

Ali təhsil müəssisəsində professor-müəllim heyətinin şəxsi nümunəsi olmadan gənc nəsil nümayəndələrinin tərbiyə olunması vəzifəsinin öhdəsindən gəlmələri mümkün deyil.

Beləliklə, müasir dövrdə ümumi pedaqogika sistemində musiqi pedaqogikasına baxış onun inkişafında yeni evristik imkanlara yol açır. Bu hal, ən əvvəl, yeni elmi biliklərin əldə olunmasının üsul və formaları, həmçinin əldə olunmuş nailiyyətlərin dərk olunması sahəsində baş verir.

## ƏDƏBİYYAT


1. *Rzayeva F.* Musiqi müəlliminin musiqi-ifaçı ampluası haqqında // Pedaqoji Universitet Xəbərləri, 2005, № 3, s.339-342
2. *Арчажникова Л. Г.* Профессия – учитель музыки. М.: Просвещение, 1984, 111 с.
3. *Бальчитис Э.* О системе и методах обучения музыке в средних классах общеобразовательных школ Литвы // Музыкальное воспитание в СССР, В.1. М.: Советский композитор, 1978, с.235-301
4. *Исаев Е.И.* Теория и практика психологического образования педагога // Психологический журнал, 2000. Т.21, № 6, с.57-65


Redaksiyaya daxil olub 08.01.2022

# YAZI QAYDALARI

- "Pedaqoji Universitetin Xəbərləri" dövri elmi jurnalının "Humanitar, ictimai və pedaqoji-psixoloji elmlər" seriyası əvvəllər nəşr olunmamış elmi məqalələri qəbul edir.
- Məqalələr **Azərbaycan, ingilis, türk** və **rus** dillərində jurnalın elektron ünvanına – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com** göndərilir.
- Məqalələr **Microsoft Word** proqramında Times New Roman şrifti ilə 12 pt. ölçüdə 1,0 intervalla yazılmalıdır. Səhifə ölçüləri: sağdan və soldan 2,0 sm, yuxarıdan 2,5 sm, aşağıdan 2,2 sm olmalıdır.
- **Başlıq** ortada qara və böyük hərflərlə yazılmalıdır.
- Məqalənin quruluşu aşağıdakı bölümlərdən ibarət olmalıdır: müəllifin adı, ata adı və soyadı, iş yeri, elmi dərəcəsi və elmi adı, üç dildə açar sözlər və xülasə (100-150 sözdən ibarət, 11 pt. ilə) ədəbiyyat siyahısı. Hər üç dildə yazılmış xülasələr bir-birinin eyni olmalı və məqalənin məzmununa uyğun olmalıdır.
- Məqalələrdə verilən **şəkil, rəsm, qrafik və cədvəllər** düzgün, aydın və mətn içərisində olmalı, onlara aid olan yazılar altında yazılmalıdır.
- **İstinadlar** mətn içərisində kvadrat mötərizədə göstərilməklə məqalənin sonunda əlifba ardıcıllığı ilə nömrələnməlidir. Məsələn: [1, s. 8].
- Ədəbiyyat siyahısında verilən hər bir istinad haqqında məlumat tam və dəqiq olmalıdır. İstinad olunan mənbənin biblioqrafik təsviri onun növündən (monoqrafiya, dərslik, elmi məqalə və s.) asılı olaraq verilməlidir. Simpozium, konfrans materiallarına və ya tezislərinə istinad edilərkən məqalə və ya tezisin adı göstəriməlidir.
- Məqalələrin həcmi: 5-12 səhifə.
- Məqalələr mütəxəssis rəyi (məxfi olaraq) əsasında jurnalın redaksiya heyətinin qərarı ilə çap olunur. Redaksiya düzəlişlər etmək üçün məqaləni müəllifə qaytara bilər.
- Məqalədə gedən hər hansı bir elmi yenilik, tezis və s. üçün müəllif şəxsən məsuliyyət daşıyır.
- Jurnalda dərc olunmayan məqalələr geri qaytarılmır.

# WRITING RULES

- “Humanitarian, social and pedagogical-psychological sciences” series of the periodic scientific journal “Transactions of Pedagogical University” accepts previously unpublished scientific articles.
- The articles can be sent in **Azerbaijani, English, Turkish** and **Russian** languages to the journal’s electron address – **jhss@adpu.edu.az, n.q.aslanova@gmail.com**.
- Articles should be written in **Microsoft Word** writing program Times New Roman alphabet in the font size 12 punto with interval between line in the range of 1.0 characters. Page sizes: from the right and left 2.0 sm, from above 2.5 sm and the bottom 2.2 sm.
- **The title** should be written in black and capital letters in the middle.
- The structure of the article should be consist of the following format: author's first name/patronymic/last name, position, scientific degree and title, a summary and the key words in three languages (100-150 words, 11 punto) and the list of literature. Summaries written in three languages should be equal to each other and match the content of the article.
- **The drawings, pictures, graphics and tables** in the articles should be correct, clear and given in the text and writings that belong to them should be written underneath.
- References indicating in square brackets should be numbered in alphabetical order and given at the end of the article. For example: [1, 8]
- Information about any reference given on the list of literature must be complete and accurate. The bibliographic description of the source reference should be based on its kind (monographs, textbooks, scientific papers, etc.). The name of the article or thesis must be shown when referring to the symposium, conference materials or to the theses.
- The volume of the articles: 5-12 pages.
- Articles are published on the basis expert review (in confidence) by the decision of the Editorial Board of the journal. Editorial Board may return the article to the author to make corrections.
- Unpublished articles are not returned.

*Nəşriyyatın direktoru:* Hüseyn Hacıyev
*Texniki redaktor:* Mustafa Şəfiyev
*Korrektor:* Sevinc Mamoyeva

Çapa imzalanmışdır: 28.03.2022
Kağız formatı $70\times100^{1/16}$, 8,0 ç.v.
Sifariş 160. Sayı 100.

**ADPU-nun mətbəəsi**
Bakı, Ü.Hacıbəyli, 68